ŞİRİN BÜLBÜL

1

Elə bir zamandan danışıram ki, böyüklərin xatirəsində çox yaxşı qalıb, kiçiklərin isə heç ağlına gəlməz.

O zamanlar Bakı belə deyildi. Küçələr, meydançalar dava meydanına bənzəyirdi; vuran vuranın, kəsən kəsənin idi. Güclülər gücsüzlərin başına yumruqlar yağdırırdı. Zorlular zorsuzlara qan uddururdu. Aləm bir-birinə qarışmışdı. İt yiyəsini tanımırdı. Müxtəsər, müsavat zamanı idi.

İndi boyu daha da balacalanmış, rəngi daha da saralmış, danışığını itirmiş yekəburun Cəlil Naim əfəndi o zamanlar Azərbaycanın şirin bülbülü idi.

Təzəpirdə "din və millət düşmənlərinə" qarşı tarixi söyüşlərə çıxan və camaatın ağzını heyrətdən yarım saat açıq qoyan yalnız və yalnız Cəlil Naim əfəndi olmuşdu.

İngilislər Azərbaycana dəvət olunmamışdan qabaq Quba meydanında, Kömürçü bazarında o, ingilislərin əleyhinə düz saat yarım çənə işlətmiş və bütün bazar camaatının qəlbində böyük bir həyəcan törətmişdi.

İngilislər gələndən sonra isə Cəlil Naim əfəndi tamam dəyişmiş, başqa havalar çalmağa başlamışdı. Bakı kommunarları güllələnənən gecə o, qumarda pul udmuş və sərxoş olub, general Tomsonun yaşadığı binanın qaravulçusu ilə öpüşmüşdü.

Osmanlılar Bakıya hücum edəndə Cəlil Naim əfəndi "Ay camaat, qoymayın, sünnülər gəldi şiələri öldürməyə" – deyə təbliğat aparmışdı.

Osmanlılar Bakıya girən kimi isə Cəlil Naim əfəndi dilini, qafiyəsini dəyişmiş və osmanlı dili ilə danışmağa, osmanlı yeməyi yeməyə, osmanlı qaşığı işlətməyə başlamışdı. Bakı camaatı bu dəfə də Cəlil Naim əfəndinin nitqini dinləməyə nail olmuşdu. Osmanlı çavuşlarının nəzərləri altında əriyərək "Ax, osmanlılar, osmanlılar" – deyə Cəlil Naim əfəndi tribunada ağlamış və onu oradan güclə dartıb düşürmüşdülər.

Osmanlılar Azərbaycandan çəkilən kimi isə o, yenə söyüşə başlamışdı.

Cəlil Naim əfəndi bu cür yüksəlmiş, bu cür artmış və bu qədər uca mərtəbəyə çatmışdı. İndi artıq meydan boşaldıqdan sonra onun bazarı yaman rəvac olmuşdu. O, İndi təkcə Bakıda deyil, bütün Azərbaycanda nitqlər söyləməyə və böyük-böyük işlər görməyə başlamışdı.

Budur, Cəlil Naim əfəndinin evinin qabağında bir fayton dayanmışdır. Faytonçu kozlada oturaraq çubuq çəkir və gözlərini bir nöqtəyə zilləyərək düşünür. Faytonun atları da qulaqlarını salıb, ay dodaqlarını uzadaraq düşünürlər.

Cəlil Naim əfəndi təbliğat üçün kəndlərə gedəcək, orada müsavatın vəziyyəti və hökumətin möhkəmliyi haqqında məruzə etdikdən sonra, sadiq və yararlı adamlar tapıb, öz sıralarına yazacaqdır.

* * *

Budur, ikimərtəbəli binanın böyük qapısı taybatay açıldı. Gödəkboylu Cəlil Naim əfəndi evdən çıxdı. Atlar bir qorxu varmış kimi qulaqlarını şəkləyərək başlarını qaldırdılar. Faytonçu cilovları düzəltdi. Cəlil Naim əfəndi arvad-uşağın üz-gözündən öpüb faytona mindi. Onun dalınca tez qayıtsın deyə su atdılar. Yaşmaqlı bir müsəlman arvadı gizlincə, fatonun bir yanına göy muncuq bağladı.

Fayton Bakı küçələrində toz qaldıraraq vağzala doğru yola düşdü...

* * *

Payızdır. Çöllər, dağlar vaqonun pəncərəsindən sönük xəyallar kimi ötüb keçir. Hər tərəf sapsarı saralmışdır. Çoxdan kotan görməmiş, viran qalmış tarlalarda nə bir insan, nə də bir quş görünür. Cəlil Naim əfəndi bu mənzərəyə tamaşa edərək nə isə düşünür və arabir incə-incə gülümsünür.

Onu həyatda hər şeydən çox yalnız iki şey maraqlandırır: yemək və qadın... bütün bu dağdağələrin, mərəkələrin, vuruşların, hətta bütün millətin, dinin belə əsası yemək və qadın deyilmi? – deyə o düşünür və başını silkələyərək öz sualına özü "hə" cavabı verir. Onun fikrincə yemək birincidir. Cəlil Naim əfəndiyə görə bütün mübarizələrin əsası yeməkdir, yemək fəlsəfəmizin əsasıdır. Bu əsasın ətrafını qaplayan ət isə qadındır. Qadınsız millət olmaz, qadınsız məmləkət olmaz.

Cəlil Naim əfəndi bu cür təsəvvürlərlə üç-dörd arvad alıb boşamışdı. Boşadığı arvadların hamısından yemək üstə narazı olmuşdu. Onun fikrincə qadınların kimisi yeməyi bişirir, lakin onu incəliklə, naz-qəmzə ilə yeyə bilmir; kimisində də bu nazi-qəmzə var, ancaq bişirdiyi xörəyi it də yeməz. Cəlil Naim əfəndi hələ bu vaxta qədər həm yeməyi, həm də bişirməyi bacaran qadın tapa bilməmişdi. Ona görə də bütün məhəbbətini yalnız yeməyə vermişdi.

Cəlil Naim əfəndi vaqonun pəncərəsindən uzaqlara baxır və gözünün qabağından keçən mənzərələr ona dadlı, gözəl yeməkləri xatırladırdı; sapsarı zəfəran rəngli üfüqdə dolma kimi kimi düzülmüş qara təpələr ani bir sürətlə ötüb keçir. Günəş, susuzluqdan sarı buğda kimi olmuş şaftalı bağlarını isidir. Ağaclarda nəinki şaftalı, hətta yarpaq belə olmadığı halda yetişmiş iri, sulu şaftalılar Cəlil Naim əfəndinin yadına düşdükcə ağzı sulanır, gözləri parıldayır və ona elə gəlirdi ki, bu saat hamı yemək-içməkdədir. Budur, küçədə durub qatara tamaşa edən kəndli uşaqları əllərində armud gəmirirlər. Balaca körpələr analarının döşündən iştahla süd əmirlər, quşlar dimdiklərində balaları üçün yem aparırlar. Qatarın gəlməsindən yenicə xəbərdar olan alabaş acıqlı-acıqlı hürdükdən sonra qabağındakı sümüyü gəmirir...

...Cəlil Naim əfəndi davam gətirə bilmədi. Hirslə çamadandakı bişmiş toyuğun bir budunu qoparıb bütünlüklə ağzına soxdu, bir udumda içəri ötürdü və buradan başlayaraq ta mənzilə çatana qədər fasiləsiz yedi.

Stansiyada düşdükdə artıq günorta idi. Orada burulqanlar kimi yüksələn toz sütunları günəşin qarşısında qövsi-qüzeh yaratmışdı. Hər tərəfdən yuyulmamış bozbaş qabının iyi gəlirdi. Stansiya skamyalarının üstündə paltarının rəngi ilə üzünün rəngi bir-birindən seçilməyən adamlar uzanaraq yatırdılar. Bunların üzlərinə daraşan milçəklər yaxından adam keçəndə, leş üstə daraşmış qarğalar kimi, ətrafa səpələnir, sonra isə yenə əvvəlki yerlərinə toplaşırdılar.

Cəlil Naim əfəndi stansiya rəisinin yanına girdi. Yekəbığ stansiya rəisi onu görən kimi ayağa qalxdı, yaxın gəldi və ayaqlarını bir-birinə çırparaq hərbi təzim etdi.

Rəisin boğazına qara bir yaylıq bağlanmışdı. Bu yaylığın ucundan ilişdirilmiş saat bağı aşağılara qədər uzanırdı. Rəisin yekə ağzında, qarışıq üzündə, çal saçında, qırmızı burnunda çoxdan bəri keçirdiyi sərxoşluq həyatının izi vardı.

– Bu tərəflər sakitlikdirmi?

Cəlil Naim əfəndinin bu sualına stansiya rəisi quru, rəsmi tərzdə cavab verdi:

– Sakitlikdir, cənab! Qoyun quzu ilə otlayır.

Lakin burnunun ucuna qədər tərləmiş rəis yanıldığını hiss edərək, yenidən təzim etdi və daha da qalın səslə dedi:

– Bağışlayın, cənab, demək istəyirdim ki, qurd quzu ilə otlayır.

– Yollarda qaçaq-quldur varmı?

– Nakaradırlar ki, bir yolu da tutalar!..

Bu cavabdan sonra Cəlil Naim əfəndinin ürəyi sakitləşdi. O, vüqarla belini dik tutub rəisin kabinetinə girdi və yumşaq divanın üstündə əyləşdi. Bu cür şərəfi gözləməyən rəis üç-dörd dəfə çölə çıxdı, içəri girdi, kiminlə isə pıçıldaşdı, kimə isə əmrlər verdi, sonra Cəlil Naim əfəndinin qabağında baş əyərək mehriban səslə dedi:

– Rahatlanmaq istəyirsinizmi, cənab? Hər şey hazırdır!

Cəlil Naim əfəndi səssizcə ayağa qalxdı. Sükut razılıq işarəsi olduğundan rəisdə böyük bir sevinc əmələ gəldi. O, ayaqlarını birbirindən ayırmayaraq bir də əyildi və böyük təntənə ilə qapını açdı. Çöldən içəriyə üfunətli bir qoxu gəldi.

Cəlil Naim əfəndi parıldayan çəkmələrini yerə basmaqdan qorxaraq bayıra çıxdı.

Rəisin evinin qabağındakı meydan ətraf kəndlərdən gəlmiş kəndlilərlə dolu idi. Onlar "Bakıdan hökumət gəldiyini" eşidib şikayət üçün növbə gözləyirdilər; bəziləri də dəstə-dəstə orda-burda dayanaraq, göz-qulaq olurdular ki, rəis evdən çıxanda nəzərdən qaçırmasınlar.

Cəlil Naim əfəndi rəisin evindən üç-dörd saatdan sonra çıxdı. O, sərxoş idi. Papağını lap gözünün üstünə endirmiş, pencəyini çiyninə atmışdı. Onun yaxası tamam açıq idi. Ayaqqabılarının bağları dalınca sürünürdü, səndələyə-səndələyə bir az yol getdi, sonra ayaqları bərk şeyə ilişdi. Cəlil Naim əfəndi dayandı. Ayağının altında bir kəndlinin uzandığını görüb yüksəkdən biədəb bir söyüş söydü, yanındakı rəisə tərəf dönərək dedi:

– Murad ağa, bu köpək oğlanları yenə keflidilər? Məgər mən tapşırmamışam ki, bu qədər içməsinlər? Qırmaq lazımdır hamısını! – O əyilib, diqqətlə yerdə uzanmış kəndliyə baxdı. – Buna bax, buna!.. Yəqin üç adamın arağını təkbaşına ötürüb içəri... malades! Səd malades!

Tələtümə düşmüş gəmi kimi oyan-buyana yırğalanıb birdən üzüaşağı getdi. Murad ağa onu qucaqlayıb saxlamasaydı, kim bilir o "qiymətli" baş daşa dəyib nə kökə düşəcəkdi! Bu hadisəyə heç bir əhəmiyyət vermədən Cəlil Naim əfəndi yenə Murad ağaya sarı dönüb soruşdu:

– Hə, gözünü döymə, cavab ver görüm, bu kişi niyə keflidir?

Murad ağa cavab verincəyə qədər kəndlilərdən bir neçəsi irəliləyib asta səslə dedilər:

– Ağa, kefli deyil, acdır!.. Acından ölür.

Cəlil Naim əfəndinin gözləri kəlləsinə çıxdı.

O, üzünü güclə ayaq üstə duran Murad ağaya çevirib dedi:

– Murad ağa! Sənin əziz canın üçün, bu adam lap nahaq ölür, gərək ölməsin!

Murad ağa təzim edib, ona tərəf əyildi, qıpqırmızı qızararaq cavab verdi:

– Baş üstə, cənab! Tapşıraram ölməsin.

Cəlil Naim əfəndi dalı-dalı çəkilib xəstənin üstündən tullandı və üzünü camaata çevirib yüksəkdən çığırdı:

– Siz öləsiz, camaat!.. Hamınız keflisiniz...Hamınız araq içmisiniz!.. Yaxşı eləmişsiniz. Araq içkilərin şahıdır, için bizim hökumətin sağlığına, sağ olsun müsavat!.. Ura!..

Heç kəsdən səs çıxmadı. Cəlil Naim əfəndi hədəqəsindən çıxmış gözlərini bir az oyan-buyana gəzdirdi, heç kəsin qımıldanmadığını görüb, hamının ölgün, xəstə gözlərlə baxdığını görüb ağız-burnunu qırışdıraraq çığırırdı:

– Camaat, sizin hamınızın...

O, çox qəliz söyüş söydü, ancaq yenə heç kəsdən səs çıxmadı. Ortada uzun bir sükut oldu, sonra yerdə uzanıb yatan sarıbəniz kəndli başını qaldıraraq tüpürdü və Cəlil Naim əfəndinin üzünə kinli-kinli baxaraq, onun söyüşünə daha möhkəm bir söyüşlə cavab verdi.

Hamı qorxudan diksindi. Cəlil Naim əfəndinin yuxarı qalxan tapançasını Murad ağa güclə saxladı.

Uzun həngamədən sonra onu faytona mindirdilər.

2

Cəlil Naim əfəndinin getdiyi kənd – Çinarlı kəndi stansiyadan dörd saatlıq bir məsafədə idi. Stansiya ilə bu kəndin arasında, hər iki tərəfində iri qoz ağacları əkilmiş gözəl bir yol var idi. Fayton irəlilədikcə, yoldan ötüb keçən kəndli arvadlarına, qoca kişilərə, kiçik uşaqlara və kişilərə təsadüf edilirdi.

Quraqlıq Çinarlı kəndini tamam batırmışdı. Xırman vaxtı olmasına baxmayaraq, kənddə yeməyə çörək tapılmırdı.

Meyvə yeməkdən, bulanıq göl suyu içməkdən kəndlilərin hamısının qarnı şişmiş, rəngləri saralmışdı. Səkkiz gün armud yeyib dolanan bir kəndli bu gün kəndin ortasında yıxılıb öldü. Bu ölən kəndli bütün həyatında həmin kənddən bayıra çıxmayan və həmişə azərbaycanlılarla bir yerdə yaşayıb biçinçilik edən bir erməni idi.

Kənd böyüklərinin hədə-qorxusundan bu adama bir loğma çörək də verən olmadı. Meyit hələ də kəndin ortasında qalırdı. Heç kəs onu basdırmağa cürət etmirdi. Bir yandan da əxlaqsız müsavat zabitləri camaatı dinc qoymur, iki-üç gündən bir kəndlərə qarışqa kimi daraşırdılar, "Sizi ermənilərdən saxlayırıq" – deyib gəlinlərə, qızlara sataşırdılar.

Fayton Çinarlıya girdikdə Cəlil Naim əfəndini bir dəstə atlı qarşıladı. Kəndə xəbər yayıldı. Ölümlə dolu kəndin, üzlərinə ölü rəngi çökmüş adamları qorxudan ora-bura səpələndilər.

Ətrafını atlılar bürümüş fayton kəndin ortasında – armud yeyib ölən erməninin meyidi qarşısında dayandı. Cəlil Naim əfəndi adamların köməyi ilə yerə düşdü. Yol gəldikcə Cəlil Naim əfəndinin bədənində çalxalanmış araq onun kiçik gözlərini bir az da kiçiltmiş, boynunu bir az daha qısaltmışdı. O, qabağında kəmərbəstə durmuş kənd bəyi Mürsəl bəydən soruşdu:

– Ay bəy, bu yerdə yatan adam kimdir?

– Ağa, yatmayıb, ölüdür.

– Malades... Səd malades!..

Qonaq Murad bəyin evinə getdi.

Nəşəli Cəlil Naim əfəndi oturan kimi vaqondakı düşüncəsinin mabədini bəyin adamlarına söyləməyə başladı. O, tapançasının bağını əlində oynadaraq donuq gözlərlə baxan Mürsəl bəyin qoçusuna deyirdi:

– Yemək və qadın... Həyatın mənası bu iki şeydədir. Yemək qadın kimi, qadın da yemək kimi olmalıdır.

Onun hüzurunda oturmağa cürət etməyib ayaq üstə duran Mürsəl bəy qorxa-qorxa soruşdu:

– Cənab, siz nə cür qadın təsəvvür buyurursunuz?

Cəlil Naim əfəndi üçüncü bir adamın mövcudiyyətini indi hiss etmiş kimi, üzünü Mürsəl bəyə çevirib başdan-ayağa qədər onu süzdü. Mürsəl bəy onun nəzərləri altında açıq yaxasını düzəltməyə, düymələməyə başladı. Cəlil Naim əfəndi əlini yuxarı qaldırıb yüksəkdən söylədi:

– Qadın... qadın... Arvad demirəm, arvad bir zad deyil... Mən elə qadın təsəvvür edirəm ki, onun mövcudiyyəti insan üçün ruhən bir qida olsun... Elə deyilmi, bəy?

Mürsəl bəyin ən hörmətli adamı və qolunun dayağı Əhməd bəy bu səsə yuxudan ayıldı və başı ilə razılıq işarəsi verərək dedi:

– Əlbəttə, əlbəttə!

– Saçları ipək kimi yumşaq, üzü qaymaq kimi ləzzətli, dodaqları marojna kimi olsun! Elə deyilmi, ay a bəy?!

Əhməd bəy yenə diksindi və bir daha özünü unutmamaq üçün gözlərini bərəldib qeyri-adı səslə dedi:

– Əlbəttə, əlbəttə!

– İnsan maddi yemək yedikdən sonra qadın onu ruhən qidalandırmalı... Qadın... qadın... qadın insanın allahıdır.

Cəlil Naim əfəndi səsini bir az da ucaltdı, üzünü Mürsəl bəyə çevirərək bərkdən qışqırdı:

– Yenə mənə ilham gəldi, bəy! Gətir bir az yemək yeyək, kefimiz açılsın...

Həmin saat süfrə açıldı. Cəlil Naim əfəndi böyük bir həvəslə çox sevdiyi işinə başladı.

Elə bu vaxt bəyin adamları qapı-qapı düşüb kəndliləri meydana yığmağa başladılar. Hamıya xəbər verdilər ki, bu gün kənddə müsavat firqəsi tərəfindən böyük bir mitinq olacaqdır. Hər kəs öz arzusu ilə meydana gəlməli və müsavat firqəsi haqqında olacaq məruzəni dinləməlidir.

Kənd meydanını iki nəfər yaxşıca süpürdü. Gələn çox az olduğundan əlavə tədbirlər görüldü: bir adam məscidin yanındakı ağaca çıxıb (bu ağac minarəni əvəz edirdi) bir iki ağız "əssalat" deyə çığırdı. Sonra da odunla ləyən döyməyə başladılar.

Cəlil Naim əfəndinin boyunun qısa olması, Mürsəl bəyin adamlarını düşündürürdü. Onun hamını görməsi və hamının da onu görməsi

üçün kürsünü əvəz edəcək yüksək bir şey lazım idi. Bu yüksək yeri daşlardan düzəltmək istədilər, mümkün olmadı, münasib bir şey tapmaq üçün yaxın evləri axtarmağa başladılar. Meydana yaxın bir yerdə, həyətin ortasında duran bir su boçkası var idi. Bəyin adamları onun suyunu boşaldıb meydanın ortasına gətirdilər.

Kəndlilər yavaş-yavaş boçkanın ətrafına toplaşdılar. Çadraya bürünmüş arvadlar halay vuraraq kişilərdən uzaqda oturdular və başlarını tərpədərək pıçıldaşmağa, barmaqları ilə onu-bunu göstərərək danışmağa başladılar.

Cəlil Naim əfəndi meydana yetişdikdə kəndlilər sıxlaşdılar və müsavat nümayəndəsinə yaxşı tamaşa etmək üçün daha da yaxın gəldilər.

Cəlil Naim əfəndi bəyin adamlarının vasitəsilə boçkanın üstünə qalxdı. Beş dəqiqəyə qədər öz müvazinətini saxlamaq üçün əlləşdi, sonra da tədricən səsini ucaldaraq danışmağa başladı:

– Həzərat! – dedi. – Ey Çinarlı kəndinin camaatı! Mən bizim hökuməti-milliyyəmizin müqəddəs firqəsi olan müsavat firqəsi tərəfindən göndərilmişəm. Mən sizə öz milli firqəmizin məna və əhəmiyyətindən bəhs edəcəyəm...

O əvvəlcə mənasını özü də bilmədiyi farsca bir beyt oxudu:

– Camaat, farslar deyirlər ki:

İlahahü əcz nəzdi sitəm pişə əbləhəst
Əşki-kəbab baisi-tüğyani-atəşəst.

– Ey samein kəndlilər! Əgər miyanınızda düşmən, ərbabi-kafiri var isə, onunla söhbəti-sazidən etina və ictinab edərək mübarizeyi-əşəddi ondan əsirgəməyin. Firqeyi-müsavat, firqeyi-müsəlman, firqeyi-ədalət məqamındadır. Firqeyi-müsavat cümlə əvamünnasın dəfatiri-əkabirində məsturdurlar ki, bu firqeyi-həmşəmətpənah onları kafiran hücumundan və bəlayi-ermeniyyədən dəf etməyə müvəffəq olmuş və həzrəti-Allahın mübarək kölgəsinin onların üzərinə düşməsinə xeyli yardımda bulunmuşlardır.

Cəlil Naim əfəndi nöqtəni qoyub bir az nəfəs alan kimi arvadlar oturan tərəfdən bərk ağlaşma qopdu. Eşidilən hıçqırıqlar arasında:

– Can, axund əmi! İmama Allah rəhmət eləsin!

– Nəfəsinə qurban!

– Yezidə lənət, – kimi səslər eşidildi. Həmin saat bəyin adamları aralığa səpələndilər. Çoxdan bəri imam büsatı görməmiş və natiqin danışığından məhərrəmliyi xatırlayan arvadları güclə sakit etdilər.

Məhərrəmlik büsatını xatırlamış arvadlar daşların üstündə otura bilmədilər. Ürəklərini boşaltmaq üçün evlərinə qayıtdılar. Bircə dəqiqədə meydan arvadlardan boşaldı.

Hay-haray kəsildikdən sonra Cəlil Naim əfəndi boğazını yana uzadıb bir-iki dəfə öskürdü və sözünə davam edərək dedi:

Camaat! Ey Çinarlı kəndinin avam əhalisi! Mənim sizə nəsihətim budur ki, dünyada bütün öyilikləri zəxireyi-axirət qılıb səriüzzəval olan dünyayi-qəddarə vəfa etməyin və əmri-napak, qəribi-bəid nəfəsi əziziniz kimi bilib heç bir pisliyi onların babində rəva görməyin. Ancaq və ancaq və yenə də ancaq... bizi istəməyənləri sərnigün etmək lazımdır, sərnigün...

Dal sırada oturan kəndlilərə yavaş-yavaş dən düşürdü. Camaat Cəlil Naim əfəndinin nitqinin nəşəsi ilə, yavaş-yavaş dağılırdı. Cəlil Naim əfəndi danışdıqca qızır və qızdıqca danışırdı. O, əlini gah qərbə uzadır, kəndlilər də onun əlinin dalınca qərbə baxır, gah şərqə uzadır, kəndlilər də onun əlinin dalınca şərqə baxırdılar. Cəlil Naim əfəndi Rüstəm-Zal kimi qalxıb düşür və ağzından köpük daşa-daşa danışırdı. O, gah da özünün mövqeyindən və hörmətindən söhbət açırdı. Hamısının da sonunda bir ağız ermənilər haqqında deyirdi.

Kəndlilər yavaş-yavaş azalırdılar. Adamların getməsi ilə müvazi olaraq Cəlil Naim əfəndinin danışıq sürəti artır və səsi ucalırdı. Cəlil Naim əfəndi gözlərini üfüqə zilləyərək sözləri bir-birinə calayırdı... O, nələr danışmırdı! Mollaxanada oxuduğu ərəbi, farsı dərslərini yada salır, orada bir çox əzbərlədiyi kəlmələri, sözləri, cümlələri söhbətin arasına qataraq avam kəndlilərin qulaqlarına yamayırdı. O heç qulaq asanlar tərəfə baxmırdı. Mütəmadiyən danışırdı. Araq ona əməlli-başlı qüvvət vermişdi. Cəlil Naim əfəndi özündə bu qədər qüvvətli danışıq qabiliyyəti olduğunu hələ bu vaxta qədər bilməmişdi. Bu bəlağətli danışıqdan sonra təbii ki, kəndlilərin hamısı müsavat firqəsi üçün ölümə belə getməyə hazır olacaqdılar.

Cəlil Naim əfəndi bunu lap yəqin etmişdi. Ona görə də danışığının arasını kəsmirdi, tənəffüs eləmirdi. Bir ucdan bütün bildiklərini ortalığa tökürdü.

O, son sözünü söyləmək və qüvvəli alqış səsləri altında danışığını bitirmək üçün üzünü camaata doğru çevirdi. Lakin... qərbə və şərqə uzanan əlləri qeyri-adi bir vəziyyətdə qaldı.

Meydanda heç kəs qalmamışdı. Kəndlilər onun başının qarışıq olmasından istifadə edərək tamam çıxıb getmişdilər. Ancaq birdən lap qabaqda, daşın üstündə bir kəndlinin oturaraq ona baxdığını gördü.

Cəlil Naim əfəndi əlini kəndliyə doğru uzadaraq yüksəkdən çığırdı:

Afərin sənə! Mən indi bildim ki, bizim də kəndlərimizdə həqiqi idealni adamlar varmış. Mən indi bildim ki, bizim də kəndlilərimizdə öz canını millətə qurban edən millət xadimləri tapılırmış... Bax... (o, əli ilə kəndi göstərdi) hamı çıxıb gedib... Onlar anlamadılar. Mənim kəlamımın mənasını anlamadılar. Amma sən anladın. Sən bildin... və ona görə də axıra qədər həvəslə oturaraq müsavat firqəsi rəhbərinin sözlərini dinlədin... Malades!..

Kəndli bu sözləri axıra qədər dinlədikdən sonra papağını çırpıb başına qoyaraq ayağa qalxdı və Cəlil Naim əfəndiyə dedi:

– Ağa, mən avam kəndliyəm. Sənin o dediklərindən bir kəlmə də başa düşməmişəm. Ancaq sənin ayağının altındakı boçka mənimkidir. Mən sənin danışıb qurtarmağını gözləyirəm ki, boçkanı evimə aparım. Yoxsa mən də onlar kimi çıxıb gedərdim, işlərim tökülüb qalıb...

Cəlil Naim əfəndinin rəngi ağardı. O, heç bir söz demədi. Ayaqları əsə-əsə boçkanın üstündən yerə düşdü. Kəndli boçkanı meydanın ortasından gurultu ilə diyirləyərək evinə apardı.

* * *

Bu boçka əhvalatından üç-dörd gün sonra Bakıda müsavat firqəsi mərkəzi komitəsinin iclasında gödəkboylu, alçaqtəbiətli, şirin bülbül – Cəlil Naim əfəndi kəndlərdə müsavat firqəsinin çox hörmətli olduğundan, hər tərəfdə əmin-amanlıq hökm sürdüyündən, kəndlərdə onları nə qədər gözəl qarşıladıqlarından məruzə edirdi.

Cəlil Naim əfəndinin bu danışığını hamı çox həvəslə dinləyirdi.

Bu danışıqdan sonra müsavat firqəsinin mərkəzi komitəsi ona bolluca pul bağışladı...

Əsil məsələ də bu idi.

1933

NƏFƏS PULU

Əsgər ağa konyak butulkasını boşaltdıqdan sonra qolunun bütün qüvvəti ilə bağın aşağısına doğru fırlatdı və ayağa durub donuq gözləri ilə o yan-bu yana baxmağa başladı.

Uzaqdan qulağına incə bir zarıltı gəldi.

Əsgər ağa həmişə ayaq üstə hazır duran Abbasəlidən soruşdu:

– Ə, qulağıma bir səs gəlir, su axır, yoxsa milçək vızıldayır?

Abbasəli elə hörmətlə əyildi ki, Əsgər ağanın gülməyi tutdu:

– Abbasəli, dəvə kimi boynunu əyməkdənsə, bir parça dilini tərpətsənə!

Abbasəli qızardı, qorxa-qorxa cavab verdi:

– Ağa, bizim kənizin səsidir.

– Hay bərəkəllah!!! Hay maşallah! Ə, arvada nə həng gəlmisən ki, səsi o cür çıxır?

– Döymüşəm, ağa.

– Düzdür, arvad döyüldükcə yumşaq olar, ancaq Abbasəli, sənin hər yumruğun iki puddur, ona o yazıq dözə bilməz.

– Ağacla döymüşəm, ağa.

Bu sözə Əsgər ağa qəhqəhə çəkib güldü, sonra Abbasəlinin yemək dalınca göndərdi.

Abbasəli getdi. Əsgər ağa bulanıq nəzərlərlə ətrafa baxıb düşünməyə başladı...

Bu gözəl, bu yaşıl kənd ona məxsus idi. Bu otlar, bu ağaclar, bu evlər, çəpərdən o yana bulaq başında səsləri gələn lələdodaq kəndli qızları, hamısı, hamısı ona məxsus idi. Torpaq onun idi, bu torpaqda işləyənlər də onun üçün işləyirdilər; kefi nə istəsə, onu edə bilərdi. Kim ona gözün üstə qaşın var deyəcəkdi? Bu avam, aciz, qul kəndlilər?

Əsgər ağa bunu düşünüb yenə qəhqəhə ilə güldü.

Bir aydı ki, gəzməyə çıxmışdı, üçcə gün əvvəl kəndə qayıtmışdı. Gəldiyinin birinci günü bir az acığı tutdu. Hiss etdi ki, kəndlilər başsız qalıblar. Kətxuda və yüzbaşı qız qaçırmağa məşğul olduqlarından kəndlilər özlərini bir növ ərköyün hiss edirlər. Gör iş nə yerə çatıb ki, Allahın Cında Hüseyni də bulaq başında onunla söhbət edən qızını döyə-döyə apardı, heç əyilmədi də... heç xoş gəldin də demədi... Budu ha... Əsgər ağanın "keçiləri" gəldi. O saat elan elədi ki, su onun torpağından axıb keçdiyi üçün bütün kəndlilər su pulu verməlidirlər.

Hamıdan kasıb olan Cında Hüseyn təəccüblə soruşdu:

– Ağa sağ olsun, nə pulu?

– Əm... ağanın sözünə sorğu qoyanı, vurun!..

Cında Hüseyni o qədər vurdular ki, tabdan düşdü.

Qərəz... su pulunu yığdılar. Pulu olmayanın evindən palazını, həyətindən dana-buzovunu apardılar. Sabahı günü Əsgər ağanın acığı təzədən tutdu. Yetim Abdulla nə adamdır ki, axşam ağanın evinə süd göndərməyib?

Əsgər ağa bunu eşidib yetimi hüzuruna çağırdı:

– Əəə... yetim qurumsaq, süd hanı?!

– Ağa, and olsun bir balamın canına, xəbərim olmayıb, uşaqların anası süddən qatıq çalıb. İstəyirsiniz qatıq göndərim.

– Qatığı apar sürt uşaqlarının anasının başına! İtil, it oğlu burdan!

Budur ha... Əsgər ağanın "keçiləri" yenə gəldi. O saat təzə vergi qoyduğunu elan elədi. Mal-qara naxıra gedib, gələndə onun torpağını tapdalayır, ona görə də hamı ona inək pulu verməlidir.

Əsgər ağa təzə vergi haqqındakı sözlərini kəndlilərə deyəndən sonra üzünü yetim Abdullaya çevirib soruşdu:

– Başa düşdün, yetim?

Abdulla istehza ilə gülüb dedi:

– Ağa, bu əmrinizin mənə dəxli yoxdur.

– Niyə?

– Çünki mənim inəyim yoxdur, camışım var.

Əsgər ağa özündən çıxdı:

– Nə fərqi var, ay sırtıq yetim?! – Sonra da əlaltılarına üzünü tutub çığırdı. – Əə... vurun!

Abdulla o qədər döyüldü ki, Cında Hüseynin gününə düşdü. O günü, yəni dünən də kəndlilərdən inək pulu yığıldı...

Bu gün isə... Bu gün Əsgər ağanın kefi kök idi, heç bir təzə naloq icad eləmək fikrində deyildi.

* * *

Əsgər ağa birdən qulaqlarını şəklədi, ətrafı dinləməyə başladı. Həmin zarıltı yenə də gəlirdi. Zarıltını eşidəndə Abbasəlinin yemək dalınca getdiyi yadına düşdü. Əlini qulağına qoyub gözünü yumdu:

– Abbasəli!

Zarıltı kəsildi. Abbasəlinin yoğun səsi eşidildi.

– Gəldim... Ay ağa...

Abbasəli yüyürə-yüyürə gəldi, əlində yemək yox idi, ancaq gülürdü.

– Nə var, ədə? Əliboş gəlməyin bəs deyil, hələ bir gülürsən də?

Abbasəli əyilib Əsgər ağanın qulağına yavaşdan dedi:

– Ağa, dünənki yenə gəlib, yan otaqda gözləyir.

Əsgər ağa cəld ayağa qalxdı.

... İçəridə nə oldu, nə olmadı – xəbərimiz yoxdur. Yalnız onu deyə bilərik ki, yan otaqdan Əsgər ağa axşama yaxın çıxdı, özü də lül kefli idi.

Eyvanda dayanıb kəndə diqqətlə baxmağa başladı.

Artıq günəş üfüqə doğru sallanırdı. Kəndlilər işdən qayıdırdılar, bəziləri yorğunluqdan ayaqlarını da ata bilmirdilər.

Əsgər ağa bu mənzərəni diqqətlə süzdükdən sonra, onun qolundan tutmuş Abbasəliyə dedi:

– Əə... mənim bu kəndlilərə lap yazığım gəlir. Get yüzbaşıya de ki, yığsan bir yerə onları, nitq söyləyəcəyəm.

– Ağa, nə paylayacaqsan?

– Ay qanmaz oğlu qanmaz, nitq söyləyəc[illegible]m! Yoxsa elə bildin ki, ləbləbi paylayacağam?

Abbasəli bir dəqiqədə gözdən itdi.

– Balam ağaya nə olub ki, duran yerdə bizə ləbləbi paylayır?

– İsrağa gün su pulu yığdı, dünən inək pulu yığdı, bu gün isə ləbləbi paylayır.

– Ağamızın başından mənim gözüm su içmir.

– Görünür, bunda bir biclik var.

– Onsuz deyil.

Yenicə işdən dönmüş kəndlilər bir tikə çörək yeməyə macal tapmadan yavaş-yavaş hasarın dibinə toplaşdılar. Əsgər ağa Abbasəlinin köməyi ilə onlara yaxınlaşdı və yüksəkdən salam verdi. Bir neçə adam yavaş səslə Əsgər ağanın salamını aldı. Əsgər ağa oturmaq üçün qoyulan kötüyün üstünə çıxıb kəndlilərə baxdı, sonra da bir azca gülümsündü.

– Kəndlilər, – dedi. – Abbasdan xəbər gətirmişdi ki, guya mən sizə ləbləbi paylayacağam. Yalandır! Başa düşməyib, nitq söyləyəcəyəm. – Kəndlilər bir-birini üzünə baxdılar, heç kəs dinmədi. Əsgər ağa davam etdi. – Kəndlilər mən sizin ağanızam, siz də mənim rəiyyətim. Deməli siz mənim rəiyyətimsiniz, mən sizin ağanızam. Ağaya baş əymək sizin borcunuzdur. Bu dünyada bir mənə baş əyin, bir də qurban olduğum padşaha!.. Padşahımız yaxşı padşahdır. Suya, südə naloq

qoymağıma baxmayın... Bir günlük zarafat üçün elədim. O pulları mən cibimdə saxlamayacağam; hamısını aparıb verəcəyəm padşahın xəzinəsinə. Əslinə qalsa cibinizdəki pulları kim kəsibdir ki?! Əlbəttə padşah! Yenə qaytarıb geri alır. Elə bil aşıq-aşıq oynayıb uduzmusunuz. Amma bir məsələ var ki, siz işləmirsiniz, tənbəlsiniz... Mən and içirəm Allahın özünə ki, siz nəfəs almağa də tənbəllik edirsiniz... həzrət Abbas haqqı sizi bir az öz xoşuna qoysaq, nəfəs almağa da pul istərsiniz. Ancaq...

Lakin Əsgər ağa nitqini qurtara bilmədi. Abbasəli birdən yola boylanıb çığırdı:

– Ağa, şəhərdən qonaqlar gəlir.

Əsgər ağa bunu eşidən kimi, sözünü yarımçıq kəsdi və ayağa durub, evə sarı yüyürməyə başladı. Ancaq yarı yoldan geri döndü, kəndlilərə çığırdı.

– Mənim dediyimi yadınızdan çıxartmayın ha!..

* * *

Əsgər ağa getdikdən sonra heç kəs yerindən tərpənmədi, sükut içərisində dayandılar.

Abdulla içərilərində bir az ağıllısı və təcrübəlisi idi. Əvvəlcə onun danışmasını gözləyirdilər; o da danışmayırdı. Arabir dərindən nəfəs alır və nə barədə isə düşünürdü. Abdulla bir az bu cür dayandıqdan sonra evinə sarı getməyə başladı.

O biri kəndlilər də ona baxıb öz daxmalarına doğru yollandılar.

Abdulla alçaq qapıdan əyilərək keçdi. İçəridə qarısı oturub arpa təmizləyirdi. Ona baxmadan buxarının yanına getdi və çubuğunu böyük kösövlə yandırdı. Çarıqlarını çıxarıb evin ayağına tulladı, gözlərini oda zilləyərək oturdu.

– A kişi, ağa ləbləbi payladı?

– Zəhrimar payladı... – Abdulla dərindən ah çəkdi və qarının üzünə baxmadan danışmağa başladı. – Dedi ki, padşah pulları özü kəsib, ona görə də sizdən yığacaq. Hamınız aşıq-aşıq oynayıb uduzmusunuz. Sonra da dedi ki, mənim torpağımda nəfəs alırsınız, onun pulunu verməlisiniz. Mən belə başa düşdüm ki, hamımızdan nəfəs pulu yığılacaq.

– Allah onun evini yıxsın, a kişi, bu bahalıq vaxtda nə üçün aşıq-aşıq oynayırdın ki, uduzdun?

– Bəhanədir də... Anadan olandan mən əlimə aşıq almamışam. İndi gəlib ki, uduzmusan, gərək pul verəsən.

– O nəfəs pulu nə deyən sözdür?

– Eh, çox avamsan, arvad! Başa düşmürsən ki, nəfəs pulu yığmaq kəndlilərin evini yıxmaqdır. Hamısını hesablayacaqdır. Məsələn, bizim evdən mən nəfəs alıram nə tövr olsa sən də nəfəs alırsan...

– Bəs necə, a kişi, əməlli-başlı nəfəs alıram.

– Mən də onu deyirəm də... O qara günə qalmış uşaq da nəfəs alır, hələ toyuq-cücənin də nəfəs almağını hesablasan, gör nə qədər xərc eləyir!

– A kişi! Qulamgil lap yazıq oldular. Doqquz baş külfətdirlər, hamısı da nəfəs alır. Gör hara vurur onların naloğu?!

– Eh, gör işin axırı gəlib hara çıxdı!..

Qapı açıldı. Qulam içəri girdi, qaş-gözünü sallayıb buxarının yanında oturdu, çarıqlarını çıxarıb evin ayağına atdı və çubuğunu yandıra-yandıra Abdulladan soruşdu:

– Bu nə işdir, yetim! Deyirlər ki, uduzduğumuz pulları bizdən almaq üçün şəhərdən əsgər gələcək.

Abdulla təəccüblə soruşdu:

– Lap yəqin bilirsən ki, şəhərdən əsgər gələcək?

– Hə, hə, deyirlər ki, ağa əmr eləyib şəhərdən əsgər gəlsin.

– Evimiz yıxıldı, a balam!

Qapı açıldı, iki kəndli içəri girdi. Onlar da haman qayda ilə çarıqlarını Evin ayağına tulladılar, buxarının yanında oturdular.

– Bu nə işdir Abdulla, nəfəs almağa də gərək pul verək?..

Abdulla cavab verməyə hazırlaşırdı ki, bir ayrı kəndli içəri girdi və hövlnak dedi:

– Deyirlər, kim pullarını aparıb padşahın xəzinəsinə təhvil verməsə, nəfəs almağa qoymayacaqlar.

Bu sözdən sonra evdə dayana bilmədilər, küçəyə çıxdılar.

Küçədə yekə mərəkə açılmışdı. Bir dəstə kəndli küçənin ortasına toplanmışdı. Orada iki adam dava çəkirdi:

– Yalan deyirsən, lap ağ yalan deyirsən! Mən yazıq işdən macal tapıram ki, hələ nəfəs də alım?

– Özün yalan deyirsən! Ağaya yalan danışmaq olmaz! Gedib xəbər verəcəyəm.

– Alçaq oğlu, alçaq! Sənin özündən pul çıxmayacaqlarmı? Sən özün nəfəs almırsan? Yavaş-yavaş hamı çığırmağa, söyməyə başlayırdı.

Abdulla gördü ki, şuluqluq düşəcək, bərkdən çığırdı:

– Səssiz durun, bir-birinizi qırmayın!

Hamı dönüb Abdullanın üzünə baxdı.

Abdulla həyəcanla dedi:

– Dayanın, nəfs pulu bir tərəfə qalsın, uduzduğunuz pulları necə qaytaracaqsınız?

Cavab verən olmadı.

– Olan, olmayan, kim pul verməsə, nəfəs almağa qoymayacaqlar, onda nə eləyəcəksiniz?

Bu zaman enlikürək, ucaboy bir qoca çomağını yuxarı qaldırıb çığırdı:

– Qardaşlar! Kəndli qardaşlar! Mən qoca kişiyəm, nəfəssiz dolana bilmərəm.

– Qoymayacaqlar, pulun yoxdursa, nəfəs almağa qoymayacaqlar!

Qoca kişi bir daşın üstünə çıxdı və gücü gəldiyi qədər bağırdı:

– Kəndlilər! Qardaşlar! Əsgər ağa mənim bu dırnağım boydadır, ancaq gəlib mənim kimi ağsaqqal kişinin nəfəsini kəsir. Heyf ki, qocalmışam!.. Cavan olaydım, bir çomaqla min o cür əsgər ağaları yanı üstə uzadardım. Qoymayın, qoymayın nəfəsimizi kəssinlər! Gedin, cavanlar, gedin, onları susdurun! Yandırın, öldürün, canınızı qurtarın!..

Camaatdan vəhşi bir səs çıxdı, hamı birdən dəli kimi qaçmağa başladı.

... Əsgər ağanı hər yanda axtardılar. Evində yox idi, qapıları-pəncərələri sındırıb həyətə düşdülər, orda da tapılmadı. Nə edəcəkləri barədə məsləhətləşmək istəyirdilər ki, birdən uzaqdan zarıltı səsi eşitdilər, hamı oraya doğru yüyürdü.

Kolların arasında bir arvad uzanaraq zarıyırdı. Kəndliləri görən kimi o, əlilə şose yolunu göstərib dedi:

– Oraya qaçdılar, hamısı qaçdı...

Kəndlilər ağanın dağıdılmış evinə baxıb dərindən nəfəs aldılar, sonra isə sevinə-sevinə evlərinə getdilər.

Hava elə təmiz, elə gözəl idi ki... nəfəs aldıqca ciyərlər şişirdi.

1934

ÇİY ƏT

Tədarük anbarının müdiri Məmməd Qəribov səhər tezdən yerindən qalxıb tələsik geyinməyə başladı.

Arvadı təəccüb qaldı:

– A kişi, nə var? Nə tezdən durmusan?

Qəribov arvadının üzünə baxmadan dilxor bir halda cavab verdi:

– Gecə yuxuda çiy ət görmüşəm, arvad! Gedim görüm bü günkü qəzeti tapım, görək yenə nə var? Çiy ət, heç mənə düşmür.

Arvad soyduğu kartofu qırağa qoyub təəccüblə Qəribova yaxınlaşdı:

– A kişi, yuxunun qəzetə nə dəxli var?

Qəribov hirsindən lap çığırdı:

– Arvadsan ki, arvad! Yüz fərman çıxa yenə də sənin başa düşməyinə hələ çox-çox var. Otuz ildir mənimlə külüng vurursan, yenə də bu işlərdən başın çıxmır? Elə ki, mən yuxuda çiy ət gördüm, düşürəm qəzetə. İndi bu gün də yəqin bir iş var. Tez mənə bu günkü qəzeti tap.

– A kişi, bəlkə səni təriflәyiblər?

– Yox, yox. Olsa-olsa o dediyinin astar tərəfi olar. O da ki oldu, işdən xudahafiz. Amma bu səfər olsa daha xudahafizlə yaxamı qurtara bilməyəcəm. Bu səfər işdən on il qoxusu gəlir.

Arvad qab dəsmalı ilə yaşarmış gözlərini silib ərinin qabağında döyükə-döyükə qaldı:

– Allah eləməsin. Hər qəzetə yazılanı işdən çıxartmırlar ki. Mən heç başa düşmürəm ki, sən neyləmisən ki, yazsınlar.

Qəribov lap darıxdı. Bir papiros eşib muştuğa taxdı. Stolun üstünə salınmış qəzetin qırağından cırıb maşinkaya soxdu. Kağız alışan kimi papirosu odlayıb kağızı yana-yana xalçanın üstünə saldı və ayağı ilə tapdaladı. Papirosdan bir qullab alıb arvaddan soruşdu:

– Başa düşmədin?

Düşmədim.

– Düşməyə baş lazımdır, səndə heç bir təqsir yoxdur. Mən bütün əhvalatı bu saat sənin yadına salım. Aztorqda işlədiyim yadındadır?

– Yadımdadır, niyə yadımda deyil? Xan kimi dolanırdıq. Qəndim o qədər idi ki, qapımızda kooperativ dükanı kimi növbə olurdu.

– Hə, sən mənim sözümü kəsmə. Aztorqun axırı nə oldu? Adam kimi oturub işlədiyim yerdə birdən qəzetdə bir məqalə çıxdı. Elə həmin gecə də yuxumda çiy ət görmüşdüm ha... Məqalə çıxan kimi mənim dalımdan dəydilər. Getdim girdim selpoya. Yadındadır?

– Niyə yadımda deyil? Taxılımıza bit düşdü, dəyər-dəyməzinə satdıq.

– Hə, selponun axırı nə oldu? Yenə çiy ətlə qurtardı da. Bir il bekar gəzdim. Maşinkanın xodunu çək his eləyir. Axırda bir təhər özümü düzəltdim neft anbarına. Yadındadır?

– Niyə yadımda deyil? Bu ayağımızın altındakı xalını onda aldın da.

Qəribov xalıya diqqətlə baxdı. Sonra ah çəkib davam etdi:

– Neft anbarında ayrı aləm vardı. Elə bilirdim ki, Musa Nağıyevəm, neft buruqlarım da fantan eləyir. Neft ayrı şeydir. Qızıldır, qızıl.

– Axırı yoxdur, əşi...

– Olmadı da. Bir gecə keflənib yatdım, yuxuda çiy ət gördüm, səhər də məqalə çıxdı və məni məhkəməyə verdilər. Yadındadır?

Arvad yenə çirkli dəsmala gözlərini sildi, başını tərpətdi, amma cavab vermədi.

Qəribov muştuğunu barmaqları arasına qoyub o biri əli ilə part vurdu. Muştuğun içindəki papiros kötüyü tullanıb xalçanın üstünə düşdü. Qəribov ayağı ilə kötüyün odunu söndürdü və davam etdi:

– Bir il məhkəməyə gedib-gəldim. Axırı ki, yaxamı bir təhər qurtardım. Pulum lap qurtarhaqurtarda idi ki, müharibə başlandı.

Arvad dərindən ah çəkdi:

– Mənim mirvarımı da onda satdın da...

– Sözümü kəsmə, arvad, gedib girdim çörək dükanına, başladım çörək satmağa. Dedim o zəhirmarın xodunu çək, his eləyir...

– Arvad, istər-istəməz maşinkaya sarı getdi. Fitilini düzəldib aşağı çəkdi. Hisli əllərini ətəyinə silib ərinin yanına gəldi:

– Heç ağlım başımdadır ki? Barı yuxuda gördüyün ət yağlı idimi?

– Döş-maça idi. Sözümü kəsmə. Çörək satmağım yadındadır da?

– Niyə yadımda deyil? Ütü ütüləməkdən yorulmuşdum. İşim, gücüm səhərdən axşama kimi pul ütüləyib sandığa yığmaq idi.

Qəribov pul adı çəkilən kimi lap dəli oldu.

– Bəs hanı o pullar? Axırı nə oldu? Axırı yenə gəlib çıxdı o zəhirmara. O ütülədiyin pullar hamısı getdi girdi vəkillərin cibinə. İndi də bir güclə tədarük anbarına düzəlmişəm. Allaha şükür bir təhər dolanıram. Bir o gördüyüm çiy ət məni dilxor eləyir. Arvad, get gör qonşuya qəzet gətiriblər?

– A kişi, qoy sənə bir az kartof qızardım, sonra.

– Yox, yox. Kartof yeməli halım yoxdur. Kartof yeməkdən zara gəldim.

– Neyləyim, a kişi? Evə kartofdan başqa bir şey gətirmirsən ki, mən də bişirim? Gündə on kiloya qədər çürüyür, atıram.

– Bəs mən neyləyim? Bu saat kartof tədarükü aparırıq. Anbarda ayrı şey yoxdur. Di tez ol, yubanma, get qonşuya, qəzet gəlib, ya yox?

Arvad tələsik qapıdan çıxdı. Qəribov üç-dörd dəfə otaqda var-gəl elədi. Sonra hirsli-hirsli papiros eşməyə başladı. Arvad əlində qəzet içəri girdi:

– Ala! Təzəcə gətiriblər.

Qəribov bir aslan kimi qəzetə sarı atıldı. Alıb başdan başa baxmağa başladı. Arvad gözlərini kişinin üzünə zilləyib bir az durdu. Sonra yalvardı:

– A kişi! Hündürdən oxu, mən də eşidim.

– Hələ nə var ki, nə oxuyum, arvad? "Sovet məlumat bürosundan". "Şanlı qəhrəman", "Plan ödəndi" bunların mənə dəxli yoxdur. Sonra... Qərib... Ay arvad stulu altıma yerit, ayaq üstə dayana bilmirəm.

– A kişi sənə nə oldu?

– Mənə bir şey olmadı, nə oldusa sənə oldu. Yuxum çin çıxdı. Evim yıxıldı.

– Axı bir oxu görək.

– Nəyi oxuyum? Başı belədir "Qəribovun fırıldaqları". İçindəkini daha niyə oxuyum? İçindəkini onsuz da bilirəm.

Qəribov ayağı qalxdı. Naxoş adamlar kimi stullardan tuta-tuta stola sarı getdi. Stolun gözünü açdı. Qəzetə bükülmüş bir şey götürüb arvadına verdi.

– Ala, arvad! Bunu bir yanda gizlət. Mən tutulandan sonra vəkilə xərclərsən. Nə qədər ki, bu qəzetlər var mənim kimi adamlara yaşayış yoxdur. Bilirdim də... görürsən necə gələcəyi görən adamam?

1944

CEYRAN

Atalar deyirlər ki, söz vaxtına çəkər. Elə keçən il bu vaxt, bizim məhəllədəki Əhməd evləndi. Əhmədin atası Qənbər kişinin bizim tərəflərdə tanımayan az tapılar. Böyük bir idarənin anbar müdiridir. Evi də düz anbarın yanındadır. Qapıbir qonşudular. Çox rica edirik ki, bu, sizin ağlınıza pis-pis fikirlər gətirməsin, Qənbər kişini hələ bu vaxta kimi əliəyrilikdə tutan olmayıb. Düzdür, bir az qohumbazlığı var, məsələn, oğlu müavinidir, arvadı tədarükçü adı ilə məvacib alır. Ancaq bunların işə heç bir təsiri yoxdur. Anbar düpbədüz, aptek tərəzisi kimi işləyir. Söhbət bunda deyil, söhbət Əhmədin toyundadır. Bir toy oldu ki, gəl görəsən. Zurna çalan kim, şabaş yığan kim, tar dəstəsi gətirən kim, müxtəsər, Əhməd gözəl qız aldığına o qədər sevinmişdi ki, qırx gün, qırx gecə toy çalsaydı yenə ürəyi soyumazdı.

Əhmədin öz savadı yediillikdən yuxarı deyildisə də, qız ali məktəbdə oxuyur, adı Ceyrandır. Həqiqətən adına layiq qızdır... Yeriyəndə min can alır, danışanda elə bil bülbül oxuyur, güləndə ətrafa sanki gül səpələnir. Qərəz, toyda oturanlara elə gəlirdi ki, Ceyran nağıl kitablarının səhifələrindən çıxıb bir baş bu toya gəlib.

Əhməd yerə-göyə sığmırdı. "Orda oturma, burda otur, orda dayanma, burda dayan, çiyninə şal gətirin, ikitərəfli küləkdən qıza soyuq dəyər, bir az kənarda oturun, qıza istidir. Ceyran, qadası, bircə tikə çörək ye! Ceyran, sən Əhmədin canı, yarımca stəkan çay iç..."

Əhməd bu cür sözlər deyə-deyə sevgilisinin başına fırfıra kimi fırlanırdı. Özü də elə gərgin döyüş vəziyyətində idi ki, guya bu saat onun Ceyranına haradansa hücum gözlənilir və o da bu yolda özünü ölümə verməyə hazırdır. Xanəndə bütün gecəni Ceyran haqqında mahnı oxudu. Hətta, məşhur "Kəklik" mahnısını da dəyişib bu cür oxudu:

Sürmə qaşda nə gəzər,
Ceyran daşda nə gəzər,
Belə yarı olanın,
Ağlı başda nə gəzər.

Ceyran stolun başında Əhmədlə yanaşı oturmuşdu. İpək kimi yumşaq, burma-burma saçları çiyinlərinə tökülür, onu daha da gözəlləşdirirdi. Çöldə dekabr küləyi vıy-vıy vıyıldayırdısa da, ev isti idi. Ceyran bəzən üzünü ağ kalağayısı ilə yelləmək istəyirdi. Əhməd cəld

atılıb onu yelpikləyir və qızın əlinin də tərpənməsinə razı olmurdu. Qonaqlardan birinə duz lazım oldu. Ceyran qabağındakı duz qabını ona uzatmaq istədi. Əhməd hirsindən qıpqırmızı qızardı. Duzqabını özü aparıb qonağın qabağına qoydu və Ceyranın qulağına pıçıldadı:

– Sən niyə ağır duzqabını qaldırırsan? Qoy özü götürsün.

Müxtəsər, toy qiyamət toy idi, hamı sevinirdi, hamı ura deyib qışqırırdı. Cavanlar öz aralarında pıçıldaşırdılar: "Əhməd çox gözəl bir Ceyran ovlayıb, mahir ovçu imiş!".

* * *

İndi bu toydan xeyli vaxt keçib. İki ay qabaq onların evlərinin qabağından keçirdim. Gördüm Qənbər kişi qapılarının yanında dayanıb dəmi çəkir, dəmi çəkənlərdə bir xasiyyət var, heç vaxt ciblərində spiçka olmaz, odur ki, mən spiçka vermək üçün bir az əylənməli oldum.

Evin qabağında böyük bir yük maşını durmuşdu. Maşının üstündə dayanmış Əhməd mənə baxıb gülümsündü. Onun gözəl kostyumu, kəpənəkli qalstuku və qazan papağına oxşayan dama-dama şapkası var idi. Bir az mənasız yerə bir-birimizə baxıb irişdik, sonra Əhməd bu məşğələdən darıxıb üzünü evə sarı çevirdi:

– Ay uşaq, nə oldu, gecikirik!.. – deyə çağırdı. Küçə qapısı açıldı, bir qadın çiynində böyük bir kisə ağır addımlarla gəlib, maşının yanında dayandı. Əhməd bir az əyildi ki, kisəni qaldırsın. Gördü əli çatmır, bərkdən dedi:

– Bir az çiynini qaldırsan olmaz?

Qadın barmaqları üstünə qalxıb kisəni bir təhər maşının içinə qoydu. Geri dönəndə mən onu tanıdım. O, Ceyran idi. Onun əynində köhnə paltar var idi. Saçları üz-gözünə tökülmüşdü. Mən təəccüblə soruşdum:

– Bu təzə gəlin deyil?

Qənbər kişi fəxr ilə gülümsünüb dedi:

– Özüdür ki, var. Anbarımda yükdaşıyan vəzifəsinə təyin eləmişəm. Od parçasıdır, iki gün qabaq xəstəxanadan gəlib.

– Necə məgər? Xəstə idi?

– Yox... Nəvəm olub... Oğlandır...

Bu söhbət zamanı Ceyran yenə böyük bir kisə gətirib maşının içinə qoydu. Geri dönüb çox ağır və dolu kisə ilə qayıtdı. Kisənin ağırlığı

altında onun beli ikiqat olmuşdu. Yarı yolda Ceyran ağırlığa davam gətirmədi. Kisə diyirlənib yerə düşdü, ha istədi çiyninə qaldırsın, gücü çatmadı. Biz üç kişi dayanıb bu hadisəyə tamaşa edirdik. Ceyran qantər içində ağır nəfəs alır və çalışırdı ki, kisəni qucağına götürsün, bacarmırdı. Axırı yerlə sürüməyə məcbur oldu. Bu zaman Qənbər kişi qaşlarını çatıb bərkdən qışqırdı:

– Ay bala, nə eləyirsən, kisə yırtılar!

Ceyran maşının yanında güclə kisəni qaldırdı. Əhməd "Kostyumu bulaşmasın" deyə bir az kənarda dayanıb barmağının ucu ilə kömək elədi. Qənbər kişi mənə sarı dönüb dərin bir məna ilə dedi:

– Kisənin içindəki undur, un ağır olan şeydir.

Bu zaman içəridən bir qadın səsi eşidildi:

– Ay gəlin, boyuna qurban olum, gəl uşaq ağlayır.

Əhməd Ceyrandan əvvəl cavab verdi:

– Ay ana, əlində işi var, çaydan-zaddan ver, səsini kəssin.

Qənbər kişi gülümsünərək mənim qulağıma pıçıldadı:

– Arvadım gəlinini yaman çox istəyir. Ən acı sözü "boyuna qurban olum"dur.

Nəhayət maşın doldu. Əhməd tayaların üstünə qəzet salıb səliqə ilə əyləşdi. Qənbər kişi mənimlə görüşüb şoferin yanında oturdu.

Ceyran lap yavaşdan dedi:

Bəs evdə pul qoymursunuz?

Bu sözü Qənbər kişinin qulağı aldı. Başını kabinədən çıxarıb dedi:

Üç-dörd gün də birtəhər dolanın. Toyunuzun borcunu hələ verib qurtarmamışam.

Maşın yola düşdü. Ceyran çox peşman, qəmgin və ümidsiz gözlərlə maşının arxasınca baxıb evə döndü. Mən də bu hadisədən kədərləndim. İstədim papiros yandıram, gördüm spiçkam Qənbər kişidə qalıb.

Yol getdikcə xeyli düşündüm. Xanəndənin sözləri yadıma düşdü. "Ceyran daşda nə gəzər".

Görəsən yazıq Ceyranı kim ürküdüb bu daşlığa salıb?!.

1956

ALTI QIZIN ATASI

Arvad xəstəxanaya gedəndə Pirəliyə sarı dönüb zırıltılı səslə dedi:

– Uşaqlardan muğayat ol!

– Nə uşaqlar?

– Qızları deyirəm də.

Pirəli hirsindən dodaqlarını çeynədi, arvadının qolundan tutub kobudcasına həyətə çıxdı:

– Gəl-gəl, – dedi, – o, qızların adını uşaq qoymusan, hələ mənə tapşırırsan da?

– Bəs a kişi, uşaq deyil, nədirlər? Böyüyünün on yaşı var!

– Uşaq deyil, başa bəladırlar. Sənin o üç qızın elə bil üç ilan olub sarılıb mənim boğazıma. Əgər xəstəxanadan oğlan xəbəri gəlməsə məndən əlini üz!

– Arxayın ol, a kişi! – deyə arvad titrək və qorxaq səslə cavab verdi. – Hiss eləyirəm ki, bu səfər oğlan olacaq... Çox nadincdir. Həmişə tərpənir, məni gecələr yatmağa qoymur.

Bu sözlər Pirəlinin xoşuna gəldi. Bığının altında gülümsədi və damağına bir siqaret qoydu.

* * *

Qapıçı qadın qaça-qaça Pirəlinin üstünə gəldi:

Ay yoldaş, gözün aydın! Arvadın sağ-salamat qurtardı.

–Nədir? Oğlandır, yoxsa yenə qızdır? – deyə Pirəli qorxu və həyəcan dolu səslə çığırdı. Qapıçı qadın əllə susmaq işarəsi verib dedi:

– Çığırma, yoldaş, bura xəstəxanadır, mədəniyyət evi deyil.

– A bacı, nəyim olub? Onu de! Oğlandır, ya qız? Tez ol, ürəyim davam gətirmir.

– Qızın olub, qızın, – deyə qadın sevincək cavab verdi.

Bu söz Pirəlini elektrik cərəyanı kimi vurdu. Elə bil onu birdənbirə titrətmə tutdu. Bir azdan bədəninə qızdırma gəldi. Ha elədisə, dili bir söz tutmadı. Evdə üç qız var, biri də bu, oldu dörd... – Dörd qızı o neyləsin?

Elə bu anda içəridən qapıçı qadını səslədilər. Qadın Pirəliyə sarı dönüb dedi:

Dayan, dayan, a yoldaş! Deyəsən uşağınız ekizdir. Məni çağırırlar. Gözlə, bəlkə bu birisi oğlan oldu...

Pirəlinin ürəyinə ümid qığılcımları doldu. Titrətmə-qızdırma getdi. Cəhənnəmə, dörd qız bir oğlan, yenə dörd yarıdır.

Ancaq bir azdan qapıçı qadın qayıdıb gülə-gülə ona dedi:

– Bu birisi də qızdır, ekizdilər.

Pirəli bilmədi ki, neyləsin. Əvvəlcə arvadın üzünə baxıb, mənasız yerə güldü, sonra hirslə əlini uzatdı, yarımdaz başından bir tük dartdı, bu hərəkətinə uyğun bir söz demək istəyirdi ki, arvad ona dedi:

– Dayan, dayan, məni yenə çağırırlar.

Arvad getdi, Pirəli qopartdığı tükə baxıb dayandı, bilmədi neyləsin, atsın, ya təkrar yenə yerinə yapışdırsın. Bu anda arvad qayıtdı və qəhqəhə ilə dedi:

– Xoşbəxtliyə baxın. Birdən üç uşağınız olub.

– Üçüncüsü nədir? – deyə Pirəli quru səslə soruşdu:

Arvad:

– Qızdır, – xəbərini verəndə, artıq Pirəlinin səbr kasası daşdı. Əsəbləri lap yüksək həyəcan dərəcəsinə çatıb qırıldı, gözünə qaraltı çökdü, dizləri titrədi, sonra isə... yalnız bu sözləri deyə bildi:

– Get arvada de ki, daha məni özünə ər hesab eləməsin. Bizimki qurtardı, altı qızın anası ilə mənim haqq-hesabım yoxdur.

* * *

Qıztamam gözüyaşlı uzanmışdı. Ərinin getməsi xəbəri onu o qədər həyəcanlandırmışdı ki, südünün qaçmasından qorxurdu. Nə olacaq? Evdəkilərə kim baxacaq? Onlar elə günü bu gün acından qırılarlar. Kim bişirib-düşürəcək, kim yatıracaq, kim geyindirəcək? Birdən xəstələnərlər, birdən nefti dağıdarlar, maşinkanı çevirərlər, ev alışar, içəridə uşaqlar diri-diri yanarlar. Yaxşı, a namərd kişi, qoy uşaqlar böyüsün...

Qıztamam bu cür düşüncələrdə ikən uşaqları əmizdirməyə gətirdilər. O, balacaların totuq-totuq üzlərinə baxıb, ah çəkdi. Ancaq balalar böyük acgözlüklə döşə hücum çəkəndə Qıztamam gülümsündü, onları fəxrlə döşünə daha da sıxdı. Yalnız bu zaman o, öz dərdini unuda bildi. Qızları aparıldıqdan sonra yenidən fikir dəryasında üzməyə başladı. "Nə olacaq? Nə edəcəklər?" kimi suallar elə bil qapıdan, pəncərədən ümumiyyətlə, hər tərəfdən hücum çəkib otağa dolurdu. Qıztamam bu cür ağır düşüncələr içərisində uzandığı zaman xəbər gətirdilər ki, raykomun qadınlar şöbəsinin müdiri onu xəbər alır və

kefini soruşur. Qıztamam mat qaldı. Hələ bu vaxta qədər onun ayağı raykomun binasına dəyməmişdi. Qadınlar şöbəsinin müdiri onu hardan tanıyır? Bəlkə səhv edirlər, bəlkə xəstəxanada bir Qıztamam da var. O, hər ehtimala qarşı cavab verdi ki, "Çox sağ olun!"

Bir azdan xəstəxananın baş həkimi gülə-gülə onun yanına gəldi və xəbər verdi ki, indicə bu saat rayon ispolkomunun sədri zəng eləyib onu soruşub...

Qıztamam burada lap yəqin etdi ki, səhvdir, o biri Qıztamam kimdirsə, böyük yerdəndir. Öz şübhəsini baş həkimə dedi. Baş həkim qəti etiraz elədi. Onu inandırdı ki, ortada heç bir yanlışlıq yoxdur, məhz onun, Pirəli kişinin arvadı Qıztamamın kefini xəbər alırlar.

Qıztamam bunu eşidəndə ah çəkib dedi ki, bu gündən onun əri yoxdur. Pirəli uşaqları da, evi də atıb gedib

Bu xəbər ani bir sürətlə bütün xəstəxanaya yayıldı. Baş həkimin sərəncamı ilə xəstəxananın işçilərindən bir qadını Qıztamamın evinə göndərdilər ki, anaları sağalıb evə gəlincəyə qədər uşaqların yanında növbə çəksin.

Bu andan xoş və gözəl xəbərlər dolu kimi Qıztamamın başından yağmağa başladı.

Günorta üstü rayonun ictimai-təminat şöbəsindən Qıztamama maddi yardım gətirdilər. Ondan bir saat sonra pionerlər evindən bir dəstə pioner gəlib xəbər verdi ki, təzə tikilən evlərdə Qıztamama təzə bir mənzil veriblər...

Balacaları əlavə südlə təmin etmək üçün inək verilməsi xəbəri sabahı gün səhər gəldi. Bu xəbər gələndə rayon qəzetinin fotoqrafı Qıztamamın şəklini çəkirdi.

İki gün sonra bu şəkil qəzetdə çıxdı. Altdan yazmışdılar: "Altı qızın anası".

* * *

Bəs altı qızın atası hardadır? Onun bu hadisələrdən xəbəri yoxdurmu?

– Yoxdur. Üç qızı olduğunu eşidəndən sonra, evinə ayağı dəyməyib. Əvvəlcə dərdindən içdi, iki gün praqul eləyib işə çıxmadı. İki-üç gün bu praqulun üstünü malalamaqla məşğul oldu. Sonra otaq haqqında düşünməyə başladı. Neyləsin, harda yaşasın? Əvvəlcə qəti qərara gəldi ki, Qıztamamın heç həndəvərinə hərlənməyəcək, sonra yavaş-

yavaş yumşaldı. Yaşadıqları otağı yarı bölməyi, bir yarısında altı qızın anasını, o biri yarısında isə özünü yerləşdirməyi qət etdi.

Doğum hadisəsindən təxminən on beş gün sonra Pirəli birinci dəfə öz evinə sarı yönəldi və bu andan bəd xəbərlər, onun başından aşağı dolu kimi yağmağa başladı.

Əvvəla evlərinin yanında qonşularında yaşayan qoca bir qarı dişsiz ağzını açıb gülə-gülə onun üstünə gəldi:

– Gözün aydın, Pirəli! Arvadının şəklini qəzetdə gördüm, ürəyim dağa döndü.

Arvadın üzü qocalıqdan bürüşüb yumağa dönmüşdü. Bu cür yumaq kimi bədəndə ürəyin necə dağa döndüyünü Pirəli başa düşmədi.

Ancaq fikirləşdi ki, yəqin qarı qoca olduğu üçün nəyi isə çaşbaş salıb. Qıztamam bu saat xəstəxanada qızları ilə əlləşir. Onun şəkli qəzetdə niyə çıxsın?

Bu fikirlərlə Pirəli evə yaxınlaşırdı ki, upravdoma rast gəldi. Upravdom özü cavan adam olduğuna baxmayaraq qoltuğuna bir qoca portfel almışdı. Ağzına kimi dolu olan bu portfelin yamaqlı belindən böyük bir sarğı bağlanmışdı. Bu sarğını açа-açа upravdom hələ lap uzaqdan çığırdı:

– Pirəli qardaş, Qıztamam bacının yanına getməyə vaxtım olmadı. Gələ, bu kağızları ver qol çəksin, balacanı göndərərəm aparar. Bu da ki, (o hansı sənədi isə tapmaq üçün, portfeli iki-üç dəfə dovğa qazanı kimi buladı, sonra dörd-beş yerindən cırılmış bir kağız çıxartdı) orderin surəti, ona da gərək qol çəkə. İşə tikəcəyik, təzə evdə üç otaq məsxərə deyil...

Bunu deyib upravdom kimin isə dalınca qışqırdı:

– A yoldaş, bizim ev kirayəsi ilişib qalıb sizdə... – və gözdən itdi.

Pirəli kişi yenə başa düşmədi. Nə ev? Nə üç otaq? Orderə Qıztamam niyə qol çəkir? Bəlkə üç qız doğandan sonra onu rayona kommunxoz təyin ediblər? Bu suala qapılarındakı qıfıl da cavab verə bilərdi. Əksinə, daha yeni, daha dəhşətli sual meydana çıxdı bəs qızlar hanı? Arvad xəstəxanadadırsa, bəs evdəkilərə nə olub?

Pirəli bu cür düşüncələr içərisində bağlı qapının qabağında dayandı. Bu anda lopabığ bir kişinin bir inəyi arxasınca dartıb gətirdiyini gördü. Kişi ona yaxınlaşanda Pirəli kənara çəkilib yol vermək istədi, amma lopabığ kişi inəyi saxlayıb üzünü ona çevirdi:

– Əmioğlu, – deyə yaşına uymayan nazik bir səslə soruşdu, – Pirəlinin evi haradadır?

– Pirəli mənəm, – deyə sevinərək cavab verdi.

Kişi qaşlarını çatıb dedi:

– Mənə Pirəli yox, Pirəlinin evi lazımdır.

– Bax bu da mənim evim...

– Hansı?

– Bu...

– Yox, – deyə lopabığ Pirəlidən çox inəyə müraciətlə dedi: – Sən köhnə evdən danışırsan, mənə təzə ev lazımdır, üçüncü mərtəbədə. Qıztamam bacının təzə uşaqları üçün ispolkom ev bağışlayıb.

O, inəyi sürüb bir az getdi, sonra da dönüb acıqlı-acıqlı Pirəliyə dedi:

Ələ salmağa adam tapmısan, a kişi? Pirəli olmaya-olmaya niyə özünü qabağa verirsən? Pirəli bu saat yəqin təzə evində uşaqlarının yanındadır, altı qız atası olmaq bilirsən nə böyük şərəfdir?!

* * *

İndi Pirəli təzə evin dörd tərəfinə fır-fır fırlanır. Qıztamam nəinki onu evə buraxmır, hətta üzünə belə baxmaq istəmir.

Axırı nə olacaq, heç özüm də bilmirəm.

1957

YENİ İL HƏDİYYƏSİ

Neçə illərdir ki, biz yeni ili Şahingildə qarşılayırıq. Qəribə dəstəmiz var; məndən əlavə bir də bəstəkar, rəssam, alim, mühəndis və Şahinin özü. (Əlbəttə, arvadlarla bərabər) Biz hamımız orta məktəbi bir yerdə bitirmişik, hər yeni il gecəsində mütləq görüşürük.

Şahin nazirlikdə işləyir, tanış-bilişi çoxdur. O gün olmur ki, evində qonağı olmasın. Onlar ər-arvad üzügülər, qonaqsevərdilər. Nazirdən başlamış xidmətçiyə, kuryerə qədər kim evlərinə gəlir-gəlsin, süfrələrinin lap başında əyləşdirəcəklər.

Onların dostları da çoxdur, mağazada işləyənlər, su, papiros satanlar, nə bilim, evlər müdiri və qeyriləri onun başına and içirlər. Biz təəccüblə deyəndə ki: "ay Şahin, sən bu cür adamlarda nə görmüsən?" O belə cavab verir:

– Siz onlara yuxarıdan aşağı baxmayın, xalq məsəlidir deyərlər, "hər ürəkdə bir aslan yatır".

Şahinin bu xasiyyətini bildiyimizdən qərara gəlmişdik ki, adlarını çəkdiyim adamlardan başqa heç kəsi bu yeni il qonaqlığına çağırmayacağıq. Şahinin geniş bir mənzili var, ona görə də həmişə burda toplaşırıq. Arvadlar yemək-içmək və fasiləsiz danışmaq məsələlərilə məşğul olurlar, biz isə yazbaşı töylədən buraxılan danalar kimi atlanıb-düşürük, oyun çıxardırıq, mənim orijinal bir nömrəm var. O da "kasa rəqsi"dir. Kasaları su ilə doldurub bir padnosa düzürəm və başıma qoyub rəqs eləyirəm. Suyun bir qətrəsi də dağılmır. Bəstəkar yoldaşımız ağzı ilə ev quşlarını təqlid edir. Gözünü yumub qulaq asırsan, gah elə bilirsən otağa bir sürü xoruz-toyuq dolub, gah da sənə elə gəlir ki, ətrafında qaz, ördək, hinduşka gəzir. Rəssam çay işində mütəxəssisdir. Çay dəmləməkdə, bir ovcunda beş-altı armudu stəkan stola gətirməkdə o qədər məharət qazanıb ki, biz onun adını virtuoz-fenomen qoymuşuq. Mühəndis tamaşalardan monoloq söyləməyi sevir, ona elə gəlir ki, səhnəyə yetməməklə teatr tarixinə böyük bir zərbə vurub. Çörək kəsən bıçağı əlinə alıb Otellonun monoloqunu qışqıranda biz artıq yəqin bilirik ki, səhər açılıb, evə getməyin vaxtıdır. Alim – dirijordur. Yüz qram içən kimi radionun qabağında oturub əllərini işə salır, nəinki musiqi verilişlərinə, hətta saatın işləməyinə, tamadanın danışığına da dirijorluq eləyir. Arvadı and içir ki, buradan gedəndən sonra yuxuda da dirijorluqdan əl

çəkmir. Şahin isə bizim məclisimizin təlxəyidir. Ortada bir az süstlük əmələ gələn kimi çığırırıq: "Təlxək, başla görək!" Şahin başlayır oyun çıxartmağa... Gülməyinə gülmürüksə də bir az kefimiz açılır.

* * *

Dünən yenə Şahingildə toplaşdıq. Ancaq ilk addımdan qanımız qaraldı. Qoltuqlarımızı, ciblərimizi dükandan aldığımız ərzaq-azuqə ilə doldurub haray-həşirlə Şahinin mənzilinə daxil olduqda yanında yad bir adamın dayandığını gördük. Donub qaldıq. Yuxarıda dediyim kimi biz məclislərimizə əlavə heç kəsi qəbul eləmirik. Şahinin nə ixtiyarı var ki, ştatda yer olmaya-olmaya öz başına adam götürür? Bu kimdir ki, çağırıb, qonaqlığımızı korlayıb?

Hələ kim olduğunu bilməmişdən bu adamın xarici görkəmi bizdə nifrət əmələ gətirmişdi; kobud sifəti vardı, burnu, dodaqları elə iri idi ki, üç adamın arasında bölüşdürmək olardı. Bu bolluğun qarşısında gözləri elə xırda idi ki, elə bil iynə ilə deşmişdilər. Başı daz, üzü qapqara idi.

Mən bu adamı başdan-ayağa süzdükdən sonra yavaşca pıçıldadım:

– Köhnə il bizə nə yaman hədiyyə qoyub gedir?

Mühəndis cavab verdi:

– Bəlkə yeni il hədiyyəsidir?

Alim dedi:

– Mənhus tipə oxşayır...

Bəstəkar donquldandı:

– Mən axıra kimi oturmayacağam, yeni il başlanan kimi gedirəm.

Rəssam pıçıldadı:

– Mən onun karikaturasını çəkməsəm adımı dəyişib rəngsaz qoyaram.

Bu xırda-xuruş pıçıltılardan sonra yenə sükut edib, yad adama tamaşa eləməyə başladıq.

Şahin öz hərəkətindən yəqin çox utanırdı. Boynu çiynində bizə yaxınlaşdı və günahkar quzular kimi mələdi:

– Ə... nə dayanmısınız, a yoldaşlar, paltoları çıxardıb mənim bu dostumla tanış olun də...

Biz "tipə" tərəf yüngül bir baş tərpədib (guya bu bizim tanış olmağımız idi), otağa keçdik. Gödəkboy, cılız bir qadın bizim müqəddəs yeni il stolumuzun ətrafında fır-fır fırlanırdı. Bunu görəndə artıq mənim səbir kasam daşdı, dişimi-dişimə qısıb Şahindən soruşdum:

– Deyəsən biz artığıq, sənin ayrı qonaqların var?

Şahin heç mətləbə dəxli olmayan bir cavab verdi:

– Bu Səlimədir, Səlimin həyat yoldaşı (Səlim dedikdə "tipi" göstərdi) Oturun, tanış olun...

Biz "Səlimin həyat yoldaşı" tərəfə də yüngül bir baş tərədib oturduq. Məclisdə buz kimi soyuq bir sükut vardı. Bu yad adamların yanında hamı özünü çəkməyə çalışırdı. Nəhayət, yeni ilə lap yaxınlaşanda dostlar mənim üzümə baxdılar. Bu baxışların mənasını o saat başa düşdüm. Yəni demək istəyirdilər ki, dur, yeni ilin sağlığına bir ağıllı dərin nitq söylə.

Ayağa qalxdım. Səlim ilə Səlimə göyərçinlərin arasına düşmüş qarğalar kimi stolun lap ayağında yetimtək oturmuşdular. Səlimin üzü bir az da qaralıb badımcanı rəngə çalırdı. Mən onlar tərəfə baxmamağa çalışaraq dedim:

– Yoldaşlar! Badələrinizi doldurun, sözüm var.

Elə bunu demişdim Səlim ayağa qalxdı, utancaq halda mənə müraciət elədi:

– Bağışlayın. "Badələrinizi doldurun" demək olmaz. Qədəhləri doldurmaq olar.

– Düzdür!.. – deyə mən fəlsəfi dərinliklə səhvimi boynuma aldım. – Səhv eləmişəm Qədəhlərinizi doldurun, yeni ilin sağlığına qədəh qaldıraq.

Səlim yenə ayağa qalxıb utancaq halda dedi:

– Qədəh dolandan sonra dönüb olur badə.

"Qədəhlərinizi doldurun, yeni ilin sağlığına badə qaldıraq" – desəniz daha düzgün olar.

Bu düzəlişində də Səlim haqlı idi, ancaq mən tənqidi o qədər də sevmədiyimdən dözə bilməyib əsəbi halda Şahinə dedim:

– Sən bu ədəbiyyat professorunu məclisə bizim səsimizi kəsmək üçün çağırmısan?

Mənim bu sözümü yoldaşlar bəyəndilər, onlar da öz etirazlarını bildirdilər və elə bir haray-huray əmələ gəldi ki, arvadlar ətəklərimizi cırıb dağıtmasaydılar, Şahinin evində yeni il qabağı böyük qarışıqlıq düşəcəkdi.

"Professorla" arvadı əsəbləşib ayağa qalxdılar, ancaq Şahin işarə ilə onlara nə başa saldısa təkrar yerlərində oturdular. Yenə şaxtalı bir sükut oldu. Bu sükut nə qədər çəkəcəkdi, bilmirəm. Saatın on ikini vurması bizi ayıltdı. Bütün günü hazırlaşdığımıza baxmayaraq, yeni il

elə asta addımlarla gəlmişdi ki, xəbərimiz olmamışdı. Cəld qalxdıq, tələm-tələsik badələri (az qala çaşmışdım ha...) qədəhləri doldurub, yeni ili böyük üzürxahlıqla qarşıladıq. "Professor" da içdi. Ancaq üzgözünü elə turşutdu ki, qəribə bir şəklə düşdü. Bəstəkar əyilib qulağıma dedi:

Bu cür eybəcər professor ömrümdə görməmişəm.

Mənim artıq kefim durulmuşdu. Odur ki, dostuma bu cür cavab verdim:

– Professor deyil lap akademik də gəlsə, şənliyimi pozan deyiləm. Mən ölüm, bir xoruz kimi banla, bizi yuxudan ayılt!

Bəstəkar mənim xahişimi yerinə yetirdi. Əvvəlcə arvadlar gülməyə başladılar, sonra hamımız qoşulduq. Bu gecə içərisində ilk qəhqəhəmiz eşidildi. Bu zaman qulağımıza bir bülbül səsi gəldi. Susub ətrafa baxdıq. Səlimin qalın dodaqları arasında elə bil bülbül oturmuşdu, cəh-cəh vururdu. Qulaqlarımıza inana bilmirdik, bu cür kobud adamdan bu qədər incə səslər? Bir azdan bülbül səsi gözəl bir muğama çevrildi. Sonra muğam çoban bayatısı ilə qurtardı.

Güclü bir alqış otağı sardı. Biz yəqin elədik ki, bu adam ədəbiyyat professoru deyil, musiqiçidir, məşhur çalğıçıdır. Onun bu nömrəsinin adına estradada "bədii fit" deyirlər. Bu maraqlı çıxışından sonra təzə qonağımızın elə bil dodaqları da bizim gözümüzə incə göründü, rəngi də deyəsən, bir qədər ağardı. Məhəbbəti ürəyimizdə yavaş-yavaş cücərməyə başladı.

Rəssam "Çay-çay" deyib o biri otağa keçdi və bir neçə stəkanı havada yelləyərək qayıtdı. Biz başa düşdük ki, dostumuz Səlimə özünü göstərmək istəyir. Ancaq Səlim heç bir təəccüb əlaməti göstərmədi, o, əvvəlcə rəssamı süzdü və sonra gülümsəyərək arvadına dedi:

– Səlimə, samovar qaynayır, gəl çay tök, qonaqlara ver!

Səlim bunu deyib samovara çevrildi. Bəli, onun qaşı, gözü, sifəti, bütün bədəni samovar kimi qaynamağa başladı. Səlimə tez ona yaxınlaşdı, güya qalstuku samovarın lüləyidir, ordan xəyali stəkanlara çay süzməyə başladı. Səlim birdən soruşdu:

– Səlimə, bəs nəlbəki hanı?

– Nəlbəkini rəqsə saxlamışam, – Səlimə gülə-gülə cavab verdi. Səlim pianoya yaxınlaşdı. "Nəlbəki" havasını çalmağa başladı. Əşi, ay canım, bu qədər də məharət olar? O qalın barmaqların təmasından nə gözəl rəqs havası əmələ gəlirdi. Bəstəkar pərt halda yanıma sıxılıb

oturmuşdu, bu qədər kobud adamda bu qədər incə ruh olduğunu o heç təsəvvür eləməzdi. Hələ arvadı Səlimə... Nə gözəl oynayırdı. Səni inandırıram ki, filarmoniyanın rəqqasələri bu balacaboy, cılız qadının yanından əyilə-əyilə keçərlər. Nə deyim?.. Yaxşı ki, "Kasa rəqsi"ni ifa eləməmişəm, biabır olardım...

Rəqs qurtaran kimi Səlim çil-çırağı söndürdü, balaca bir şamın işığı altında "Hamletin" "Olum ya ölüm" monoloqunu dedi. (Yaxşı dedi. Mühəndis rəng verib, rəng alırdı). Sonra gözəl bir səslə "Koroğlu"dan Çənlibel mahnısını oxudu və dirijorluq edərək bizi də xor ilə oxumağa məcbur elədi. O, dirijorluq elədikcə, alim yaman paxıllıq çəkirdi. Arvadı gülə-gülə qulağıma dedi: "Özündən betərinə rast gəlib".

Qərəz nə deyim? Bu adam bizim əlimizə göydən düşmüşdü, məclisimizin bəzəyi idi. Biz bu cür yeni il hədiyyəsi üçün Şahinə təşəkkür elədik. Mən Səlimdən soruşdum:

– Sizin əsil sənətiniz nədir?

– Mən bu tindəki ərzaq mağazasının müdiriyəm, arvadım da təzə univermaqda satıcıdır, – deyə Səlim cavab verdi və vidalaşaraq bizdən ayrıldı.

* * *

Mağaza müdiri? Satıcı? Biz bu adları eşitdikcə ağız büzməyə, belə adamlara yuxarıdan baxmağa adət eləmişik. Biz elə bilirdik ki, mağaza müdiri ki oldu, gərək yeyə, başqalarını aldada... İndi Şahinin izahından belə məlum olurdu ki, Səlim iqtisad fakultəsini qurtarıb, bir çöpə belə xəyanıt eləməyən qabaqcıl mağaza müdirlərindən hesab olunur. Hər ikisi – ər də, arvad da – çox mədəni, işgüzar, sevimli adamlardır.

Bəli, bu bizim üçün çox qiymətli yeni il hədiyyəsi oldu.

CƏNNƏT XULİQANI

Proloq

– Sevil gəlmədi.

– Nə üçün?

– Babası qoymur.

Mən bu sözə çox təəccüb elədim. Axı, Sevilin dram dərnəyində iştirak eləməsinə babasının etirazı yox idi. Bircə şərti var idi deyirdi ki, qız uşağı gecə, tamaşadan sonra şəhərdən kəndə tək qayıda bilməz, ona görə gərək hər dəfə onu maşınla gətirəsiniz. Baba haqlı idi. Yol qısa olsa da (şəhərdəki mədəniyyət evi ilə Quşluq kəndinin arasında cəmi bir kilometr məsafə var idi, kənd şəhərə calaşıq kimi idi), Sevil gecə vaxtı gedə bilməzdi, qorxardı; ona görə də biz həmişə bu şərtə əməl edirdik. Tamaşadan sonra taksi tutub Sevili evə maşınla aparırdıq. Baba da bundan çox razı idi.

Bəs indi nə olub ki, kişi öz sözündən qaçır?

Biz "Şeyx Sənan"ı hazırlayırdıq. Sevil də orada Xumarın rolunu oynayırdı. Onsuz necə tamaşa verə bilərdik? Əvəz edəcək heç kəs yox idi.

O gün məşq baş tutmadı, sabahı gün kənddə Sevillə görüşdük. (Sevil bu il onilliyi bitirib, Quşluq kəndinin kitabxanasında işləyir). Məqsədimiz böyük bir dəstə ilə qoca Məcid kişinin yanına getmək və nəvəsinin tamaşada iştirakına icazə verməsini xahiş etmək idi. Ancaq məsləhət olmadı. Sevil işin nə yerdə olduğunu bizə başa saldı; məlum oldu ki, bir neçə ay bundan qabaq Quşluq kəndinə bir molla gəlib, nə cür hiylə işlədibsə, az zamanda bütün qoca-mocaları alıb əlinə. Hətta gör iş nə yerdədir ki, Məcid kişi kimi qabaqcıl bir qoca da onun təsirinə düşüb (molla məsciddə deyib ki, uşaqlarınızı şəhərə getməyə, teatr oynamağa qoymayın. Mollanın bu sözündən sonra babası Sevilə elə qanun-qayda kəsib ki, gəl görəsən!).

Sevil uşaqlıqda ata-anasını itirdiyi üçün babasını üçqat məhəbbətlə sevirdi, onun əmrindən çıxmazdı, sözünün üstünə söz qoymazdı. Odur ki, bizi geri qaytardı, babasının yanına təvəqqəyə getməyi də məsləhət görmədi, bildirdi ki, sözümüz yerə düşəcək.

İndi bəs nə olsun? Molla Şirəlinin bircə kəlmə sözü ilə dərnəyimiz dağılsın?

Yox, dərnəyimiz dağılmadı. Hadisələrin necə inkişaf etdiyini, təsadüfün necə bizim köməyimizə çatdığını icazə verin, səliqə ilə, tələsmədən danışım.

1

Molla Şirəli uzun, arıq, kosa bir adam idi. Sifəti qapqara idi. Burnu elə idi ki, elə bil qabıqlı-qabıqlı közdə bişirilmiş kartofu üzünə yapışdırıblar. Üzünün ora-burasında intizamsız bitən cod tüklərin hər biri qara tikana bənzəyirdi, gözləri nöyütü rəngə çalırdı.

Molla Şirəlinin əlindən hər iş gəlirdi: məsciddə camaatın qabağında namaz qılmaq, moizə oxumaq, məhərrəmlikdə rövzəxanlıq eləmək... Bunlardan başqa hələ cindarlıq da bacarırdı, cadu da eləyirdi. Sevgilini sevgiliyə çatdırmaq, ər ilə arvadı bir-birindən ayırmaq, düşməni dost, dostu düşmən eləmək Molla Şirəlinin əlində su içmək qədər asan bir iş idi. Heç kəsə rədd cavabı vermirdi, heç kəsi naümid eləmirdi. Hərəni bir cür şirin dillə yola salırdı. Bütün dərdlərin də çarəsini aparıb bağlayırdı Allaha. Buda elə hikmətli çarə idi ki, şəkk eləməyə heç kəsin cürəti çatmırdı.

Qabaqcıl kolxozçular, xüsusən cavanlar bilmirdilər bu mollanın öhdəsindən necə gəlsinlər.

Kim idi, əvvəllər harada olmuşdu, əslində nə sənətin sahibi idi – bilən yox idi. Bu barədə özündən soruşanda Molla Şirəli cavabı elə dolaşıq, elə dolambac yollardan keçirib verirdi ki, bir kəlmə də başa düşmək olmurdu.

Şəhərin parkında hər gecə gəzinti olurdu. Gənclərin yay istirahəti çox şən keçirdi. Ətraf kəndlərin gəncləri də maşınla, motosikletlə, velosipedlə, hətta piyada bu şənliklərə gəlir və özfəaliyyət dərnəklərinin konsertlərində iştirak edirdilər. Yalnız Quşluq kəndindən bu şənliyə axır zaman az adam gəlirdi.

2

İndi Molla Şirəli Quşluq kəndində kefini çəkməkdə olsun, biz sizinlə bərabər keçək şəhərə.

Bizim şəhərin qəribə quruluşu var; üç tərəfdən dağlıqdır, bir tərəfdən düzənlik. Dağlıq hissəsi dəniz səthindən neçə yüz metr yuxarıdır və xırda-xuruş evlərlə, daxmalarla doludur. Aşağıdan baxanda adamda elə təsəvvür yaranır ki, bu evlər, daxmalar kimdənsə qaçıb dağlara dırmaşıbdır. Yuxarıda bir dənə təzə evə rast gəlməzsən; bütün təzə tikintilər, idarələr, kino, mədəniyyət sarayı, aşağı hissədə yerləşir. Maşınla yuxarıdan aşağıya beş-on dəqiqəyə gəlmək olur, ancaq bu

beş-on dəqiqənin içində elə bil on beşinci əsrdən iyirminci əsrə sıçrayış eləyirsən.

Bu on beşinci əsr ilə iyirminci əsr arasında, yəni şəhərin düz ortasında, "Azərşərab"ın dükanının yanında hər gün bir adama rast gəlmək olurdu. Bu adam vaxtının çoxunu həmin dükanın qabağında keçirirdi. Gəlib-gedən mərhəmət eləyib yemək-içmək versəydi, kefi kök, damağı çağ yaşayacaqdı, belə bir mərhəmət olmayan günlərdə isə yalnız iy çəkməklə kifayətlənərdi.

Bu adam Cəlilbəy idi. Cəlilbəy bizim şəhərin bəylərindən birinin oğlu idi. Atası yersiz-yurdsuz, torpaqsız olduğundan Lüt bəy adı ilə məşhur idi. Sənəti də onun-bunun hesabına dolanmaqdı. Atadan oğula yalnız bircə şey miras qalmışdı: tüfeylilik.

Cəlilbəy gödəkboy, kök bir adam idi. Sifəti elə çiy idi ki, elə bil mayası az olan xəmirdən qayrılmışdı, bu xəmiri elə bil hər tərəfdən çimdikləmişdilər. Gözlərinin altı, yanaqları, buxağı tuluqlanıb sallanırdı, başının ortasında tük yox idi, kənardakı tüklər isə həmişə pırpızlaşmış şəkildə olurdu. Nə bilim neçə illər bundan qabaq alınmış şapka o qədər yağışa düşmüşdü ki, bürüşüb başının bir tərəfində qalırdı, kostyumu isə... nə deyim bu kostyumu təsvir eləmək çox çətindir; yalnız göz ilə görmək lazımdır. Şalvar daralıb kök qıçlarına yapışmışdı, pencək gödəlib belində dayanırdı. Cəlilbəy yaz-qış bu kostyumda olurdu. Qarpızın qabıqsız yetişdiyini təsəvvür eləmək mümkün olmadığı kimi, Cəlilbəyi də bu kostyumsuz təsəvvür etmək mümkün deyildi.

Cəlilbəyin həyatı başdan-başa işıqlardan və kölgələrdən ibarət idi. İndi bu saat o, həyatının ən işıqla zamanını yaşayırdı. Ancaq belə "xoşbəxt dəqiqələr" uzun çəkmirdi. Çünki işıqda oturub qara ilə məşğul olmaq və nəzərə çarpmamaq mümkün deyil! (Sadə dil ilə desək, qara və şübhəli işlərlə məşğul olduğu üçün Cəlilbəy dəfələrlə həbsxanaya düşmüşdü).

Siz yəqin təəccüb eləyirsiniz. Cəlilbəy nə böyük vücuddur ki, mən onun təsvirinə bu qədər vaxt sərf edirəm. Düzünü desəm, o heç mənim özümü də maraqlandırmır; yatsam, yuxuma da girməz. Ancaq məsələ ondadır ki, Molla Şirəlinin par-par parıldayan ulduzunun batmasına həmin bu Cəlilbəy səbəb oldu. Ona görə də sizə təqdim eləməyə özümü borclu bildim.

Ancaq icazə verin qabağa qaçmayım, əhvalatı sırası ilə nəql edim.

3

Quşluq kəndi ilə şəhər arasında, böyük bir çinarın altında avtobus stansiyası var. Bu stansiyanın müdiri Ağarəhim bizim dərnəyin üzvüdür, komikdir, gülməli rollar oynayır.

İsti yay günlərindən birində, yəni bizim məşqlərimiz pozulandan iki-üç gün sonra Cəlilbəy bir də ayılıb gördü ki, bu avtobus stansiyasındadır, ha fikirləşdisə bura necə gəlib çıxdığını yadına sala bilmədi. Səhər-səhər "Azərşərabı"ın müştəriləri onu qonaq eləmişdilər. Acqarına iki yüz qram araq, yüz qram konyak Cəlilbəyi bir hala salmışdı ki, qabağa yerimək istəyəndə, ayağı onu dala çəkirdi. Yuxarıya, evlərinə getmək istəmiş, amma gəlib stansiyaya çıxmışdı.

Cəlilbəy öz məhvərinin üstündə bir-iki dəfə fırlandıqdan sonra Ağarəhimini yanında oturdu və ondan bir papiros istədi. Ağarəhim burnunu tutub bir az yana çəkildi.

– Bəy sağ olsun, yenə səhər-səhər həftəlik iyi verirsən.

Cəlilbəy papirosu alıb Ağarəhimə baş endirdi və cavab vermədən otun üstündə oturdu. Papirosu çəkdikdən sonra uzandı və həmin dəqiqə gözünü yuxu tutdu.

Ağarəhim iki avtobus qəbul elədi, bilet satdı, bu avtobusları yola saldı, amma Cəlilbəy oyanmadı. Sərnişinlərin səs-küyü, hambalların haray-hurayı Cəlilbəyə təsir eləmədi. O, ölü kimi düşmüşdü, hərdən-bir bala-bala xoruldayırdı.

Yalnız günortadan sonra, Ağarəhim pulları banka təhvil verib geri qayıdanda gördü ki, Cəlilbəy yuxudan ayılıb, otun üstündə oturubdur.

– Ağarəhim, içəridə yeməli nəyin var?

Onun bu sualı Ağarəhimi lap əsəbiləşdirdi:

– Bura sənincün baqqal dükanıdır?

Cəlilbəy əl çəkmədi:

– Evdən yeməyə bir şey gətirməmisən?

– Yox, mən naharı burda eləmirəm!

Ağarəhim onsuz da dilxor idi. Cəlilbəyin gənə kimi yapışıb qopmaması onu lap darıxdırmışdı.

Ağarəhim içəridən bir kətil gətirib oturdu. Burdan, onun dayandığı yerdən Quşluq kəndinin küçəsi əl içi kimi görünürdü. Odur, bir dəstə uşaq bir həyətdən qaçaraq ayrı bir həyətə girdi... Bir arvad çiynində bardaq bulaqdan su gətirir... Odur, ağacların arasından bir dəstə

adam çıxdı, qabaqlarında da molla paltarında bir nəfər. Yəqin məscidə, ikindi namazına gedirlər...

Ağarəhim başa düşdü ki, Sevili məşqlərə gəlməyə qoymayan həmin bu molladır. Ayağa qalxdı, diqqətlə baxmağa başladı.

Onun ayağa durmasını Cəlilbəy mərhəmət əlaməti hesab edib yalvarıcı səslə dedi:

– Mənə bir nahar düzəlt, Ağarəhim, adam qonağı əliboş yola salmaz.

Ağarəhim onun bu sözünə:

– Odur ey!.. – deyə kəndi göstərərək, cavab verdi, – Molla Şirəli məscidə təşrif aparır. Get, sənin də qarnını doldursun.

Cəlilbəy təəccüblə soruşdu:

– Kim?

– Molla Şirəli. Quşluq kəndinin təzə peyğəmbəri. Gör qocalar dörd tərəfini necə alıblar! Cücəli toyuğa oxşayır!.. Onun qrimini eləyib "Ölülər"də nə oynayardım?

Cəlilbəy durub onun yanına gəldi, diqqətlə baxmağa başladı:

– O kəndlilərin qabağında gedəni deyirsən?

– Aha... gör necə Şeyx Nəsrullaya oxşayır!.. Onun qrimini eləyib "Ölülər"də nə oynayardım?

Cəlilbəy bir az da diqqətlə baxıb, nədənsə həyəcanlandı:

– Adı nədir deyirsən?

– Molla Şirəli.

Cəlilbəy bu sözü eşidən kimi kəndə tərəf qaçmağa başladı.

4

Molla Şirəli namazı qurtarıb salavat çevirdi və ayağa qalxdı. Onun arxasınca hamı durdu, məscid bir dəqiqədə boşaldı. Baqqal dükanı bağlayıb evə gedən kimi, Molla Şirəli də məscidi bağladı, açarını xadimə verib evinə tərəf rəvan oldu. Kefi lap yuxarı idi. Dağlardan əsən meh əbasını yellətdikcə xoşlanır, arabir əlini yavaşca cibinə vururdu. Pulun günü-gündən çoxalıb şişməsi onun qarşısında gözəl bir gələcək açırdı (heç kəsə inanmadığından pulu evdə qoymaz, həmişə cibində gəzdirərdi). Nəhayət, asan yaşayışın açarını tapıb əlində möhkəm tutmuşdu, buraxan deyildi, heç kəs onun ayaqlarını bu bərəkətli torpaqdan ayıra bilməyəcəkdi.

Heç kəs?.. Bunu düşünəndə Molla Şirəli elə bildi ki, başının üstündə buludlar oynayır. Əslində şəhərə yaxın olan bu kənd onunçun çox namünasib idi; gərək ucqar yerlərdə, gözdən uzaq kəndlərdə yaşaya idi, ancaq neyləsin? Kəndlərin bir çoxunda məscid yox idi, olanı da çoxdan tutulmuşdu. Neçə il gəzəndən sonra Quşluq kəndini tapmışdı. Axırı xeyir olsun, görək nə olur...

Molla Şirəlinin dünyada iki şeydən xoşu gəlmirdi: birincisi, ən zəhləsi getdiyi, ona əyri-əyri baxıb salam verməyən cavanlar idi. Bəli, elə ona görə də o, Məcid kişiyə təsir göstərmiş və o teatr çıxardan oğlanların ayaqlarını bu kənddən kəsmişdi. İkincisi, xoşu gəlməyən milisioner idi. Bəli... milis nəfərini lap uzaqdan görəndə onun bədənini qəribə bir titrəmə tuturdu. Səbəbi?

Səbəbi keçmişin qaranlıq quyusunda basdırılmışdır. Qurdalayıb üzə çıxartmağın nə mənası var?!

Molla Şirəli ətəyini yellədərək, tini burulduqda qulağı bir səs eşitdi. Kim isə yavaşdan dedi:

– Şirəli!

Molla dönüb ətrafına baxdı, gördü onu səsləyən gödəkboy, kök, qəribə paltar geyinmiş bir kişidir. Əvvəlcə kim olduğunu tanımadı, təəccüblə soruşdu:

– Sən mənimi çağırırsan, övladım?!

"Övladım" deyilən adam ayağının ucunda yaxınlaşıb qabaqca oyan-buyana baxdı, sonra yavaşdan dedi:

– Məni tanımadın, Şirəli? Diqqətlə bax, gör kiməm?!

Molla Şirəli Cəlilbəyi səsindən tanıdı, ancaq özünü tanımamazlığa vurdu, çünki bir az kənarda üç-dörd kəndli arvadı dayanıb onların söhbətinə qulaq asırdı. Arvadlar Şübhələnməsinlər deyə, Molla Şirəli bərkdən səsləndi.

– Əleykəssəlam, ey Məhəmməd ümməti!

– Ədə, mən Məhəmməd Hümmətov deyiləm, Cəlilbəyəm ey!.. Tanımadın?

– Övladım! Sən məni kiminləsə dolaşıq salmısan. Xudahafiz!

Molla Şirəli bu sözləri deyib getmək istədikdə, Cəlilbəy qırğı kimi atılıb onun qolundan tutdu, səsini yavaşıdıb dedi:

– Dayan, dayan! Necə yəni "dolaşıq salmısan?" Səni mən yüz adamın içində tanıyaram. Neçə il bir kamerada yatmışıq, bir boşqabdan xörək yemişik, bir qabdan su içmişik. İndi özünü nə tülkü öldüyünə qoymusan?

Molla Şirəli dartınıb qolunu Cəlilbəyin əlindən qurtardı, dişlərini qıcıdıb hirslə pıçıldadı:

– Yavaş danış! Qələt eləmədim sənlə üçcə il bir kamerada yatdım. Qoymazsan bir tikə çörəyimizi yeyək? Rədd ol bu kənddən get! Sən məni tanımırsan, mən də səni!

Molla Şirəli yavaşdan əkilmək istəyirdi ki, Cəlilbəy yalvarıcı səslə dedi:

– Şirəli! Mənim sənlə işim yoxdur... Əlim aşağıdır... Adam oğlusan, özün dolanırsan, nə olar, məni də dolandır... Bir az pul ver... araq pulu.

– Sənin kimilərə verməyə məndə pul yoxdur. Rədd ol, rədd ol!

– Belə eləmə, Şirəli, yoxsa o çörəyi axıra kimi yeyə bilməzsən ha!

Molla Şirəli cavab verməyərək, ötüb getdi. Cəlilbəy onun arxasınca çığırdı:

– Yaxşı, sən Şirəli ol, mən də Cəlil!..

5

Molla Şirəlinin bu cür rəftar eləməsi Cəlilbəyi odsuz-alovsuz yandırmağa başladı. Öz-özünə: "Yaxşı, görək kim-kimi?" – deyə onu həddələdi, sonra kənddən çıxıb geri döndü. Huşu özündə deyildi, hissləri bir-birinə qarışmışdı. Bir tərəfdən intiqam almaq arzusu, o biri tərəfdən paxıllıq hissi onu elə çaşdırmışdı ki, hara getdiyini, nə üçün getdiyini bilmirdi. Avtobus stansiyasının yanından keçəndə Ağarəhim onu səslədi:

– Hə, bəy sağ olsun, molladan bir şey qopara bildin?

Cəlilbəy diksindi, dərin xəyalatdan ayrıldı.

– Ondan Allah verdiyi canı ala bilmir, – deyə, hirslə cavab verdi. – Bütün kəndi yesə, yenə doymaz... Qazamatda öz payını bir dəqiqədə yeyib, sonra gözünü dikərdi bizim payımıza... Verməyəndə də oğurlayırdı. İndi ağzı çörəyə çatıb. Mən boyda adamı saymır.

Ağarəhim qulaqlarına inanmadı:

– Nə deyirsən, canım, kim dustaq olub?

– Şirəli.

– Bu kəndin mollası?

– Bəli, üç il bir kamerada yatmışıq. Ancaq əbləh indi məni tanımaq istəmir, deyir: "Övladım, sən kimsən?"

Ağarəhim sevindiyindən yerində tullanıb düşdü. Tez cibindən pul çıxardıb Cəlilbəyə uzatdı:

– Bəy sağ olsun, bu, yemək pulu... hələ üstündən yüz qram da mənim boynuma. İçəri gəl, sənlə sözüm var.

Ağarəhim Cəlilbəyi kontora apardı. Onlar orada nə dedilər, nə danışdılar – heç kəsin bundan xəbəri yoxdur. Ancaq açıq pəncərədən qulaq asan olsaydı, arabir bəzi cümlələri eşidə bilərdi.

Məsəl üçün xeyli pıçıldaşdıqdan sonra Cəlilbəyin səsi eşidildi:

– Çətini bircə damcı içənə qədərdir; dilinə dəyən kimi dəli olur.

Bir az sonra bir cümlə də eşidildi. Cəlilbəyin cümləsi:

– Elə tündünü alaram ki, lap öküzü yıxar...

Onların söhbəti yenidən pıçıltıya çevrildi. Dedilər, güldülər. Ağarəhim Cəlilbəyə nə isə verdi (deyəsən pul idi) və ayrıldılar.

6

Molla Şirəli böyük səhv eləmişdi, gərək Cəlilbəyi o cür kobud qarşılamayaydı. Evə gətirsəydi, bir az pul ilə ağzını möhürləsəydi, yaxşı olardı. Ancaq artıq iş işdən keçmişdi: olan olmuş, torba dolmuşdu. İndi yalnız ehtiyatla hərəkət etmək lazım idi. Yoxsa bu gözəl həyat bircə himə bənddir, bir dəqiqədə dağılıb kün-fəyəkun ola bilər.

O gün Cəlilbəyin qorxusundan evdən çölə çıxmadı. Özünü xəstəliyə vurub axşam namazına da getmədi. Sabahı günü səhər namazını da ötürdü. Ancaq günortaüstü davam gətirə bilmədi: fikirləşdi ki, məscidi özbaşına qoysa, daha da pis olar, çar-naçar durub çıxdı küçəyə... hər tində gözləyirdi ki, Cəlilbəy bu saat qabağına çıxacaq, onu söyüb biabır eləyəcək, yada ki, başqa hoqqa çıxardacaq... Sərxoş adamdan nə desən çıxar!

Ancaq heç bir təhlükəyə rast gəlmədən məscidə çatdı. Namazdan qabaq həmişə balaca bir moizə edərdi – müqəddimə kimi. Dünyanın faniliyindən, cənnətdən, cəhənnəmdən... Xülasə ağzına birinci hansı söz gəlsə, deyərdi. Sual verən, hikmət soruşan olmurdu. Çünki onun dinləyicilərinin ən cavanının yaşı yetmişdən yuxarı idi.

Molla Şirəli minbərə çıxıb dinləyicilərə nəzər yetirdi və sözə başladı. Ancaq ha elədisə, əvvəlki bəlağətlə danışa bilmədi. Onca dəqiqəyə moizəsini qurtardı. Həmişəki kimi salavat çevirib, aşağı düşmək istəyirdi ki, lap arxada oturmuş bir adam ayağa qalxıb səsləndi:

– Molla əmi, bir sual olar?

Molla Şirəli sual verəni tanımadı. (Avtobusa minmədiyi üçün Ağarəhimi görməmişdi) Ürəyinə balaca xal düşdüsə də, üzə vurmayıb dedi:

Buyur, övladım, sualını ver!

Ağarəhim bir az qabağa gəlib soruşdu:

– Mənim sualım budur ki, oğurluq üstə qazamatda yatmış bir adam mollalıq eləsə, onun dalında namaz qılmaq dürüstdür ya yox?

Elə bil bir qırpımda yüz əl girib Molla Şirəlinin ürəyini dartmağa başladı, sual onu elə sarsıtdı ki, bir neçə saniyə nitqi tutuldu, bir xeyli sonra güclə kəkələdi:

– Yox... dü... dü... dürüst deyil.

Molla Şirəli bu cavabı verib, tələsik minbərdən düşmək istəyirdi ki, Ağarəhim bərkdən çığırdı:

– Molla əmi, aman ver, bir sualım da var!

Molla Şirəli dilxor halda cavab verdi:

– Namazın vaxtı keçir, övladım, sualı bir ayrı gündə verərsən.

– Yox, molla əmi, elə indi vermək istəyirəm.

Molla Şirəli hirslə minbərdən düşdü. Ağarəhim onun hiyləsini (yəni qaçmaq istədiyini) başa düşüb, lap qabağa gəldi. Elə bu zaman məsciddəki qocalar üzlərini qibləyə sarı tutmaq üçün hərəkətə gəldilər. Onların bu saat elə vaxtları idi ki, oturduqları yerdən durmaq böyük qoçaqlıq hesab olunurdu. Ona görə də nə Ağarəhimin suallarına qulaq asırdılar, nə də mollanın cavabına.

Onların qulaq asmadıqlarını görüb Molla Şirəli dişini-dişinə qısaraq yavaşdan dedi:

Canım, qoy işimizi görək, bura məsciddir, mestkom iclası deyil ki?

Ağarəhim:

– İkinci və axırıncı sual, Molla Şirəlinin qolundan tutdu. Molla dartındı, ancaq qolunun məngənəyə düşdüyünü görüb zora salmadı, o vəziyyətdə dayandı. Ağarəhim bir az yavaşdan dedi:

– İkinci sualım odur ki, əgər birisi özünü yalandan tülkü ölülüyünə qoyub üç il dustaqxanada yatdığı yoldaşını tanımaq istəmirsə...

Molla Şirəli sualın dalına qulaq asmadı. Qəfildən qolunu dartıb Ağarəhimin əlindən qurtardı, namaza düzülmüş qocaların yanına getdi.

Namazı necə qıldığı yadında deyil, dodağının altında nə isə mızıldadı, heç ayə, surə də oxumadı. Qurtaranda da məscidi bağlamaq üçün

hamının getməsini də gözləmədi, camaata qarışıb çıxdı. Ancaq zəhlətökən müştəridən qurtarmaq üçün bunun da xeyri olmadı.

Məsciddən çıxan kimi qocaların hərəsi bir tərəfə getdi. Molla Şirəli tək qaldı. Bu zaman həmin sualbaz adam (Ağarəhim) ona yaxınlaşdı.

– Molla əmi, siz mənim ikinci sualıma axıra kimi qulaq asmadınız...

Molla Şirəlinin səbir kasası daşdı, onsuz da gərgin olan əsəbləri qırıldı. Ətrafda heç kəs olmadığını görüb Ağarəhimin pencəyinin yaxasından yapışdı:

– Əl çəkməzsən məndən, əbləh oğlu əbləh!.. Prokurorsan məgər, dəqiqədə bir sual verirsən?

Bu hücum Ağarəhimə heç bir təsir eləmədi (O, elə güclü idi ki, həmişə iri dekorasiyaları həyətdən tək əli ilə səhnəyə çıxarardı). Molla Şirəlinin iki biləyindən tutub yavaşca sıxdı. Molla Şirəli qabağındakının hərif olduğunu başa düşüb, yalvarıcı səslə soruşdu:

– Ay qardaş, axı sən məndən nə istəyirsən?

– İkinci sualıma cavab istəyirəm.

– Cavabı odur ki, səhv eləmişəm. Qələt eləmişəm... Bəy dadaşa de ki, nə vaxt istəyir, onu doğma qardaşım kimi qəbul edəcəyəm.

Bu cavab Ağarəhimi tamam qane elədi, mollanın qollarını buraxıb gülümsündü və hörmətlə baş əyib ondan ayrıldı.

* * *

Molla Şirəli qoca bir qarının evində tək yaşayırdı. Arvadın gözü yaxşı görmürdü, qulağı pis eşidirdi; ancaq bu onun nöqsanı yox, məziyyəti idi, çünki Molla Şirəli gözü-qulağı iti olan adamları sevmirdi.

Yemək, içmək cəhətdən korluğu olmurdu, çünki məscid müdavimləri onu dolandırırdılar: kimi dolma gətirirdi, kimi bozbaş, kimi boyat plov. Ona görə də qonağının yanında xəcalət olmadı, təzəli-köhnəli nə qədər ehtiyat xörəyi vardısa hamısını süfrəyə düzdü. Cəlilbəy mat qalmdı:

– Bu nədir?! Deyəsən cənnətə düşmüşəm...

Molla Şirəli gülümsündü.

– Ye, ye... Cənnət təkcə o dünyada deyil, bu dünyada da var...

Onlar barışmışdılar.

Molla Şirəli Cəlilbəyi küçədə görüb:

– Övladım, dua yazdırmaq istəyirsən? Gəl içəri, – deyərək, onu evə gətirmiş, qucaqlayıb öpmüşdü. İndi isə öpüşünün səmimi olduğunu sübut üçün var-yoxunu süfrənin üstünə düzürdü. O gözləyirdi ki, Cəlilbəy yeməklərin üstünə ac qurd kimi düşəcək. Ancaq elə olmadı. İkicə tikə alandan sonra Cəlilbəy əlini dizlərinə silib dedi:

– Daha bəsdir, boğazımdan getmir.

Təəccübdən mollanın gözləri kəlləsinə çıxdı:

– Niyə? Səndə qabaq elə iştah var idi ki, bu xörəkləri də yeyərdin, hələ üstəlik məni də... indi nə oldu?

– Boğazımdan getmir, Şirəli! Yüzcə qram olmasa, heç nə yeyə bilmirəm.

Molla Şirəli bu sözü eşidən kimi dəhşət içində oyan-buyana baxdı, sonra pıçıltı ilə dedi:

– Nə danışırsan, ay Cəlilbəy. Mənim evim ziyarətgahdır, burada məşrubatın adını da çəkmək olmaz.

– Adı nəyinə gərək, bizə dadı lazımdır!

– Məndə yoxdur, Cəlil, dükandan da almaq olmaz... Molla el anasıdır, hamının gözü onun üstündədir.

– Dükandan almaq lazım deyil, çünki dostun ehtiyatlı gəlib. Bu saat sənə elə bir abi-kövsər verəcəm ki, içib birbaşa cənnətə gedəcəksən.

– Mən yox!.. Cəlil, canın üçün tövbə eləmişəm! Bircə qətrə də dilimə vura bilmərəm.

– Bəs cənnətə getmək istəmirsən?

– Onsuz da indi cənnətdəyəm. Bu Quşluq kəndinin cənnətdən nəyi əskikdir? Ürəyimdən nə keçirsə, süfrəmdə hazır olur.

– Özün bil. Onda mən içim, sən də qıraqdan tamaşa elə.

Cəlil bəy cibindən bir şüşə konyak çıxartdı, stəkanı yarısına qədər doldurub başına çəkdi.

İkinci dəfəsində, yəni Cəlilbəy həmin yarımçıq stəkanı ikinci dəfə başına çəkəndə, Molla Şirəli davam gətirə bilmədi, "abi-kövsər"dən ikicə damcı içmək arzusunu bildirdi...

7

Evdə oturub mədəniyyət və istirahət parkındakı axşam gəzintisinin proqramını nəzərdən keçirirdim. Əvvəlki plana görə bu gecə "Şeyx Sənan"ın premyerası olacaqdı, ancaq Sevilin gəlməməyi bu planı tamam alt-üst elədi; konsert təşkil etməyə və proqrama ayrı-ayrı tamaşalardan parçalardan salmağa məcbur olduq.

Günortadan bir az keçmişdi ki, Ağarəhim bizə gəldi. Yuxarıda təsvir olunan hadisələrin çoxundan xəbərim yox idi. Cəlilbəyin bu işə qoşulduğunu, Ağarəhimin məscidə getdiyini bilmirdim, ona görə də təəccüb elədim. Ancaq verdiyim suallara Ağarəhim bu cür cavab verdi:

– Axırda hamısını başa düşərsən. Dur gedək! Məcid kişini konsertə dəvət eləmək lazımdır.

Nə üçün Sevilin babası Məcid kişini biz konsertə dəvət etməliyik? Bunun yuxarıdakı hadisələrlə nə əlaqəsi? Bu suallar məni narahat eləsə də, Ağarəhim cavab verməli halda deyildi, tələsirdi. Bir maşın tapıb mindik və sürdürdük düz Quşluq kəndinə.

Qapını Sevil özü açdı, bizi görən kimi dedi:

– Niyə gəlmisiniz? Babam razı deyil, mən onun sözündən çıxa bilmirəm.

Ağarəhim soyuqqanlıqla dedi:

– Səni də, babanı da qonaq aparmağa gəlmişik.

– Hara?

– Mədəniyyət parkına. Hamı kimi siz də oturub tamaşa eləyəcəksiniz konsertə.

Sevil əvvəlcə düşündü, sonra gülümsündü.

– Əcəb tapmısınız. Gedək birbaş bağçaya, babam ordadır.

Sevilin babası uzunboy, uzunsaqqal bir kişi idi. Yaşı səksəndən çox olduğuna baxmayaraq, altmışdan yuxarı vermək olmazdı, çünki qıvraq idi, qulağı yaxşı eşidirdi, gözü yaxşı görürdü.

Məcid kişi bizi görən kimi əlindəki beli yerə tullayıb çığırdı:

– Nahaq zəhmət çəkmisiniz, nəvəmi teatr çıxartmağa qoyan deyiləm!

– Biz onun üçün gəlməmişik, Məcid əmi, – deyə Ağarəhim mehribanlıqla cavab verdi. – Sən dedin qoymuram, biz də razılaşdıq. Heç eybi yoxdur...

Məcid kişi Ağarəhimin sözünü kəsdi.

– Eybi çoxdur. Molla Şirəlinin dediyi mənim üçün qanundur. Onun kimi nurani bir şəxsi nəinki Quşluq kəndi, heç bütün rayonumuz görməyib. O, elə adamdır ki, sağ ikən nəfəsi bizi saxlayır, öləndən sonra da qəbri pir olacaq. Onun sözündən çıxıb özümü Allah yanında yanında xəcil eləyə bilmərəm.

– Biz Sevilin dalınca gəlməmişik, sizi aparmağa gəlmişik, – deyə Ağarəhim çığıra-çığıra danışmağa başladı ki, Məcid kişinin söz yağışının qabağını bir azca kəssin.

Məcid kişi bu sözə çox təəccüb elədi:

– Məni aparmağa gəlmisiniz? İndi də məni ərtis eləmək istəyirsiniz?

– Yox, Məcid əmi, səni teatr çıxartmağa yox, qonaq aparırıq (Ağarəhim qocalarla söhbət eləməyi yaxşı bacarırdı). Bizim uşaqlar oxuyub oynayacaqlar, sən də Sevil ilə yanaşı oturub, bizə tamaşa elə! Tamaşa eləməyə mollanın sözü yoxdur ki?

– Molla o gün məsciddə deyirdi ki, Allah, bütün ümmətinə tamaşa ixtiyarı verib, bu şərtlə ki, küfrə olmasın. Siz orda bu gün Allaha sataşmayacaqsız ki?

– Xeyr, Məcid əmi, bizim allahla nə zarafatımız.

– Hə, onda getmək olar. Avtambiliniz var, yoxsa payi-piyadeyi-zəvvar gedəcəyik?

– Maşınla gedəcəyik. Qapıda hazır dayanıb.

– Hə, onda gedək geyinək.

Məcid kişi ilə Sevil təzə paltar geyindilər, biz onları maşına mindirib, parka gətirdik.

8

Elə bu zaman Molla Şirəlinin evində başlanan vodevil sona çatmaqda idi. Əba bir tərəfə atılmışdı, əmmamə o biri tərəfə. Molla Şirəli göyün yeddinci qatında idi. Bu kəndə gələndən dilinə vurmadığı üçün içki onu yaman götürmüşdü. Hər badə qalxdıqda öpüşürdülər. Cəlilbəy isə hey deyirdi.

– Bu saat səni aparacağam cənnətə... huriləri görəndə dostunun qədrini biləcəksən.

– Bu abi-kövsəri ki içdim, onsuz da yerim cənnətlikdir!

– İndi mən sənə ayrı cürə abi-kövsər içdirəcəyəm... – Cəlilbəy ayrı bir şüşə çıxartdı. Bu spirt qarışdırılmış cecə arağı idi. Cəlilbəy iri çay stəkanlarını doldurub dedi:

– Bunları da vuraq Ağarəhimin sağlığına!

Molla Şirəli kefli-kefli soruşdu:

– O kimdir?

Cəlilbəy əda ilə cavab verdi:

– Qızıldır! Bu abi-kövsər şüşələrini də o mənə verib. Vuraq onun sağlığına!..

Stəkanlar qalxdı, toqquşdu. Molla Şirəli gözünü yumub ağzını açdı və boş quyuya su tullayan kimi, stəkanı qarnına boşaltdı.

Elə bil boğazından aşağı od töküldü. Stəkanı dodağından ayırıb, süfrəyə qoyanda gördü ki, otağın divarları üstünə gəlir. Sonra divarlar itdi, gözünün qabağında ağ, qırmızı, yaşıl rənglər oynamağa başladı. Yer ayağının altından qaçdı. Molla Şirəliyə elə gəldi ki, uçmağa başlayır. Sərxoş beynindən bir fikir keçdi: bəlkə o, həqiqətən, bu dünyadan çıxıb, o dünyaya, mələklərin, hurilərin yanına rəvan olub? Əşyanın gözləri qarşısında rəqs etməsini, özünün havada ləngər vurmasını cənnət yoluna uçmaq kimi təsəvvür elədi.

Cəlilbəy onu möhkəm qucaqlayıb küçəyə çıxartdı, hava dəyən kimi Molla Şirəlinin xasiyyəti dəyişdi, səbəbsiz yerə çığırmağa, qabağına gələni söyməyə başladı.

Bir dəqiqədə camaata elə bil simsiz teleqrafla xəbər verdilər: "Molla keflənib".

9

Günəş batırdı. Dağlar, qayalar, uca ağaclar gülümsəyərək, onu yola salırdılar. Qaranlıq düşməyinə hələ xeyli vardı, ancaq buna baxmayaraq parkda işıqlar yandırılmışdı. Ağacların, kolların, çiçəklərin arasında gizlədilmiş lampalar bu gün parka qəribə bəzək verirdi. Məcid kişi ilə Sevil skamyaların birində oturub, gəlib-gedənlərə tamaşa edirdilər.

Bir azdan parkın girəcəyində haray qopdu. Parkdakı adamların bəzisi səs gələn tərəfə qaçıb gördülər ki, Molla Şirəli ilə Cəlilbəy qapının yanında dayanıblar. Yıxılmasınlar deyə, səsə yığılmış oğul-uşaq onların qolundan yapışmışdılar.

Molla Şirəli yəqin bu parkı ilk dəfə görürdü. Çünki gözlərini döyərək, vəcd və heyrət içərisində baxırdı. Bəzən sərxoş beyninə elə gəlirdi ki, artıq cənnətə yetişibdir. Xeyli diqqət yetirdikdən sonra bərkdən dedi:

– Axırısı ki, gəlib çıxdım cənnətə! – Ətrafındakıları itələyib, qabağa yerimək istədi, bu zaman Cəlilbəyin onu qucaqladığını görüb, bərk hirsləndi və çığırdı. – Çəkil kənara, məlun!.. Bizimki sənin lə buraya qədər idi. Öt, get, sənin yerin bura deyil, cəhənnəmdir!

O, bu sözü deyib, parkın qapısından içəri girdi və güllük-çiçəklik içərisində gəzişən al-əlvan geyinmiş qızları görüb bərkdən güldü. Molla Şirəli dəfələrlə minbərdən camaata demişdi: "Kim ki, cənnətə düşdü, hərəkətlərində sərbəstdir. İstədiyi mələyin qolundan yapışa

bilər. Heç kəsin ona gözün üstə qaşın var deməyə ixtiyarı yoxdur". Odur ki, əlvan geyinmiş qızları görəndə hüququnu yadına salıb, tez onların üstünə cumdu.

Belə bir hücumu gözləməyən qızlar qışqırıb ətrafa səpələndilər. Molla Şirəliyə elə gəldi ki, mələklər onunla hənək-mazaq eləyirlər. Qəhqəhə çəkərək, qırmızı paltar geymiş bir qızın dalınca qaçdı. Demə qız qorxaq deyilmiş, Molla Şirəli ona yaxınlaşanda, üzünə möhkəm şillə çəkdi və bərkdən çığırdı:

– Rədd ol, xuliqan!

Şillə mollanı bərk tutdu. O bir-iki dəfə ləngər vurub yaxındakı ağacdan yapışdı. Elə bu zaman hadisə yerinə qaçan iki milisioner onun qabağını kəsdi. Molla onları görüb, elə bil ayıldı. Birdən-birə tir-tir titrəməyə başladı.

– Çəkilin yana!.. Cənnətdə də məndən əl çəkməyirsiniz?

Ancaq milisionerlər ondan əl çəkən deyildilər. Bütün park bir-birinə qarışmışdı. Qızlar hürkmüş ceyranlar kimi qaçıb bir tərəfə yığışmışdılar.

... Molla Şirəlini "təntənə ilə" milis idarəsinə apardılar.

Sevilin babası Məcid kişi bu hadisələri öz gözləri ilə gördüyü üçün bərk dilxor idi. Tez-tez deyirdi:

– Sevil, dur gedək evə, xəcalətdən burada qala bilmərəm.

Biz nə qədər çalışdıqsa, onun kefini açа bilmədik. Əhvalı birdən-birə yaman xarablaşmışdı. Nəhayət, əsasını əlinə alıb ayağa qalxmaq istədikdə, Sevil yalvarmağa başladı:

– Nə olar, baba, bir azca səbir elə, yaxşı konsert olacaq.

Baba tərəddüd içində ətrafa göz gəzdirdi, sonra bizə, xüsusilə Ağarəhimə diqqətlə baxmağa başladı.

– Mən öz konsertimi gördüm, – deyə nəvəsinin sözünə cavab verdi. – Sənin bu ərtis yoldaşların mənə yaxşı dərs verdilər. O, bu sözü dedikdə, Ağarəhim guya təvazökarlıq göstərərək, üzünü yana çevirdi. Məcid kişi sözünə davam edərək dedi: – Mən bayaqdan təəccüb eləyirdim, deyirdim görəsən gün haradan çıxıb ki, cavanlar məni gəzməyə gətiriblər? Əsil mətləbi indi başa düşdüm. Məlum oldu ki, bizim molla sərxoşun, lotunun biri imiş. Eybi yoxdur, siz deyən olsun, amma qulluğunuza onu ərz eləyim ki, mənə yox, özünüzə pis elədiniz. Şərtim budur: Sevil hansı teatrda oynasa, lap birinci cərgədə mən otur-

malıyam. Əgər bu şərt yerinə yetirilməsə, mən növəmi teatr çıxartmağa qoymuram.

Biz bu şərtə razı olduq, Məcid kişi evə getmədi, birinci cərgədə oturub, konsertə tamaşa elədi.

Epiloq

Biz "Şeyx Sənan"ı böyük müvəffəqiyyətlə oynadıq. Xumar rolunda çıxış edən Sevil, tamaşaçıların, xüsusən Məcid kişinin çox xoşuna gəldi.

Yuxarıda təsvir etdiyimiz hadisələr Sevilin babasına qəribə təsir eləmişdi. O, birdən-birə teatr düşmənindən teatr aşiqinə çevrildi. Səhnəni o qədər sevməyə başladı ki, hətta Sevilin payızda Bakıya teatr institutunda oxumağa getməsinə belə razılıq verdi.

Cəlilbəy isə yenə də köhnə işindədir. On beşinci əsr ilə iyirminci əsrin arasında, yəni şəhərin düz ortasında, "Azərşərab" dükanının yanında hər gün ona rast gəlmək olur. Bir fərqi var ki, indi daha tək oturmur. Quşluq kəndinin sabiq mollası Şirəli də onun yanında olur.

Bu günlərdə mən oradan keçirdim, gördüm Cəlilbəy tək oturub. Şirəli yanında yoxdur. Səbəbini soruşanda, bəy yavaşdan dedi:

– Ezamiyyətdədir.

– Necə ezamiyyət? Şirəli bir yerdə işləyir?

– Yox canım, axmaq deyil ki, işləsin, onu mən ezam eləmişəm, ayrı rayonlara... Molla istəyən kənd axtarmağa gedib, tapan kimi məni də çağıracaq. İkimiz köməkləşib dolanacağıq...

Mən ondan ayrıldım və öz-özümə söz verdim ki, bu hekayə vasitəsilə hamıya məlum eləyəm: ayıq olun, Şirəli ciblərini doldurmaq üçün təzə bir cənnət axtarır!..

1960

NADİR ŞAH

Ərəblinski öz otağında geyinir. O, ikinci pərdədə quldur Nadir idi. İndi, üçüncü pərdədə Nadir xan olacaq, axırda da Nadir şah. Bu, tamaşaçıların gözü qabağında dəyişən, inkişaf edən mürəkkəb bir roldur. Hüseynin ən çox müvəffəq olduğu və sevdiyi rollardan biri. Hər sözünü, hər hərəkətini sənətkarcasına işləyib. Ancaq indi böyük həyəcan içindədir. Gündüz Nadir şahın papağını zərgərə göndərib ki, qaş-daşla bəzəsin. Zərgər muzdunu almamış papağı qaytarmaq istəmir. Beş manat pul lazımdır. Hardan tapsın?

Yalnız Hüseyn Ərəblinski deyil, bütün aktyorlar həyəcan keçirirlər. Bilirlər ki, kostyumu tam olmamış bu böyük aktyor səhnəyə çıxmağı sevmir, məcburən çıxsa rolu mükəmməl oynaya bilməyəcək. Tamaşa isə pulsuz olduğuna baxmayaraq çox mühüm tamaşadır. Salon ağzına kimi doludur. Tamaşaçıların çoxu ziyalıdır. Şəhərə qastrola gəlmiş rus aktyorları da Azərbaycan teatrı ilə tanış olmaq üçün yan lojalarda oturular. Bəs necə olsun? Zərgərə İki dəfə adam göndəriblər, nə qədər yalvar-yaxar eləyiblər, dünyada qızıldan başqa Allahı belə tanımayan bu adamı sındırmaq mümkün olmayıb. Beş manat pul lazımdır, yalnız beşcə manat!

Ərəblinski bu düşüncələrdə ikən Mirzə Mehdinin rolunu oynayan Hüseynqulu Sarabski hövlnak içəri girdi və qapıdan çığırdı:

– Mühüm xəbər!

– Nə xəbər? Zərgər papağı göndərdimi?

– Yox! – Sarabski Hüseynə yaxınlaşdı və qulağına pıçıldadı: – Sadıq bəydə beş manat pul var.

– Vermir?

– Pulu olduğunu heç boynuna almır. Amma öz kostyumundan çıxardıb elçi paltarında gizlədəndə uşaqlar görüblər.

– Onu bura çağır!

Sarabski tez çıxdı. Hüseyn qrimini qurtardığından ayağa qalxdı və əllərini qoynuna qoyub gözləməyə başladı.

Sadıq bəy aktyor deyildi. Əsas sənəti birjada dəllallıq eləməkdi, teatra da kömək edirdi, dükan-dükan, ev-ev gəzib bilet satırdı, çox üzlü adam olduğu üçün onun cənginə keçən, bilet almamış yaxasını qurtara bilmirdi. Hərdənbir tamaşalarda da iştirak edirdi. Çox xəsis adam idi. Biletlərin pulunu vaxtında təhvil vermirdi, yəqin öz şəxsi ticarətində

kapital olaraq istifadə edirdi və nə vaxt müraciət etsən, göz yaşı töküb ağlayırdı ki, bir qəpik pulum yoxdur.

Sarabski ilə Sadıq bəy qrim otağına girdilər. Hüseyn, Sadıq bəyi başdan-ayağa süzüb geyimindən və qrimindən narazı qaldığı üçün ilk növbədə bu barədə ona bir neçə kəlmə söz dedi və sonra soruşdu:

– Sadıq, bizə iyirmi manat pul borclusan, nə vaxt verəcəksən?

Pul sözü eşidəndə Sadıq bəy təhlükə hiss eləmiş atlar kimi qulağını şəklədi və hirsli-hirsli cavab verdi:

– Məndən niyə soruşursunuz, gedin nisyə bilet alanlardan soruşun. Onlar nə vaxt versə, məndə o vaxt qaytaracağam.

– O hesaba bizə bu saat beş manat pul lazımdır.

– Bu saat məndə bir qara qəpik də yoxdur.

– Uşaqlar səndə beş manat görüblər.

Hüseyn bunu deyəndə Sadıq bəyə elə bil qəfildən iynə batırdılar. O, dik atıldı. Bu hərəkət Hüseynin nəzərindən qaçmadı.

Sadıq bəy qapıya tərəf dal-dalı çəkilib çığırdı.

– Sizin uşaqları pulsuzluqdan qara basır. Məndə pul yoxdur, məndə pul yoxdur!.. Və otaqdan çıxdı.

O gedən kimi Hüseyn sakit halda dedi:

– Tamaşanı başlayaq, çıxaq səhnəyə.

Sarabski təəccüblə cavab verdi:

– Nə danışırsan? Bəs papaq? Bu pərdə qurtarandan sonra on beş dəqiqə vaxtımız olacaq, zərgərdən gətirməyə çatışmarıq.

– Gedək, Hüseynqulu! – deyə Ərəblinski qabağa düşüb qrim otağından çıxdı və koridorda artistlərin dayandığını görüb pıçıldadı. – Səhnədə mən sənə nə desəm onu eləyərsən.

...Bir tərəfdə Xorasanın qalası görünür, o biri tərəfdə çadırlar. Nadir (Ərəblinski) səhnədə tək oturmuşdur. Mirzə Mehdi (Sarabski) içəri girir. Nadir düşüncədən ayrılır, başını qaldırıb soruşur:

N a d i r. Mirzə, gəlibsən? Kimdir, nə səsdir?

M i r z ə M e h d i. Qulluğunuza Sistan tərəfindən elçi gəlibdir.

N a d i r. Elçi? (*Ayağa durur*) Buyursun! (*Mirzə çıxır. Tək*) A... zərbi-dəstimi dadıblar. Elçi nədir? Gərək xan özü gəlib təvəqqə edə ki, *mən ondan əl çəkəm. Xeyr. Əl çəkmərəm. Ancaq təvəqqə edə bilər ki, xalqı əbəs yerə qırmayım. Özünü öldürməyim. Ancaq belə şeylərin təvəqqeyi ola bilər.*

Sadıq bəy elçi paltarında içəri girir.

E l ç i (*baş əyib*). Xidmət şərəfinizə salam edib, Sistan xanı tərəfindən göndərilmişəm.

N a d i r. Xob. Buyuruq?

E l ç i. Xanın xahişi budur ki, ümumi xeyirdən ötəri davanı bərhəm edək.

N a d i r (*acıqla baxır*). Nə şərt-şürutla.

E l ç i . Xan xahiş edir ki, layiqincə xərac versin.

N a d i r (*gülür*). Qalada oturub dəhyek versin? Xob! Cənab elçi, xanınız çox əla xəyallara düşübdür...

E l ç i. Və bir də şərt edib ki, min bəd İranla dava etməsin.

N a d i r (*gülə-gülə*). Cənab elçi, xanınıza ərz edərsiniz ki, bu gün hazır olsun. Şərtnaməmi yazıb göndərərəm və buyruq verərəm ki, qolu bağlı şərtnaməyə qol çəksin.

E l ç i (*mat*). Anlamıram.

N a d i r. İnşallah, bir saat keçər anlarsınız. Görünür, xanınız davada xab qəflətdə imiş. Zərbi-dəstimi görməyibdir və illa görsəydi, bu təklifləri mənə etməzdi. İnsafdırmı ki, ata-babalarımızdan qalan yerləri alasınız, müqəddəs yerlərimizi qarət edəsiniz və bizim qüvvəmiz ola-ola sizin xeyrinizə olan şərtlər qəbul edək? Hərgah xanınız xahiş edir ki, özü əsir olmasın, hərgah qoşunun əbəs qanfəşan olmağını istəmir, iki saatadək Xorasanın qalasını gərək azad etsin və illa bu gün şəhəri alt-üstünə çevirmək, ataları balasız, balaları anasız qoymaq mənim borcum olsun.

Ərəblinski bu monoloqu böyük vəcdlə dedikdə salonda alqış qopdu. O, alqışlara adət etdiyindən buna əhəmiyyət vermədi, gözünü elçiyə zilləyib bir qədər dayandı. Əli ilə yol göstərib "indi buyurun" sözünü deməli idi və bu zaman elçi səhnədən çıxıb gedəcəkdi. Ancaq Hüseyn elçiyə diqqətlə baxıb birdən çığırdı:

– Mirzə Mehdi, bu elçi mənə çox şübhəli görünür, bəlkə o, silah gizlədib, məni gizlindən vurmaq istəyir? Tez axtar onun ciblərini!

Mirzə Mehdi – Sarabski heç gözləmədiyi bu əlavədən əvvəlcə çaşdı, sonra işarəni başa düşüb elçinin – Sadıq bəyin qolundan yapışdı. Sarabskinin o vaxt qoçaq və cavan vaxtı idi, zarafatca ona "Azərbaycan teatrının qoçusu" deyirdilər; çaşmış və özünü itirmiş Sadıq bəyi yıxıb bir dəqiqədə ciblərini axtardı, sonra Hüseynə yaxınlaşıb əvvəlcə "beşliyi tapdım, cibimdədir", – deyə pıçıldadı, sonra bərkdən cavab verdi:

– Ciblərində silah tapılmadı.

Ərəblinski böyük istehza ilə elçiyə yol göstərib tekstin dalını dedi:

– İndi buyurun!..

Sadıq bəy tir-tir əsirdi. Pulu getdiyi üçün özünü itirmişdi, gözləri kəlləsinə çıxmışdı. Əsə-əsə dalı-dalı getdi və səhnədən çıxdıqda tamaşaçılar onun bu vəziyyətini aktyor məharəti başa düşüb əl çaldılar.

* * *

Tamaşa müvəffəqiyyətlə sona çatdı. Ərəblinskini çox alqışladılar, neçə dəfə səhnəyə çağırdılar.

Hüseyn paltarını dəyişib qrimini yudu, sonra da Sarabskinin köməyi ilə paltarları qarderoba təhvil verdi. Küçəyə çıxdıqda artıq gecədən xeyli keçmişdi. Evlərinə tərəf getmək istəyirdilər ki, Sadıq bəyin tində dayandığını gördülər. Onun yanına çatdıqda Hüseyn Sarabskiyə tərəf dönüb dedi:

– Mirzə Mehdi, bu elçi yenə mənə şübhəli görünür. Axtar, bəlkə onun cibində bir beşlik də var.

Sadıq bəy Sarabskinin ona tərəf gəldiyini görüb:

– Ey, ey!.. Yaxın gəlməyin. Polis çağıraram! – deyə qaçmağa başladı.

Ərəblinski gülə-gülə onun arxasınca çığırdı.

– Səndə qaldı on beş manatımız!

1963

ƏRƏBOĞLU

1922-ci ilin yay aylarından biri idi. Maarif Komissarlığı tərəfindən qastrola göndərilmiş teatr truppası xüsusi təsdiq olunmuş marşrutla rayonları və kəndləri dolaşır, tamaşalar verirdi. Bu tamaşaları təşkil eləmək çox çətin idi. Əvvəla ona görə ki, nəqliyyat vasitəsi yox idi, aktyorlar bəzən otuz-qırx kilometr yolu piyada getməli olurdular. Sonra günlərlə oturub dekorasiyanı gözləyirdilər. Dekorasiya araba ilə daşınırdı. Rayonların bir çoxunda, xüsusən kəndlərdə bina yox idi, çox vaxt açıq havada oynamalı olurdular. Bütün bu əziyyətlərə baxmayaraq truppada böyük həvəs və ruh yüksəkliyi vardı, çünki onları hər yerdə əziz qonaq kimi qarşılayırdılar. Teatra o qədər maraq vardı ki, bilet üstə, yer üstə dava-dalaş düşməsin deyə, milisə müraciət etməli olurdular.

Nəhayət, aranda işlərini qurtarıb dağ rayonlarından birinə getməli oldular. Dekorasiyaları iki arabaya yükləyib axşamdan göndərdilər. Səhər tezdən aktyorlar iki faytona doluşub yola düşdülər. Bütün yolu, oxudular, çaldılar, deyib-güldülər, rayon mərkəzinə çatanda elə bir hadisə baş verdi ki, qorxudan bilmədilər neyləsinlər. Faytonların hər tərəfini silahlı adamlar bürüdü. Onları tüfəng qabağında revkomun binasına apardılar, artist olduqlarını yəqin elədikdən sonra buraxdılar. Üzlərinə baxan, sözlərinə qulaq asan olmadı. Gecələmək üçün yer belə çox çətinliklə düzəltdilər.

Bu cür "təntənəli" qəbulun səbəbini elə həmin gecə başa düşdülər. Məsələ orasındadır ki, Ərəboğlu adında bir quldur bütün rayonu terror altında saxlayırdı. Əslində "Ərəboğlu" onun adı deyildi, ləqəbi idi. Üzünün rəngi qapqara olduğu üçün bu cür çağırırdılar.

İnqilaba qədər bu adam böyük ticarətlə məşğul idi. Mülkləri, torpaqları, dükanları vardı. İnqilabdan sonra bunlar hamısı əlindən çıxdı və özü də harda isə itdi. Dedilər guya İrana qaçıb. İndi isə meydana çıxıb, quduz canavar kimi rastına gələni dalayırdı. Tək deyildi, yoldaşları da vardı. Ancaq dəstəsinin neçə nəfərdən ibarət olduğunu heç kəs bilmirdi. Soyur, talayır və müqavimət göstərəni öldürürdü.

Bütün rayonda səfərbərlik elan edilmişdi. Milis işçilərinə köməkçi olaraq həvəskar dəstələr yaradılmışdı. Həm rayon mərkəzində, həm də kəndlərdə bu dəstələr qarovul çəkir və dövlət əmlakın Ərəboğlundan gözləyirdilər.

Rayon mərkəzi dağ döşündə yerləşmiş kiçik, səliqəli bir şəhərdən ibarət idi. Yaxşı klubu vardı. Klubu xüsusi bir məqsədə tikilmiş bina deyildi, keçmiş bəy evi idi. İnqilabdan sonra bu ev dəyişdirilib klub şəklinə salınmışdı.

Artistlər şəhərdəki gərgin vəziyyətə baxmayaraq, klubu səliqəyə saldılar, dekorasiyaları kiçik səhnədə yerləşdirdilər və bütün şəhərə elanlar yapışdırdılar ki, bu gecə "Laçın yuvası" tamaşası veriləcək.

Heç kəs getmədi. Bircə bilet də alan olmadı. Truppaya bu hadisə çox pis təsir elədi, həvəsdən düşdülər, sabahı gün getməyi qərara aldılar. Ancaq getmək də mümkün deyildi. Ərəboğlu yolda onların qabağını kəsə bilərdi. Gələndə xəbərsizdilər, qorxmamışdılar.

Sabahı günü axşama kimi dekorları dəyişdilər, yeni afişa düzəltdilər, iri taxtaların üstündə yazıb teleqraf direklərinə belə elan vurdular: "Otello", "Qısqanc bir generalın macərası. Axırıncı pərdədə öz arvadını boğur".

Yenə gələn olmadı. Onca tamaşaçı, o da uşaq-muşaq. Oynamadılar. Kor-peşman evlərinə qayıtdılar. Səhər tezdən truppanın rəhbəri Aslan revkomun yanına getdi və xahiş etdi ki, xüsusi mühafizəçilər versinlər, onları yola salsınlar.

Revkom Məbud kişi ucaboy, xoşsifət bir qoca idi. Uzun bığları vardı və bu, onu bir az Koroğluya bənzədirdi. Kənardan baxana elə gələ bilərdi ki, Məbud kişi bütün günü heç bir iş görmür, yalnız bığlarını eşməklə məşğuldur. Ancaq elə deyildi. Məbud kişi on beşinci ildən partiyanın üzvü idi. Mübariz, tədbirli adam idi.

Aslana diqqətlə qulaq asdıqdan sonra dedi:

– Ayrı vaxt olsaydı, sizə böyük hörmət eləyəcəkdik. Neyləyək? Çox pis vaxtda gəlmisiniz, başımız qarışıqdır, quldurlar göz verib işıq vermirlər.

Ancaq...

Birdən Məbud kişi sözünü kəsdi, nə isə düşünüb ayağa qalxdı.

– Bircə dəqiqə burda otur, oğlum, mən bu saat qayıdıram. Ağlıma bir şey gəlib.

Bunu deyib Məbud kişi çıxdı və xeyli keçəndən sonra bir nəfərlə geri qayıtdı. Aslana müraciət edərək dedi:

– Tanış ol. Bizim rayonda çekanın nümayəndəsi, yoldaş Cəfərov.

Cəfərov arıq, cəld bir adam idi. Aslanla görüşəndən sonra stul çəkib oturdu və papirosu papirosa calamağa başladı. Sona qədər bir kəlmə danışmadı.

Məbud kişi Aslandan soruşdu:

– Repertuarınızda hansı əsərlər var?

– Süleyman Sani Axundovun "Laçın yuvası".

– Onu klubda bizim uşaqlar bir neçə dəfə oynayıblar. Sonra?

– "Hacı Qara".

– O da heç.

Aslan təəccüblə çığırdı:

– Necə heç?.. Mirzə Fətəli Axundov heç?

– Özündən çıxma, yoldaş artist, heç – ona görədir ki, o əsəri bizim rayonda uşaqlar da əzbər bilir. Daha nəyiniz var?

– "Otello".

– O hansıdır? Qısqanc bir generalın macərası? Axırıncı pərdədə öz arvadını boğur, o?

– Özüdür ki, var... Şekspir yazıb...

Məbud kişi bığaltı gülüb soruşdu:

– Gərək ki, o əsərin qəhrəmanı zəncidir, eləmi?

– Bəli! – deyə Aslan cavab verdi və ürəyində fikirləşdi: "Deyəsən bu qoca dramaturgiyanı yaxşı bilir".

Məbud kişi bığlarını eşib bir az fikirləşdi, sonra Aslandan soruşdu:

– Onun adını dəyişsək olarmı?

– Kimin adını, Otellonun?

– Yox, əsərin adını. Qoy Otello elə Otello olaraq qalsın. Ancaq əsərin adını qoyaq "Ərəboğlu".

– Axı, Otello quldur deyil, böyük sərkərdədir, generaldır.

– Mən demirəm ki, xasiyyəti dəyişsin, – deyə Məbud kişi sakit cavab verdi. – Əsəri necə var o cür oynayın. Bizim rayonda onun tamaşasını göstərməyiblər, qoy camaat görsün. Ancaq adını dəyişək, afişalarda belə yazaq: "Ərəboğlu". Hal-hazırkı həyatdan götürülmüş şiddətli komediya.

Aslan təəccüblə dedi:

– Komediya?

– Bəli. Bizim tamaşaçılar komediyanı çox sevirlər.

– Axı bu faciədir!

Məbud kişi yenə bığaltı gülüb dedi:

– Əgər fikirləşsən, görərsən ki, bütün faciələrin axırı komediya ilə qurtarır.

– Yaxşı olmaz.

– Çox gözəl olar! Siz etiraz eləməsəniz Şekspir bir kələm söz deməz. – Məbud kişi güldü. – Tamaşanı təyin eləyək iki gündən sonraya. Mən mətbəəyə tapşıraram, bircə saata sizə afişa düzəldərlər. Hər yanda car çəkərik ki, Ərəboğlunun həyatından gülməli əsər oynayacağıq. Qoy camaat gəlib tamaşa eləsin.

– Bəs bizdən soruşmazlar ki, niyə gülməli deyil?

– Axırı çox gülməli olacaq. Sən özün görəcəksən. Ancaq iki şərtim var. Birinci odur ki, gündüz oynayacaqsınız. Axşam qorxudan heç kəs gəlməz. Çünki o quldur bayquş kimi qaranlığı sevir, gündüz hücum eləməyə cürət eləmir. İkinci şərtim də odur ki, klubda yox, açıq havada, şəhərin qırağındakı qoruqda oynayacaqsınız. Orda sizinçün səhnə düzəltdirmək, şərait yaratmaq mənim boynuma. Razılaşdıq?

Aslan istər-istəməz razı oldu. Gedəndə Məbud kişi, Cəfərov onu qapıya kimi ötürdülər. Qapıda Məbud kişi onunla görüşüb dedi:

– Məqsədimiz odur ki, bəlkə sizin vasitənizlə o qulduru yaxalayaq. Çox xudpəsənd adamdır, eşitsə ki, onun həyatından komediya oynayırıq, davam gətirməyəcək, tamaşanı pozmağa cəhd edəcək. O zaman biz onu yaxalayarıq. Başa düşdün? Ancaq gərək heç kəsə bu barədə söz demiyəsiniz.

Aslan gəlib aktyorları yığdı və iki gündən sonra "Otello" komediyasını oynayacaqlarını onlara xəbər verdi. Otello rolunu oynayan aktyor bir az özündən çıxdı, atılıb-düşdü. Aslan əsil mətləbi onlara açıb söyləməyə məcbur oldu. Ancaq tapşırdı ki, bu dövlət sirridir, gərək heç kəs bilməsin.

Əlbəttə, bir sirri iki adam bilirsə , deməli artıq o sirr deyil. Necə oldusa, aktyorlardanmı, ya aktrisalardanmı, biri bu sirri ürəyində saxlaya bilmədi, kimə isə dedi. O adam başqasına, başqası da başqasına... Bir gündən sonra bütün rayon bilirdi ki, Ərəboğlu tamaşaya hücum edəcək və onu bu qayda ilə tutacaqlar.

... Qoruqda düzəldilmiş müvəqqəti teatr binasında iynə salmağa yer yox idi. Şəhərdə heç kəs qalmamışdı, hamı burda idi. Bütün "qapılar", "pəncərələr" silahlı adamlarla əhatə olunmuşdu. Yollarda gözətçilər qoyulmuşdu.

Bu cür gərgin vəziyyətdə tamaşa başlandı.

* * *

Şəhərdə düz klub binasının qabağında bir su satan vardı. Bu adam inqilabdan əvvəl Ərəboğlunun darğası olmuşdu. Həmin darğa hələ indi də öz ağasına xidmət göstərir və şəhərdə olan hadisələri ona çatdırırdı. Darğa yalnız bu gün imkan tapıb özünü Ərəboğluna yetirə bilmişdi. Ərəboğlu həqiqətən zənci kimi qapqara, yekəsifət, yekəburun, eybəcər bir kişi idi, beş adamdan ibarət dəstəsi ilə bərabər meşədə, fızıllıq bir yerdə oturmuşdu. Darğa ilə həmişə burda görüşürdülər.

Darğa şəhərdəki vəziyyəti ona başa salırdı:

– Qoruqda yer qayırıblar, pərdə-zad çəkiblər, bu saat orda həngamə çıxardırlar.

Ərəboğlu ağız-burnunu büzdü, qara sifəti bir az da eybəcərləşdi, narazı halda dedi:

– Sən öl, lap neçə il bundan qabaq da bu darğanın sözündən mən bir kəlmə başa düşməzdim. Bir yaxşı-yaxşı danış görüm nə həngamə çıxardırlar?

Darğa tez-tez gözünü qırpıb kəkələdi:

– Sənin şəbehini çıxardırlar.

– Mən imam Hüseynəm ki, şəbehimi çıxartsınlar?

– Nə bilim?.. Hər yanda yazıb-yapışdırıblar ki, "Ərəboğlu". Özüm höccələyib oxumuşam. Elə indi, bu saat Bakıdan gələn ərtislər üzgözlərini bəzəyib çıxıblar... Deyirlər guya sən orda öz arvadını boğacaqsan.

Ərəboğlu qəhqəhə ilə güldü, yoldaşları da ona qoşulub hırıldadılar. Ərəboğlu gözünün suyunu əlinin dalı ilə silib dedi:

– İndi mən başa düşdüm, yəqin mənim barəmdə pyes yazıb oynayırlar. Bəs bilmədin, o pyesi kim yazıb?

Darğa bir az fikirləşdi. Sonra birdən tapıb dedi:

– Şikspir.

– Kim?

– Özüm oxumuşam. Belə yazılmışdı: Şikspir.

Quldurlardan biri dedi:

– Yəqin təzələrdəndir.

Darğa tez əlavə elədi:

– Deyirlər bakılıdır, xüsusi səni tutmaq üçün yazıb.

– Necə? Məni tutmaq üçün?

– Bəs necə? Şəhərə səs yayılıb ki, guya sən bu işə razılıq verməyəcəksən, tratra hücum eləyəcəksən, elə bu vaxt səni tutacaqlar.

Ərəboğlu yenə gülməyə başladı.

– Nə axmaq adamlardır, ə!.. İstəyirlər pyes yox, lap opera yazsınlar, mənə nə? – deyə öz-özünə donquldandı, sonra birdən yadına düşmüş kimi darğadan soruşdu:

– Tamaşaya çox adam gedib?

– Hamı oradadır, – deyə darğa tez cavab verdi. – Şəhərdə heç pişik də qalmayıb. Tratrın dörd tərəfinə tüfənglilər qoyublar. Qoruğun bütün yollarına gizlin qarolçu qoyublar, sən gələn kimi hər tərəfdən tökülüşüb tutacaqlar.

Ərəboğlu həyəcan içində ayağa qalxdı.

– Əsil məqamdır. Bilirsiniz neyləyək? – deyə yoldaşlarına nə isə demək istədi, sonra susdu, tez darğaya müraciət elədi. – Darğa, sən get kəndə, həmin mənim teatrımı çıxardan yerdə ol, elə ki, güllə səsləri eşitdin, qışqır, haray sal ki, "Ərəboğlu gəldi". Ayrı işdə işin olmasın. Onlar mənim teatrımı çıxardırlar. Mən də onlar üçün bir teatr düzəldərəm ki, gülməkdən bağırsaqları qırılar. Tez ol get, darğa, dediyim söz yadından çıxmasın.

Darğa gedəndən sonra Ərəboğlu yoldaşlarından ikisinə müraciət edərək dedi:

– Atı minin, tez özünüzü çatdırın qabaq-qarşıdakı dağın döşünə. Atları meşədə bağlayın, ehtiyatla şəhərə tərəf gedin, qoruğa bir az qalmış tüfənglərinizi havaya boşaldın. Tez-tez doldurub atın, elə bilsinlər çox adamsınız. Elə ki, başladılar cavab verməyə, ata-ata qaçın, atlara minib aradan çıxın. Dalısı ilə sizin işiniz olmasın.

Ərəboğlunun dəstəsində "getmirəm, eləmirəm" sözü deyilməzdi.

Bu beş adamın hər birinin vicdanında o qədər qan ləkəsi vardı ki, Ərəboğluna sığınmaqdan və ondan nicat gözləməkdən başqa heç bir əlacları yox idi.

Quldurun ikisi getdi. Ərəboğlu qalan üç yoldaşına müraciətlə dedi:

– İndi biz də çay tərəfdən şəhərə girək. Mən evimə baş çəkmək istəyirəm.

Quldurlardan biri təəccüblə soruşdu:

– Niyə? İki dəfə təcrübə eləmişik, yaxamızı güclə qurtarmışıq.

O biri quldur dedi:

– Ay Ərəboğlu, bu balaca şəhərin bankında nə pul olacaq ki, özümüzü təhlükəyə salırıq?

Ərəboğlu gülə-gülə cavab verdi:

– Mən ora pul üçün getmirəm. İndi ki, söhbət düşüb, açım sizə. O vaxt qaçaqaçda bütün qızıllarımı evdə gizlətmişəm. İndi məqamdır, gedək qızılları aradan çıxardaq, sonra da birbaş özümüzü verək Arazın o tərəfinə. Bildiniz? Darğanın yanında bu barədə bir söz demədim, çünki onun özündən də şübhələnirəm. Gəlin dalımca!

Sürünə-sürünə meşəlikdən çıxdılar. Yayda qupquru qurumuş çaya düşdülər. Ordan keçib şəhər qırağındakı küçələrə girdilər. O hasarın dibindən bu hasarın dibinə, o qapıdan bu qapıya, gizlənə-gizlənə Ərəboğlunun keçmiş evinə çatdılar. Yolda bir-iki qoca-mocaya rast gəlib gizlənmişdilər. Bu tərəfdə ins-cins yox idi.

Ərəboğlu yoldaşlarını ətrafda qarovulçu qoyub evin arxa tərəfindəki divarı aşdı, həyətə düşdü.

Həyətdə heç kəs yox idi. Evdən də səs-səmir gəlmirdi. Cümə günü olduğu üçün bank bağlı idi. Yalnız uzaqdan, qoruq tərəfdən aktyorların səsi eşidilirdi. Kim isə ucadan çığırırdı. Ərəboğlu öz-özünə... "Heç mən elə böyürə-böyürə danışıram?" – deyə düşünüb gülümsündü. O, bir ağacın dibinə qısılıb xeyli gözlədi, nəhayət, uzaqdan güllə səsləri və bunun dalınca camaatın qışqırtısı eşidildi. Bu tərəfdən cavab olaraq tüfənglər açıldı. Ərəboğlu bunu eşidib sürətlə evə yaxınlaşdı, ancaq pilləkənlə yuxarı çıxmadı, zirzəminin qapısına yaxınlaşdı. Qapıda balaca bir qıfıl vardı. Ərəboğlu bıçağını salıb qıfılı bir dəqiqədə qırdı, içəri girdi.

Zirzəmi qaranlıq idi, indicə açılmış qapıdan az-maz işıq düşürdü. O, bir dəqiqə itirmədən əli ilə divarları yoxlamağa başladı. Nəhayət, böyük bir daş bələdlədi, ətrafını bıçaqla qazıb divardan çıxartdı. Onun əlləri əsirdi, tər dabanından süzülürdü. Daşı ehtiyatla yumşaq torpağın üstünə qoydu, yerinə əlini saldı. Gizlətdiyi şeyləri öz yerində idi. Ərəboğlu arxayın nəfəs aldı. Elə bu zaman zirzəminin qapısı tərəfdən ayaq səsləri eşitdi. Ərəboğlu cəld döndü; qapının ağzında üç nəfər dayanmışdı. İşıq onlara arxadan düşdüyü çün üzlərini seçə bilmədi, əvvəlcə elə bildi ki, öz yoldaşlarıdır, ancaq bu düşüncə bir an çəkdi. Şübhələnib əlini tapançaya atdı, qapıdakılar elə sürətlə onun üstünə atıldılar ki, silahı çıxarda bilmədi. Qısa bir süpürüşmədən sonra təslim oldu.

Ərəboğlunu həyətə çıxartdılar. Məbud kişi, Cəfərov və tanımadığı bir adam onu əhatə eləmişdilər. Qaçmaq üçün heç bir imkan olmadığını görüb Ərəboğlu yoldaşlarını qurtarmaq üçün bərkdən:

– Qaçın, qurtulun! Məni tutdular! – deyə çığırdı.

Məbud kişi gülə-gülə dedi:

– Boğazını yırtma. Onları çoxdan aparmışıq. Sən bu evə neçə dəfə hücum eləyəndə biz bilirdik ki, işin içində iş var. Rayon bankında nə pul olur ki, sən özünü bu cür həlak eləyəsən. Ürəyimizə dammışdı ki, nə isə gizlətmisən, onun nigarançılığını çəkirsən. Ancaq ha fikirləşirdik, bir tələ qura bilmirdik. Sağ olsun artistlər. Onlar bizim dadımıza çatdılar.

Ərəboğlu dinmədi. Məbud kişi ətrafındakılara müraciət etdi:

– Götürün gəlini də, onun cehizini də aparaq, bir yaxşı toy eləyək.

* * *

... Böyük bir fasilədən sonra tamaşa davam elədi. Ərəboğlunun tutulmağı münasibəti ilə bütün şəhərdə bayram elan edilmişdi. Artistləri bir həftə rayondan getməyə qoymadılar. Gündə neçə yerə qonaq çağırdılar. Hər axşam tamaşa və hər axşam da anşlaq.

1963

AT

Kislovodskda istirahət edirdik. Çkalov küçəsində, mərhum İsmayıl Hidayətzadə ilə qonşuluqda mənzil tutmuşduq. Bizim opera teatrımız bura qastrola gəlmişdi. İsmayıl bu teatrın həm direktoru, həm də baş rejissoru olduğu üçün bütün günləri işləyirdi, ancaq hərdən (teatrın istirahət günlərində) onların səfalı həyətində oturub söhbət edirdik. Soltan xanım çox yaxşı çay dəmləyirdi, bizdə armudu stəkanlardan bu çayı içə-içə "mırt vururduq". İsmayıl məzəli söhbətləri dinləməyi çox sevirdi. Özü də başına gələn hadisələri, eşitdiyi-bildiyi əhvalatı gülməli şəklə salıb danışmağı bacarırdı.

İki-üç gün ürəkdarıxdırıcı sısqa yağış yağandan sonra nəhayət gün çıxmışdı. Səhər saat on olardı. Mən həyətdə gəzişirdim ki, uzaqdan bir səs eşitdim. Kim isə məni çağırdı. Səs gələn tərəfə getdikdə gördüm ki, İsmayıl öz bağlarından mənə əl eləyir.

Təəccüblə soruşdum:

– Nə əcəb evdəsən, məşqə getməmisən?

– Məşqimiz saat on ikidədir, – deyə İsmayıl cavab verdi. – Gəl, çay içək!

Oturduq. Xüsusi ətri olan xoruzpipiyi çaylar gəldi. Böyük alma ağacının altında arabir başımıza, boynumuzun dalına yarpaqlardan damcı düşə-düşə çay içməyə başladıq. Bu zaman gördük ki, mənim yaşadığım ev tərəfə qalxan dik yoldan bir kişi atla düşür. Yol palçıqlı və sürüşkən olduğundan, at qorxa-qorxa yeriyir və bəzən də dörd ayağını gen qoyub dayanır. Bu zaman kişi atı amansızcasına şallaqlamağa başlayır. Yazıq atın böyrü-böyrünə girib, qabırğaları sayılır, şallaq dəydikcə ağrıdan gözləri nəlbəki boyda olur, ancaq ayağını tərpətməyə qorxur.

İsmayıl qalxıb kişini səslədi: "Düş yerə, başından çəkib dalınca apar, o cür getməz, heyvana əziyyət verincə, başına bir az güc ver" – deyə ona bir az nəsihət elədi. Sonra təkrar yerində oturanda mənə dedi:

– Axmaq adam, yalnız şallaq vurmaq bacarır, ata gör necə baxıb ki, canlı skeletdir.

Sonra da düşüncə içərisində davam elədi:

– Bütün Kislovodskda bir yaxşı at yoxdur, hamısının qıçı əyri, gözü kordur.

– At dövrü keçib, – deyə mən çay içə-içə ona cavab verdim.

O, birdən özündən çıxdı (ümumiyyətlə sakit danışa bilmirdi):

– Necə keçib, nəyi keçib? At – atdır, maşın – maşın. At keçən cığırlarda maşın bir qələt eləyə bilməz. Bu boyda kurort şəhərində yabıdan başqa heç nə tapmaq olmur.

– Nə bilirsən? Bəlkə var.

– Bilməsəm danışmaram. Üç gündür ev-ev hər yanı axtarmışıq.

– Axı, at sənin nəyinə lazımdır?

– Mənə lazım deyil, Koroğluya lazımdır.

Hə, İsmayılın at barədə bu cür yanıqlı danışmasının səbəbini indi başa düşdüm. Bu axşam ilk dəfə "Koroğlu" operası göstəriləcəkdi. Bu tamaşa üçün at mütləq lazım idi.

O, sözünə davam edərək deyirdi:

– Əlbəttə, səhnə üçün göylə oynayan dəli at yaramaz. Bülbüldən ehtiyat eləyirəm, onu hər ata mindirmək olmaz. Dinc heyvan lazımdır. Ancaq heç olmasa görkəmi olsun. Koroğlunu bu cür bir yabıya mindirsək tamaşaçı bizə nə deyər?

– Bəs, axşam neyləyəcəksiniz?

– Tapmışıq, – deyə İsmayıl gülümsünərək cavab verdi. – Uzaq kəndlərin birindən tapmışıq. Sahibi ilə bərabər dünəndən Kurzalda yaşayır. Görkəmi yaxşıdır, özü də sakit ata oxşayır. Ancaq yenə də ehtiyat eləyirəm. Bu gün onunla dörd saat məşq eləyəcəyəm.

– Atla məşq? O necə olan şeydir?

– Durovun arxasınca gedirəm, heyvanları ram eləməyə başlamışam. İstəyirəm vaxtkən atı musiqiyə öyrədim ki, axşam orkestr çalanda şıllaq atmasın.

Saat on ikinin yarısına qədər çay içdik, söhbət elədik. Sonra o getdi, mən də durub parka gəzməyə çıxdım.

Qayıdanda saat dördü keçmişdi. Bizim Çkalov küçəsinə çatanda gördüm İsmayıl qabaqda ağır addımlarla gedir. Özümü ona çatdırdım. Məni görüb dayandı, tövşüyə-tövşüyə, xırıltılı səslə dedi:

– At mənim başıma bir oyun açıb ki, yorğunluğumdan nəfəsimi ala bilmirəm.

– Nə olub? Yoxsa ürküb qaçıb, tuta bilməmisiniz?

– Yox canım, çox dinc heyvandır.

– Bəs niyə səni bu qədər yorub?

– Tələsmə, addım-addım gedək, danışım.

Beş addım gedib, beş dəqiqə dayana-dayana irəlilədik. Xeyli keçəndən sonra İsmayıl sözünə davam elədi:

– Səndən ayrılıb teatra getdim, sahibi atı səhnəyə çıxartdı, mən ona dedim yanında dayanma, get, saat dördə yaxın gəl, qoy bizə öyrəşsin. Dirijora da tapşırdım ki, nə qədər mümkündür bərkdən çalsın. Bu qayda ilə məşqimiz başlandı. Üç saat yarım vurhavur oldu. Çənlibel pərdəsini, bir də dördüncü pərdəni neçə dəfə məşq elədik. Yorulmasın deyə Bülbülü oxumağa qoymurdum. Yalnız atla gəzirdi ki, özünə isinişdirsin. Mən də ki, özün bilirsən, məşq olanda rahat dayana bilmirəm. Ora-bura qaçıb yoruldum, tərlədim. Elə qurtarhaqurtarda idik ki, atın sahibi gəldi, zalda dayanıb bir az baxdı, sonra məndən soruşdu:

– Siz burda neyləyirsiniz?

Dedim:

– Məşq eləyirik ki, at orkestrin səsinə öyrənsin.

At sahibi gülümsündü və mənim qulağıma pıçıldadı:

– Mənim atım kardır. Qulağının dibində orkestr çalma, istəyirsən lap top at, eşitmir.

– Bəs niyə əvvəlcədən soruşmamışdınız ki, bu atın eybi nədir?

İsmayıl ah çəkib dedi:

– Bütün Kislovodskda bir abırlı at tapmışdıq, mən nə bileydim ki, onun da qulağı kardır?

Küçədən maşınlar ora-bura şütüyürdü. Əsrimiz maşın əsri idi. Üç yüz il bundan qabaqkı Qırat indi dönüb kar at olmuşdu.

1963

ƏLLƏR

Axşam dedikdə adamın gözünün qabağına gəlir: teatrlar, konsertlər, işıqlı bulvarlar, parklar, dost-aşna ilə söhbət, zarafat... Gündüz əgər işdən bir az yorulubsansa, axşam çıx dəniz kənarına, ya da ki, dağüstü parka. Axşam Bakısının böyük ahənglə vuran nəbzini duyduqdan, gənclərin yarpaqların pıçıltısına qarışan gülüşlərini eşitdikdən, Xəzərin sularında çimən gur işıqlarını gördükdən sonra adamda yorğunluq qalar? Bütün bu gözəlliyi yaradan, həyatımızın hər zaman işıqlı olmasını təşkil edən əməkçi insanların əlidir, quran, yaradan əllər...

Mən NEP vaxtında Bakıya gəlmişəm. O zaman şəhər belə deyildi. Böyük küçələrdə az-maz işıq görünürdü, kiçiklərdə isə heç yox idi. Xüsusən yuxarı hissədə axşam zil qaranlıq demək idi. Qaranlıq olan kimi o zamankı qarışıq cəmiyyətin bütün xıltı üzə çıxırdı.

Yuxarı məhəllədə Səfdər adlı bir qonşum vardı, hardasa işləyirdi. Səhər tezdən işə gedirdi, nahar vaxtı da qayıdırdı. Axşam qaralan kimi yerini saldırıb başını qoyardı. Mən gecələr işıq yandırıb məşğul olanda deyərdi:

– Müəllim, axşamın xeyirdən sabahın şəri yaxşıdır, qaranlıqda baş işləməz, yat dincini al.

Mən ona etiraz eləyib cavab verərdim ki, ay Səfdər, bu məsəl köhnəlib, indi daha axşam məktəbləri, axşam kursları açılıb... Teatrlar, kinolar var... Deyərdi yox, mən qaranlıqdan xeyir görməmişəm, teatra-zada ayağım dəyməz, şər qarışdı adam gərək gözlərini yumsun.

Səfdərin Rəfiqə adlı arvadı və Şəfiqə adlı bir yaşlı qızı vardı. Rəfiqə də əri kimi qaranlıqdan qorxardı. Axşamlar burnunu çölə çıxartmırdı. Onlar çox sakit dolanırdılar. Səfdərin əlinin əməyilə qazanılan çörək bu ailədə sakit bir həyat yaratmışdı. Rəfiqə bütün günü yuyur, təmizləyir, silir, süpürür, bişirirdi. Onun əlləri bir dəqiqə dinc durmurdu.

Bir gün nə təhər oldusa Səfdər özünə təzə vəzifə tapdı; anbar müdiri. Bu vəzifəyə keçən kimi büsbütün dəyişdi, hardansa bollu pul qazanmağa və ona görə də qaynam-qaynam qaynamağa başladı. Arvadından soyudu, uşağının üzünə baxmadı. Yazıq Rəfiqə haqqında tez-tez deyirdi: "Bilmirəm bu əfəli mənə kim calayıb?"

Qərəz deyindi, deyindi və günlərin bir günü Rəfiqəni boşadı. Şəfiqəni verib qucağına göndərdi atasının evinə. Əvəzində bəzəkli-düzəkli, dünya görmüş bir gəlin alıb gətirdi...

Təzə gəlin Səfdərin evini bəzəməyə başladı. Güzgülü şkaf, çilçıraq, şifoner, qonağın bir dəstəsi gedib, o biri gəlirdi. Gecələr çalmaq-oxumaq səsindən tutulurdu. Səfdər axşamdan yatmağı tamam tərgitdi. Təzə gəlinin cürbəcür qulluqçuları vardı, bütün günü onun işini görürdülər. Əlləri yum-yumşaq idi. Sandıqda saxlanıb işlənmiş ağ inək parçaya oxşayırdı.

Səfdərin isə, deyəsən, tərəzisi bu ağırlığı çəkə bilmirdi. Bunu mən Səfdərin əllərindən hiss edirdim. Bir dəqiqə dinc qalmırdı. Gah təsbeh çevirir, gah papiros eşir, gah da barmaqlarını bir-birinə qacıdıb şaqqıldadırdı. Axşamlar çox ora-bura gedib-gəlirdi, doqqazda kimlərlə isə pıçıldaşırdı.

Mən bir kərə ona rast gələndə dedim:

– Ay Səfdər, niyə belə vurnuxursan, yuxuna haram qatırsan? Bəs deyirdin ki, axşamın xeyirdən sabahın şəri yaxşıdır.

Səfdər ağızucu:

– Özün demirdin ki, köhnə məsəldir? – cavabını verib yanımdan düz keçdi. Hiss elədim ki, yəqin qaranlıqlardan xeyir görməyə başlayıb.

Qış axşamlarından biri idi, hava lap tez qaralmışdı, bizim həyətdə də küçədə də göz-gözü görmürdü. Bərk də xəzri əsirdi. Mən instituta gedəcəkdim, axşam məşğələmiz vardı. Paltoma bürünüb küçəyə çıxanda qapımızın ağzında üç kölgə gördüm. Mən çıxan kimi onlardan biri yaxınlaşdı, qaranlıqda əlimi tutub ovcuma bir şey qoydu:

– Al, – deyə pıçıldadı, – keçən səfərki malların puludur. Apar, gizlət. Biz gedirik, izimizə düşüblər, ehtiyatlı ol!

Hər söz deməyə macal tapmadım. Onlar bir anın içində qaranlıqda əridilər. Mən geri qayıtdım. Otağımda baxıb gördüm ki, əlimdəki puldur, böyük məbləğ pul. Heç şübhə yox ki, onlar qaranlıqda məni Səfdərlə qarışıq salmışdılar. Odur ki, qonşumun qapısını yavaşca döydüm. Qapını təzə gəlin açdı, məni görüb özünü itirdi, "evdə yoxdur" deyə kəkələdi, mən pulu ona uzadıb dedim:

– Bu pulları indicə küçədə üç nəfər verdi. Səfdərə çatacaq...

Qadın acgözlüklə pulları aldı, tez qapını örtü. Ancaq mən otağıma qayıtmağımla Səfdərin dalımca gəlməyi bir oldu. Həyəcanlı idi, rəngi ağarmışdı. Əvvəla, arvadından əvəz üzr istədi ki, mənə "evdə yoxdur"

cavabı verib, sonra da pulu masamın üstünə qoyub yalandan gülə-gülə dedi:

– Müəllim canı, bu puldan xəbərim yoxdur... Mənə heç kəs borclu deyil... Yəqin sənin özününküdür, rayondan atan göndərib...

– Nə danışırsan, Səfdər?! – deyə mən pulu ona uzatdım. – Mənim atamda bu qədər pul hardandır? Al, sənə gətiriblər, dedilər keçən səfərki malların puludur.

Səfdər geri-geri çəkilməyə başladı. Əllərini qabağa elə tutmuşdu ki, elə bil əlimdəki pul deyil, tapança idi.

– Apar, sahibinə qaytar, müəllim, – deyə çığırdı. – Mən heç kəsə mal satmamışam, bu puldan da xəbərim yoxdur.

O, dalı-dalı gedib qapıdan çıxdı. Mən paltoma bürünüb təzədən küçəyə çıxdım. Ha ora-buranı hərləndimsə o adamlara rast gəlmədim.

Gecəni yata bilmədim. Elə bil o pullar ilan idi, gözümü yuman kimi məni çalacaqdı. Səhər tezdən durub geyindim, qapıdan çıxmaq istədikdə Səfdər qabağımı kəsdi. Deyəsən, o da gecəni yatmamışdı, çünki rəngi qaralmış, gözlərini altı tuluq-tuluq olmuşdu.

– Müəllim, səhər tezdən hara belə?

– Pulları milisiyaya aparıram.

Səfdər yalandan zarafat elədi:

– O gül kimi pulların nə təqsiri var ki, milisiyənərə verirsən, ay müəllim?

– Qoy axtarıb sahibini tapsınlar.

Bu cavabı verib getmək istəyirdim ki, Səfdər qolumdan tutub saxladı, qulağıma pıçıldadı:

– Yarı bölək.

– Mənə lazım deyil...

– Mənə lazımdır, ver bəri...hərçənd mənə dəxli yoxdur, ancaq, ümumiyyətlə, pula eşqim var. Ver, cayıl adamıq, xərcliyək sənincün...

Küçə qapısının ağzında məni təzədən haqladı:

– Bir daş altda, bir daş üstə... Bildin?..

Pulları ona verib otağıma qayıtdım. Paltomu təzəcə çıxartmışdım ki, küçə qapısı təzədən döyüldü. Səfdərin otağında bir həyəcan oldu, st›l yıxıldı. Səfdər hövlnak yanımı gəldi.

– Al, bu pulları, müəllim, xatası çıxar... Qapını döyürlər...

Girdiyi ilə çıxdığı bir oldu. Masanın üstünə atdığı pullar bu otaqdan-o otağa, o otaqdan-bu otağa səyahət eləməkdən əzim-əzim olmuşdu,

mən onları yığıb cibimə qoydum, təzədən paltomu geyməyə hazırlaşırdım ki, Səfdər qayıtdı:

– Qulluqçu imiş... Necə də qorxdum... Bura ver, onları, müəllim, məhəbbəti ürəyimə qonub, ayrı dayana bilmirəm.

Əzik-üzük kağızlar təkrar onun cibinə köçdü.

* * *

O gün axşama kimi institutda məşğul oldum. Axşam qaranlıqda əl havasına evə qayıdırdım, uzaqdan qonşumun otağından gələn işıqları görəndə pul əhvalatı yadıma düşdü. Dedim yəqin Səfdər yenə başlayıb vur çatlasın, çal oynasına... Ancaq həyətdən içəri girəndə gördüm elə deyil. Onun qapısının ağzında bir-iki milis nəfəri dayanıb, içəridə də adamlar var...

Otağıma girib işığımı yandırdım. Bu zaman Qapım yavaşca aralandı. İçəriyə bir əl uzandı. Mən o saat təzə gəlinin əlini tanıdım, səhərki pulları ovcunda bərk-bərk tutmuşdu. Qadın yəqin qorxudan içəri girə bilmirdi, dalı qapıya durmuşdu. Çünki əl tərsinə dayanırdı, özü də tir-tir əsirdi.

Bu vaxt bir səs eşitdim:

– Bacı, o nədir qonşunun qapısından içəri uzatmısan?

– Heç, ay qardaş kağızdır.

– Ver görək nə kağızdır.

Əl bir qədər titrədi, sonra geri çəkildi.

...Elə gecə ikən Səfdəri apardılar. Arvadı səhər tezdən kişinin nəyi vardısa yığışdırıb atası evinə köçdü...

* * *

Bu yaxınlarda gecə vaxtı yuxarı məhəllədən evə qayıdırdım. Küçələr gündüz kimi işıq idi. Bizim yaşadığımız o daxmalar da yox idi, çoxdan sökmüşdülər. Yerində işıqlı, çilçıraqlı bir bağ salmışdılar.

Mən Bakının mənzərəsinə aludə olaraq, düşüncə içərisində gedəndə qabağıma qoca bir kişi çıxdı. Bu kişinin əlində ağac vardı. Asfaltı tıqqıldada-tıqqıldada başı aşağı gedirdi. Mənimlə tuşlaşanda başını qaldırdı, heyrət içində dayandı:

– Müəllim!

– Səfdər! – deyə mən də təəccüblə səsləndim. – Sənsən?

– Özüməm. Gecə növbəsinə gedirəm. Dəniz qırağında böyük teatur var ha... Orada gözətçi işləyirəm.

– Hansı teatr?

– Drama...

Mən bilmədim heç nə deyim, nədənsə soruşdum:

– Uşaqlar necədir?

Bu sual Səfdəri həyəcanlandırdı, sevinə-sevinə dedi:

– Rəfiqə təqaüd alır. Şəfiqə isə həkimdir, cərrahlıq eləyir. Kimdən soruşuram, deyir əlləri lap qızıldır.

– Bəs o biri arvad necə oldu?

– O arvad budur bax, gör mənə neçəyə tamam oldu?..

Bunu deyərkən Səfdər sağ qolunu qaldırdı; biləkdən o yana boş idi, əli yox idi.

– Əlin niyə yoxdur, ay Səfdər?

– Yadındadır, məni apardılar? Hə. Sonra vədəm tamam olub, geri qayıdanda düşdüm yenə o arvadın çənginə, qurşandım köhnə işlərə... Gecə qaranlıqda o arvadın qardaşı ilə sözüm çəp gəldi. Xəncərlə üstümə hücum çəkdi. Əlimi qabağa verdim... Əlim getməsəydi başım gedəcəkdi.

Səfdər qəribə bir gülüşlə güldü, kədərlə dedi:

– Bir əlimi qurban verdimsə də, o qaranlıq dünyadan ayrıldım. İndi hər Şəfiqəyə baxanda, nəvələrimi qucağıma alanda elə bilirəm on il cavanlanıram. Heyf ki, gözətçilikdən başqa heç nəyə yaramıram... amma yaxşı yerdə işləyirəm. Hərdənbir uşaqların hamısını yığıb müftə teatra aparıram.

Biz ayrıldıq. Mən təzə evlərin, küçələrin, bağların arası ilə irəlilədim və düşündüm ki, bütün bu gözəlliyi yaradan, əməkçi insan əlidir. Qara işlərlə məşğul olan əli isə qaranlıq dünya özüylə aparıb getdi...

1963

QANLI MƏKTUB

Əlihüseyn dəm üstündə idi. Günortadan bala-bala vurmağa başlamışdılar. İndi məclisin əsil qaymaq vaxtında durub getməli idi. Çünki bir saatdan sonra tamaşa başlayacaqdı. Əlihüseynin bu günkü rolunun cəmi üç cümləsi vardı: birinci pərdədə deyirdi: "Bəli, cənab", ikinci pərdədə deyirdi: "Xeyr, cənab", üçüncü pərdədə deyirdi: "Baş üstə, cənab!" – vəssalam. Əlihüseyn iyirmi ildir teatrda bu cür rollar oynayırdı, yaratdığı obrazların hamısı yumurta kimi bir-birinə oxşayırdı. "Yaratdığı obraz" deyəndə bir az yekə düşür, çünki Əlihüseyn heç nə yaratmırdı. Tamaşadan-tamaşaya yalnız paltarla qrimini dəyişirdi. Bəzən rejissor teatrda olmayanda heç qrim də eləmirdi. Vəziyyətindən son dərəcə razı idi. Əziyyətsiz, zəhmətsiz hər ay maaşını alıb qoyurdu cibinə.

İndi, bu saat onun teatra getməyə heç həvəsi yox idi. Müftə bir məclis əlinə düşmüşdü. Bayaqdan üç dəfə Əlihüseynin sağlığına içmişdilər. Yemək də arası kəsilmədən gəlirdi. Səhnədə bir cənaba "bəli, xeyr, baş üstə" demək üçün bu cür məclisi qoyub getmək axmaqlıq olardı. Odur ki, teatrın müdirinə bir məktub yazıb, yağlı cümlələrlə oğlunun guya xəstə olduğunu, ona görə də tamaşaya gələ bilməyəcəyini xəbər verdi.

Badə yoldaşları məktubu oxuyub bəyəndilər. Ancaq bir məsələni başa düşmədilər. Stanislavski kimdir ki, Əlihüseyn bu balaca məktubda onun adını çəkir?

Əlihüseyn böyük bir nəzəriyyəçi kimi onlara izahat verdi:

– Stanislavski bütün teatrların böyüyüdür. Özüm qəsdən adını çəkmişəm, bizim müdir onun azarkeşidir.

– Əcəb yazmısan, – deyə ev yiyəsi məktubu bir də nəzərdən keçirib tərifladi: – Sənin bu məktubun qan eləyəcək!

Əlihüseyn bu tərifdən fərəhlənib şişdi və məktubu zərfə qoyub ev yiyəsinin oğlu ilə teatra göndərdi.

* * *

Teatrın müdiri məktubu oxudu, tez tapşırıq verdi, Əlihüseynin rolunu başqa adama tapşırdılar.

Tamaşa öz qaydasında getdi. Əlihüseynin bu gecə oynamadığını nə tamaşaçılar hiss elədilər, nə də aktyorlar.

Ancaq məktub müdirin yadından çıxmırdı. Hərçənd Əlihüseyn özü tamamilə lazımsız bir yük idi, teatrın yaradıcılıq həyatında heç bir rol

oynamırdı, ancaq yenə də kollektivin üzvü idi, onun oğlunun ağır xəstə olması müdiri düşündürməyə bilməzdi. Tamaşa qurtarandan sonra müdir rejissoru da götürüb xəstə uşağa baş çəkməyə getdi.

İçəri şəhərdə Əlihüseynin evini çox çətinliklə tapdılar. Qapını döydülər, xeyli vaxt cavab verən olmadı. Sonra handan hana Əlihüseynin arvadı qapını açdı. Arvad vaxtilə teatrda biletçi işləmişdi, müdiri və rejissoru tanıyırdı. Onları görən kimi: "Vay!" – deyib çağırdı və qorxu ilə soruşdu:

– Nə olub?

Müdir sifətində böyük bir kədər ifadə etməyə çalışaraq soruşdu:

– Uşaq necədir, biz onun halını öyrənməyə gəlmişik.

Arvad bu sözdən heç nə başa düşmədi.

– Nə uşaq?

– Oğlunuz... Əlihüseyn məktub göndərmişdi ki, oğlum xəstədir, tamaşaya gələ bilməyəcəyəm.

– Kül onun başına, – deyə arvad hirslə cavab verdi. – Uşağa nə olub, maşallah, top kimidir, bayaqdan başını qoyub yatıb. Əlihüseynin uşaqdan nə xəbəri var?

Müdirlə rejissor çox pərt oldular. Dodaqlarının altında "Bağışlayın, yuxudan elədik" deyə üzrxahlıqla ayrılmaq istəyirdilər ki, birdən müdir dönüb arvada dedi:

– Bizim bura gəldiyimizi Əlihüseynə demə, bacı!

Arvad hirslə cavab verdi:

– Hardan deyəcəyəm? Bir aydır küsülüyük, evə gəlmir, anasının yanında qalır.

* * *

Sabahı gün Əlihüseyn öz vaxtında teatra gəldi. Dünən çox içdiyindən gözləri şişmişdi. Saat on bir tamamda məşq otağına qalxmaq istəyirdi ki, ona dedilər; zala gəlsin, ümumi iclas var.

Əlihüseyn iclaslarda hamıdan axırda oturardı. Həmişə burada bir "lağlağı dəstəsi" yığılırdı və onlar danışılan sözlərə qulaq asmaq əvəzinə zarafatla məşğul olardılar. Bu səfər gördü ki, o dəstə yoxdur, hərə bir tərəfə səpələnib. O da bir yer tapıb oturdu. Müdir iclası açdı.

– Yoldaşlar! Mən dünən bir məktub almışam, bu məktubu Əlihüseyn yoldaş yazıb. Sizi o məktubla tanış eləmək istəyirəm.

Əlihüseyn dik atıldı, dünən axşamüstü müdirə bir kağız yazdığı yadında idi, ancaq nə yazdığı, öldür yadına düşmürdü. Ürəyində fikirləşdi ki, görəsən nə sarsaqlamışam.

Müdir oxumağa başladı. Məktubun hər cümləsi zalda elə gülüş qoparırdı ki, elə bil o, kollektivə məzəli bir komediya oxuyurdu.

"Bu məktubu sənə ürəyimin qanı ilə yazıram, yoldaş müdir (Gülüş). Yeganə övladım, gözümün ağı-qarası, raxt-xibdə ağır xəstə halda uzanıb, gözünü dikib mənə, deyir papa, getmə, sonra ölərəm (Gülüş). Gözümün yaşını həkimlər saxlaya bilmir (Gülüş). Bu gecə mən müqəddəs səhnəmizdə böyük rəhbərimiz Stanislavskinin yolu ilə gedib incəsənətimizi yüksəklərə qaldırmalı halda deyiləm (Gülüş). İmza Sizin Əlihüseyn".

Müdir "Sizin Əlihüseyn" sözünü oxuduqda zaldan dəhşətli bir qəhqəhə qopdu. Əlihüseyn pərt halda dedi:

– Niyə gülürsünüz? Adamın bədbəxtliyinə də sevinərlər?

Müdir soruşdu:

– Uşaq necədir, Əlihüseyn?

Əlihüseyn kədərli-kədərli cavab verdi:

– Səhərə kimi qızdırma içində yanıb. Gözümü yummamışam, yoldaş müdir!

Müdir gülə-gülə dedi:

– Biz dünən rejissor yoldaşla bir yerdə sənin oğluna baş çəkməyə getmişdik. Arvadın dedi ki, uşaq xəstə-zad deyil, sağ-salamatdır, sən də bir aydır evə ayağını basmırsan. Bəs buna nə deyirsən?

Əlihüseyn qəfildən zərbə yemiş adamlar kimi duruxdu. O yan-bu yana baxdı, gah durdu, gah oturdu. Sonra doluxsunub yalandan ağlamaq istədi, onun bu hərəkətinə zaldan bir qəhqəhə də qopdu. Bu zaman qocaman bir artist söz istəyib ayağa qalxdı:

– Keçmişdə, inqilabdan qabaq bizim truppamızda bax, bu Əlihüseyn kimi yalançı bir artist vardı, mənim yadımdadır, üç dəfə öz anasını basdırmaq üçün bizdən pul yığdı, sonra öyrəndik ki, anası sağdır, ölüb eləməyib.

Rejissor yerindən səsləndi:

– Belələrindən teatrı təmizləmək lazımdır.

Qocaman artist sözünə davam etdi:

– Düz deyirsiniz, indiki teatra bu cür fırıldaqçılar yaraşmır. Məncə Əlihüseyni çıxartsanız, tamaşaçılar da sevinər, biz də sevinərik. İyirmi ildir külüng vurur. Hələ iki kəlmə sözünü düz deyə bilmir, özü çaşır, bizi də çaşdırır. Qoy getsin özünə sənət tapsın.

Bir aktrisa yerində dedi:

– Düzdür, o gün səhnədə ayağımı elə basdı ki, gözümdən qığılcım çıxdı...

Əlihüseyn ona cavab verdi:

– Neyləyim. Mənə iki nömrə böyük soldat çəkməsi veriblər, yeri-yirəm, ayağım məndən qabaqda gedir.

Kim isə dedi:

– Bəs səhnədə hey bığın-saqqalın düşür, ona nə deyirsən?

Əlihüseyn ona da cavab verdi:

– Yapışqan tutmur, təqsir məndədir?

Bir başqası dedi:

– O gün səhnədə ayaq üstə yuxulayırdın.

Əlihüseyn ona da cavab vermək istəyirdi ki, kim isə ondan əvvəl səsləndi:

– O gün heç... bir az vurmuşdu...

– Yalandır, – deyə Əlihüseyn qışqırdı.

Səs-küy düşdü. Müdir hamını sakit eləyib dedi:

– Məsələni uzatmayaq. Məşq vaxtıdır. Ümumi rəy ilə teatrı Əlihüseyndən azad eləyirik.

Elə həmin gün Əlihüseyni teatrdan çıxartdılar. Məktub, doğrudan da, qan elədi.

1963

DARVAZA DRAM CƏMİYYƏTİ

Bizim həvəskarlardan ibarət bir dram cəmiyyətimiz vardı. Mürşüd adında bir oğlan rəhbərimiz idi. Mürşüdün müsbət cəhəti orasında idi ki, yaxşı təşkilatçı idi, həvəskar yığmağı, tamaşaçı toplamağı, paltar tapmağı, dekorasiya qurmağı bacarırdı. Zarafatcıl, üzügülər idi. Xətirli oğlan idi. Heç kəs onun sözündən çıxmırdı. Mənfi cəhəti orasında idi ki, aktyorluğu zəif idi, bir ayağı o birindən qısa idi. Ancaq rəhbər olduğu üçün baş rolları həmişə özü oynayırdı. Böyük bir hazır-cavablıqla da səhnədə öz axsaqlığına məna verməyə çalışırdı. Məsələn, Otellonu oynayanda Yaqoya deyirdi:

– Yaqo, Əlcəzair müharibəsində məni qıçımdan yaraladılar, ondan bəridir axsayıram.

"Almaz"da Hacı Əhmədi oynayırdı. Axsaq qatırdan söhbət düşəndə və Ocaqqulu hirslənəndə o da yerindən çığırardı: "Ey, ey, mənə sataşma!" Hətta bir kərə tamaşaçılar onun axsaqlığına güləndə səhnənin qabağına gəlib dedi:

– Camaat, mənim axsaqlığım barədə xahiş eləyirəm heç kəsə bir söz deməyin, sonra gedib arvadın qulağına çatar. Onun xəbəri yoxdur.

Mürşüd, ümumiyyətlə, tamaşaqabağı, yaxud tamaşa zamanı salondakılara müraciət etməyi çox sevirdi. Bir gün hansı əsəri qoymaq istəyirdiksə, həvəskar çatmırdı. Mürşüd tamaşadan qabaq çıxış eləyib dedi:

– Camaat! Bizim dram cəmiyyətimiz üçün həvəskar aktyorlar lazımdır. Kim istəyir gəlib yazıla bilər. Cəmiyyətimizin darvazası hamının üzünə açıqdır.

Bu çıxışdan sonra xalq arasında bizim kollektivimizə "darvaza-dram cəmiyyəti" adı verdilər. Tamaşalarımız həqiqətən açıq darvazaya oxşayırdı. Kim nə vaxt istədi səhnəyə çıxırdı, nə istədi deyirdi.

Mən süflyor idim, hafizəm yaxşı olduğu üçün bütün oynadığımız əsərləri əzbər bilirdim. Kollektivdə əsas rolu də mən oynayırdım. Çünki heç kəs rolunu bilmirdi. Mən budkadan söz verməsəydim, heç kəs bir kəlmə danışa bilməzdi.

Yaxınlıqda bir kənd var. İndi bu saat o kəndin gözəl bir mədəniyyət sarayı var və bu sarayın mahnı rəqs ansamblı keçən il respublika müsabiqəsində birinciliyi qazandı. O zaman isə bu kənddə teatr tamaşası nə deyən sözdür – bilmirdilər. Bir gün mədəniyyət şöbəsindən Mürşüdü çağırıb tapşırdılar ki, gərək o kənddə tamaşa verək. Biz

məsləhətləşib "Qaçaq Kərəm" tamaşasını verməyi qərara aldıq. Ancaq bir məsələ açıq qaldı. Harda oynayaq? Kənddə tamaşa vermək üçün bina yox idi. Açıq havada oynamalı deyildi, soyuq idi. Odur ki, kəndin ayağında olan böyük bir tövləni düzəldib teatr "salonuna" çevirməli olduq. O gün səhər tezdən bir böyük maşanı tutub dekorasiyalarla bərabər kəndə varid olduq. Tövlə boş idi. Qapı-pəncərələri də sınıqdı. İlk növbədə buranı təmizlədik. Şəhərdən bizimlə gəlmiş dülgər qapıları, pəncərələri qaydasına saldı. Sonra bir tərəfi bir az qaldırıb səhnəyə bənzər bir şey düzəltdik. Kənddən həsir, keçə və palaz yığıb yerə saldıq və hamıya elan elədik ki, kim stulsuz gəlsə, içəri buraxılmayacaq.

Mən "biz belə elədik, elə elədik" – deyə yazanda bir az həqiqəti təhrif eləmiş oluram. Çünki işin doxsan doqquz faizini Mürşüd görürdü. Onda nə qədər enerji vardı. Yorulmaq bilmirdi. Kəndin başından vurub ayağından çıxırdı. Elə bu da bizim səhnədə müvəffəqiyyətsizliyimizə səbəb oldu. Elə ki, pərdə açıldı, həyatlarında birinci dəfə teatr görən kəndlilər Qaçaq Kərəm rolunda Mürşüdü tanıdılar və bu da onların nədənsə xoşlarına gəlmədi. Aralarında nə barədə isə danışmağa başladılar. Salonda bir söz-söhbət vardı ki, səhnədəki replikaları heç kəs eşitmirdi. Mən suflyorluq edirdim, səhnədə nə danışıldığını eşidə bilmirdim. Tamaşaçılar isə yəqin heç bir şey başa düşə bilmirdilər. Nəhayət, Mürşüd hirsləndi. Səhnənin qabağına gəlib çığırdı.

– Ay camaat, ya siz danışın, ya biz! Belə olmaz axı!

Kar eləmədi, səs-küyün qabağı bir az alındısa da, gurultu davam eləyirdi. Artistlərin sözünə qulaq asan yox idi. Mürşüd ikinci dəfə səhnə qabağına gəldi:

– Camaat! – deyə tragik səslə çığırdı, – bir az səbirli olun, görün ikinci pərdədə nə qədər adam öldürəcəyəm.

Kim isə yerdən çığırdı:

– Elə isə başlayın ikinci pərdəni!

Bir ayrısı dedi:

– Bəs gündüz bizdən palaz aparanda sənin bığın yox idi.

– Adə, görmürsən tük yapışdırıb?

– Ondan adam öldürən olar?

Şuluqluq düşürdü ki, pərdəni çəkdik. Tənəffüs vermədən ikinci pərdəni başladıq. İki-üç dəqiqə salonda sakitlik oldu, sonra təzədən gurultu başlandı. Yəqin onlar həqiqətən adam öldürüləcəyini gözləyirdilər. O da

olmurdu. Mürşüd, Abbas Mirzə Şərifzadəni təqlid edərək bir monoloq deyirdi ki, səhnəyə bir oğlan çıxdı. Qaçaq Kərəmin sözünü kəsərək dedi:

– Əmi, çöldə səni kənd Sovetinin sədri çağırır.

Mürşüd çaşdı, bilmədi nə cavab versin. Mən budkadan çığırdım.

– Pərdəni salın!

Pərdəni saldılar. Mürşüd çıxdı, bir azdan dedilər məni də çağırırlar.

Getdim, gördüm həyətdə Mürşüd kiminləsə bərk mübahisə eləyir. Yəqin bu kişi kənd Sovetinin sədri idi. Çox bərkdən və rəsmi danışırdı. Qəti olaraq deyirdi ki, biz bu kənddə, camaatın gözü qabağında adam öldürməyə qoymarıq. Mürşüd and içib, aman eləyirdi ki, yalandandır. Sovet sədri razı olmurdu. Deyirdi ki, yalan-doğru, fərqi yoxdur, adam öldürməyə biz qol çəkə bilmərik, bu saat gərək ayrı teatr çıxardasınız, sənin oynadığın axsaq qaçaqdan bizim xoşumuz gəlmir...

Sovet sədrindən xahiş elədik ki, camaatı sakit eləsin, biz ayrı tamaşa göstərərik. O gedəndən sonra qısa bir müşavirə çağırdıq. Neyləyək? Vaxtilə "Bizim kirayənişin özünü öldürdü" adında bir pərdəli komediya oynamışdıq. Yalnız bir dəfə oynamışdıq, onu təkrar etməyi qərara aldıq. Bu əsərin süjeti təxminən belədir: bir kirayənişin ev sahibinə borcludur, pulu olmadığı üçün borcunu qaytara bilmir. Ev sahibi onu çox incitdikdə yalandan özünü öldürür. Ev sahibi "meyitin" üstündə ağlayıb borclu olduğu bütün pulları ona bağışlayır, bu zaman kirayənişin "dirilib" qalxır. Əsərin mətnini özümüzlə götürməmişdik, rollar yaddan çıxmışdı. Mənim də bir kəlmə yadımda yox idi. Belə qət elədik ki, mən özümdən tekst uydurum və bu süjet əsasında suflyor budkasından deyim, onlar da mənim dediklərimi səhnədə eləsinlər, görək nə çıxır. Böyük risk idi. Camaat bizi dəyənəklə kənddən qova bilərdi. Belə məlum olurdu ki, ilk dəfə teatr tamaşası gördüklərinə baxmayaraq, yaxşını-pisi seçməyi bacarırdılar.

Səhnədəki ağac-uğacı yığışdırıb bir ev düzəltdik. Uşaqlar tələsik qrim elədilər. Mürşüd kirayənişini oynayırdı. Mənə tapşırdı ki, tekstdən çox gülməli hərəkətə fikir verim.

Tamaşa başlandı. Mən nə deyirdim onlar eləyirdilər. Bircə dəqiqəyə qədər əvvəlki səs-küy salondan eşidildi. Sonra səhnədəki hadisələrlə maraqlanmağa başladılar. Suflyor budkasından onlara mən nə deyirdim, nə göstəriş verirdim, indi yadımda deyil. Bircə orasını xatırlayıram ki, salonda arası kəsilməyən qəhqəhə vardı. Mən süjeti təxminən belə

qurmuşdum, kirayənişin ev sahibindən qaçır. O da onu axtarır, rastlaşanda isə əlbəyaxa vuruşurdular. İş o dərəcəyə çatmışdı ki, mən suflyor budkasından ev sahibinə deyirdim, səhnədən çıx, o mənə işarə eləyirdi ki, hələ vaxtı deyil, qoy bir az da vuruşaq.

Qərəz ki müvəffəqiyyət çox böyük oldu. Pərdə düşənə qədər qəh-qəhənin arası kəsilmədi. Bizi kənd camaatı hörmətlə yola saldı. Dönə-dönə tapşırdılar ki, bir də gələk, bu gülməli teatrı bir də göstərək.

Ancaq bu tamaşanı təkrar eləmək mümkün olmadı. Şəhərdə Mürşüd ha mənə yalvardı ki, dediyim sözləri və göstərdiyim hərəkətləri qeyd eləyim, o tamaşanı bir də şəhərdə göstərək, yadıma sala bilmədim.

Bir az sonra Mürşüd ayrı rayona işə təyin olundu. Bu rayondan tamam köçüb getdi. Bizim cəmiyyətimizin də darvazası bağlandı.

1963

İLK TAMAŞA

Gülüş qrim eləyirdi. Həyəcandan elə qızarmışdı ki, üzünü pudra ilə ağartmağa çalışırdı. Ona qədər bu rolda çıxış eləyən bütün aktrisalar qrim zamanı çalışırdılar ki, yanaqlarını qızartsınlar, gözlərinin ətrafındakı qırışları ört-basdır eləsinlər, səhnədə rola uyğun olaraq gənc görünsünlər. Amma Gülüş onsuz da gənc idi, çox gənc idi və bu rol onun ilk böyük rolu idi. O çalışırdı ki, qrim vasitəsilə özünü bir az yaşlı eləsin, səhnədə çox uşaq görünməsin.

İki ay idi məşq eləyirdilər. Gülüş rola da, partnorlara da adət eləmişdi, baxış tamaşası kimi ən çətin imtahandan çıxmışdı, nazirliyin nümayəndələri, komissiya üzvləri onun oyununun xoşlamışdılar. Hətta onların içərisində xoş söz deməyə xəsislik edən, başı daz bir tənqidçi belə, başqalarının haqqında çox acı sözlər dediyi halda Gülüşü tərifləmişdi. Aktrisalar deyirdilər ki, bu tarixi bir hadisədir, o tənqidçinin ki, səni tərifləməyə dili tərpənib, deməli həqiqətən yaxşı oynayırsan.

Bütün bunlara baxmayaraq, Gülüş həyəcan keçirirdi. Bu gün o, tamaşa salonunu dolduran min nəfər tamaşaçı ilə üz-üzə duracaqdı, onların nəfəsini hiss edəcəkdi. Gülüş düşünürdü ki, uca tramplindən ilk dəf dənizə atlanan üzgüçüdə də yəqin bu cür hisslər olur. Yəqin o da bu cür titrəyir, qorxur və əvvəlcədən bilmir ki, nə qədər dərinliyə cumacaq və sonra bu dərinlikdən necə üzüb çıxacaqdır. Onun əlləri əsirdi, dizlərində qəribə bir gücsüzlük əmələ gəlmişdi, elə bil təzəcə xəstəlikdən qalxmışdı.

O, yavaş-yavaş özünü sakit eləməyə çalışırdı ki, bu gün tamaşada iştirak etməyən aktrisalardan biri gəlib qulağına pıçıldadı:

– Murad teatrdadır. Birinci cərgədə oturub. Özüm gördüm.

Bunu deyib aktrisa getdi, heç hiss eləmədi ki, bu xəbərlə öz rəfiqəsini bir az da sarsıtdı. Stanislavski yaxşı deyib ki, aktyor obraz vəziyyətinə daxil olanda xarici aləmlə əlaqəsi tamamilə kəsilməlidir.

Muradın teatrda olması xəbəri Gülüşü teatrdan, qrim otağından, oynayacağı roldan tamam ayırdı, başqa bir aləmə saldı; Murad onun əri idi. Cavan, ucaboy, enlikürək, göyçək bir oğlan mühəndis, idarədə hörməti, yoldaşlar, dostlar arasında hörməti... Bir-birlərini sevirdilər. İkisinə də elə gəlirdi ki, biri olmadan o biri yaşaya bilməz. İndi budur iki ildir ayrılıblar. İki il bundan qabaq Gülüş teatra girəndə Murad ondan üz çevirdi. Niyə? Bəlkə Murad teatrı sevmirdi, incəsənəti

anlamırdı? Yox, ikisi də teatr aşiqi idi. Şəhərdə o teatr yox idi ki, hər tamaşasına baxmasınlar, özü də mütləq ilk gecə. Operaya, filarmoniyaya gələn bütün qastrolları dinləyirdilər.

Bir gün Gülüş səhnəyə getmək istədiyini söylədikdə Murad bu xəbəri istehza ilə qarşıladı. Ədəbiyyat, kino, teatr "dəlilərindən" söhbət saldı və dedi ki, şəhərdə istedadı olmaya-olmaya incəsənəti şöhrət tramplini eləmək istəyənlər onsuz da çoxdur. Sən də onlara qoşulma. Biz çox mədəni tamaşaçılarıq. Elə bu rolumuzu axıra kimi oynayaq.

Gülüş isə özündə daxili bir qüvvə hiss eləyirdi, bu da təsadüfi deyildi: ali məktəbdə oxuyanda özfəaliyyət dərnəklərində iştirak eləmişdi, həmin dərnəklərin rəhbərliyini edən rejissor əsasən dram teatrında işləyirdi. Hər rast gələndə ona deyirdi ki, gəl teatra, sənin yerin oradır, istedadın var. Murad isə buna inanmırdı və hər dəfə bu barədə söhbət düşəndə zarafatlarla, cürbəcür lətifələrlə onu bu fikirdən daşındırmağa çalışırdı. Ancaq səhnə elə maqnitdir ki, bir adamın daxilində istedadın dəmir qüvvəsi deyil, bu dəmirin tozu belə olsa, onu özünə tərəf çəkir. Gülüşü bu maqnit böyük bir qüvvə ilə özünə bağlamışdı. Təsadüfən yer də boşaldı, rejissor onu tapıb teatra apardı, müdirlə danışdılar və həmin saat əmri verildi.

Axşam Murad işdən qayıdanda əmrnamənin surətini görüb pərt oldu, kağızı əlində o yan-bu yana çevirib bir tərəfə atdı və hirslə dedi:

– Sən heç yerə getməyəcəksən!

– Niyə?

Murad cavab vermədi. Əsəbi və pərt halda pəncərəyə çəkilib dayandı. Gülüş ona yaxınlaşdı, qucaqlayıb üzündən öpdü, saçlarını sığalladı və yalvarıcı səslə teatrın, səhnənin gözəlliyindən, yüksəkliyindən danışmağa başladı. Murad yenə heç bir söz demədi. Hər zaman Gülüşün nəvazişləri altında əriyib muma döndüyü halda, bu gün daş kimi idi, – soyuq və bərk. Nəhayət, Gülüş etiraz dolu səslə soruşdu:

– Axı, niyə razı deyilsən, səbəbi nədir?

Bu zaman Murad sərt-sərt dönüb Gülüşə baxdı və yavaşdan, pıçıltıya bənzər bir səslə dedi:

– Mən şərikli arvad saxlayanlardan deyiləm!

– Nə? Şərikli arvad? – deyə Gülüş çığırdı. – Deməli sən belə düşünürsən ki, Mən səhnəyə yox, əxlaqsızlığa gedirəm? Deməli sən teatra bu cür baxırsan?! Tamaşalardan zövq alıb, əl çalıb, ürəyində fikirləşirsən ki, bu səhnədəkilərin hamısı namusunu itirmiş adamlardır?!

Murad Gülüşün bu qəzəbinə son dərəcə təəccüb edərək nə isə demək istədi, amma Gülüş onu danışmağa qoymadı:

– Bəs "arvad saxlamaq" nə sözdür sən işlətdin?

Deməli sən məni saxlayırsan? Bəs yüksək ailə prinsipi, bəs qarşılıqlı məhəbbət? Bunlar hamısı boş sözlərdir? Mən indi başa düşdüm ki, səndə heç bir prinsip yoxdur, üzdə mədəni, ürəkdə feodalsan.

Gülüş tir-tir əsirdi, gözünə dolan yaş Muradı görməyinə mane olurdu, pəncərə qabağındakı qaraltıya müraciət edərək sözləri onun başından aşağı yağış kimi yağdırırdı:

– Elə bilirsən ki, mən sənət yox, əyləncə dalınca gedirəm? Əgər mənim məhəbbətimə, sənə olan saf, sadiq məhəbbətimə şübhə ilə baxırsansa, deməli, öz məhəbbətin ürəkdən deyil, yalandır. Yalnız vitrina üçündür. Deməli, sən həyatda aktyorluq eləyirsən, özün isə aktyorluğa alçaq gözlə baxırsan. Bu cür ailə, bu cür məhəbbət, bu cür aktyorluq mənə lazım deyil, mən həqiqi sənət dalınca gedirəm!

Gülüş bu sözləri deyib evdən çıxdı. İndi iki ilə yaxındır ki, Muradla bir dəfə olsun görüşməyib. Rəsmi ayrılmayıblar, ancaq yaşayıb-yaşamamaq üçün rəsmiyyətin heç bir mənası yoxdur. O, anası ilə yaşayır. Anası azsavadlı arvaddır, hələ indi də çadranı atmayıb, teatra, kinoya gedən deyil, yalnız televizor çıxandan sonra tamaşa nə demək olduğunu başa düşüb. Bütün bunlara baxmayaraq, Gülüşün səhnəyə getməsinə və bunun üstündə Muraddan ayrılmasına etiraz eləmədi, yalnız dedi ki:

– Sənə mən inanıram, Gülüş, ağılsız iş görməzsən.

Bütün bu səhnələr onun gözünün qabağından bir anda gəlib keçdi. Ancaq iradəsinin bütün qüvvəsini toplayaraq əsəbini, həyəcanını yatırdı, özünü yenə əvvəlki obraz vəziyyətinə saldı. Elə bu zaman rejissor köməkçisi radio ilə dedi:

– Gülüş xanım, hazır olun, indi sizin çıxışınızdır.

O durub tələsik getdi.

* * *

Gülüş səhnəyə çıxdıqda əvvəlcə Murad onu tanımadı. Yerişi, səsi, hərəkətləri Gülüşə, onun tanıdığı, bildiyi Gülüşə tamamilə yabançı idi. Gülüş – Gülüşlükdən çıxmışdı. Ayrı bir qadın idi, deyən, gülən, sevən gənc bir qadın, dramaturqun yaratdığı obraz.

Murad onu ilk dəfə idi ki, səhnədə görürdü, bu iki ildə onun oynadığı tamaşaların heç birinə gəlməmişdi, sevdiyi bir adamın müvəf-

fəqiyyətsizliyinə, acizliyinə baxmaq istəmirdi. Əgər onun oynadığı rol haqqında salonda oturanlardan ağız büzən, pis fikir söyləyən olsaydı, Murad buna necə davam gətirə biləcəyini təsəvvür eləmirdi.

Bu gün isə Gülüş çox məsul bir rolda çıxış eləyirdi. Murad davam gətirə bilmədi, idarələrində təzə işə girmiş və onun Gülüşlə münasibətindən xəbərsiz bir mühəndislə bilet alıb gəldi.

Teatra girəndə, paltonu çıxaranda, o, hələ foyedəki bərli-bəzəkli tamaşaçıların, işıqların, çilçıraqların təsiri altında sevinirdi. Neçə vaxt idi ki, bu teatra ayaq basmamışdı, ona elə gəlirdi ki, burda hamı inciyib. "Niyə gəlmirdin, hardaydın?" – deyə ürəklərində onu məzəmmətləyirlər. Ancaq salonda öz yerində oturduqdan və səhnə qabağındakı böyük qırmızı məxmər pərdəni gördükdən sonra Gülüş, onun oynayacağı rol yadına düşdü və ürəyi döyünməyə başladı. Qorxu qarışıq bir həyəcan onu elə sardı ki, ətrafdakıları girmədi, hiss eləmədi. Yoldaşı nə isə danışırdı. Murad onun sözlərini eşitmirdi. Orkestrdən musiqi səsi gəldikdə o, əli ilə yavaşdan ürəyini tutdu ki, döyüntüsünü yanındakılar eşitməsinlər.

Nəhayət, pərdə açıldıqda, Gülüş səhnəyə çıxdıqda Murad əvvəlcə onu tanımadı, heç fikrinə gətirə bilməzdi ki, onun arvadında bu cür dəyişmək qabiliyyəti ola bilər. Səhnədən-səhnəyə hiss elədi ki, bu yalnız dəyişmək qabiliyyəti deyil, sənətkarlıqdır. Bəli, onun oyunu heç kəsin oyununa bənzəmirdi, təzə idi, tamamilə orijinal və təzə bir oyun. Onda heç bir təqlid nişanəsi yox idi. Nə böyük lirika, nə dərin dramatizm! O çıxdıqda səhnədən bir məlahət dalğası qalxıb salona yayılırdı və ilk növbədə Muradı təsiri altına alırdı. Yoldaşı tez-tez "Pəh, nə aktrisadır, nə gözəl oynayır, nə yaxşı oynayır!" – deyə qulağının dibini sökürdü, o isə heç bir söz demirdi, valeh olub qalmışdı.

Hər pərdədən sonra Gülüşə əl çalırdılar. Ancaq o, səhnəyə çıxmırdı, nə qədər alqışlasalar da, çıxmırdı. Murad düşündü ki, yəqin mənə görə çıxmır; hiss eləyirdi ki, Gülüş onun salonda olduğunu bilir.

Tənəffüslərdə Murad bir yerdə dayana bilmir, foyeləri gəzirdi. Evlənəndən sonra Gülüşün xahişi ilə papiros çəkməyi tərgitmişdi, ancaq ayrılan gündən çəkməyə başlamışdı. Bu gecə isə papirosu papirosa calayırdı.

Nəhayət, son pərdədə Gülüş rolunun ən faciəli səhnəsini elə apardı ki, Muradın gözləri yaşla doldu. Utandığından üzünü yana çevirmirdi, silmirdi ki, birdən onun ağladığını görərlər. Gözləri yaş

pərdəsi ilə örtülü olaraq, böht içində qalmışdı. Bir də hiss elədi ki, yoldaşı onu dümsükləyir:

– Nə oturmusan? Dur, camaat dağılır.

Yalnız bu zaman Murad tamaşanın qurtardığını hiss elədi. Salondan çıxdılar. Palto üçün növbəyə durdular. Ancaq Murad bunların fərqinə varmadı. O, hələ gipnoz altında idi. Nəhayət, palto saxlayan arvad ondan nömrə istədikdə Murad başını silkələdi:

– Yox, hələ yox... – deyə ordan ayrıldı və ara qapıdan keçib birbaş səhnə arxasına gəldi. Gülüşün qrim otağının ona göstərdilər. Murad qapını açdı və içəri girməyə cürət etməyərək dayandı.

Artıq paltarını dəyişmiş və qrimini silmiş Gülüş onu görüb yavaş-yavaş ayağa qalxdı. Onlar göz-gözə dayandılar. Bir söz demədən, bir hərəkət göstərmədən uzun zaman bir-birinə baxıb dayandılar. Sonra Murad titrək, utancaq bir səslə dedi:

– Səni təbrik eləyirəm, Gülüş!

Gülüş pıçıldadı:

– İçəri gəl!

Murad otağa girəndən sonra gülümsünərək dedi:

– İki ildə birinci dəfə sənin səsini eşidirəm.

Murad ilk dəfə eşqini açan gənclər kimi qorxa-qorxa Gülüşün əlindən tutdu və yenə də o cür titrək səslə dedi:

– Mən hər gün səni görürdüm. Kölgə kimi həmişə arxanda idim.

– Bəs heç bir tamaşaya gəlmirdin? – deyə Gülüş onu divanda oturtdu.

– Qorxurdum, Gülüş! Sənin məğlub olacağından qorxurdum. O gün, ayrıldığımız gün sənə dediyim o kobud söz də yalnız bu qorxudan idi, istəyirdim bu cür sözlə səndə səhnəyə nifrət əmələ gətirim ki, müvəffəqiyyətsizliyinin şahidi olmayım. Sən isə ayrı cür başa düşdün.

– Bəs indi necə?

– İndi... yanıldığım üçün sevinirəm, – deyə onun iki əlini dodaqlarına yaxınlaşdırdı. – İndi mən səni ikiqat sevirəm, həm Gülüş, həm də aktrisa kimi. Sənin necə olduğunu bilmirəm. Bəlkə artıq gecdir, bəlkə mənim məhəbbətimi artıq səhnəyə bağışlamısan.

– Yox, – deyə Gülüş Muradın yanında oturdu, başını həsrətlə onun çiyninə qoydu. – Məhəbbəti bağışlamaq mümkün deyil. Səhnə insanı qurutmur, əksinə, daha həssas, daha kövrək eləyir. Mən səni hər gün

görmürdümsə də, hiss eləyirdim. Gecələr, tamaşadan sonra evə tək getməyə qorxmurdum, çünki bilirdim ki sən məni ötürürsən.

-Bəs nə üçün bir dəfə də olsa dönüb arxana baxmırdın?

– Yenə o sözləri təkrar edəcəyindən qorxurdum.

– O günü, o ayrıldığımız mənhus günü unudaq, Gülüş, yaxşımı? Mənasız bir yuxu kimi ikimizin də yadımızdan çıxsın.

Gülüş başını qaldırdı, yenə uzun zaman göz-gözə dayandılar. Sonra ikisi də həsrətlə gülümsündü.

Səhnə onları küsdürmüşdü, səhnə də barışdırdı.

HƏR ÜRƏKDƏ SEVGİ VAR

Səlimin gözü saata sataşan kimi dik yerindən qalxdı, açıq pəncərədən əyilib küçəyə baxdı. Bənövşəni görməyib həyəcanla otaqda gəzinməyə başladı. Saat on ikidə gedib, indi saat üçdür. Hardadır, niyə gəlmədi? Gedəndə dedi ki, yarım saata gəlirəm. Bəs nə oldu. Üç saatdan artıqdır, bəlkə bir bədbəxtlik üz verib, bəlkə maşın altında qalıb? Onun gözləri qarşısında elə dəhşətli mənzərə canlandı ki, düşüncəsini qırdı, tələsik geyinməyə başladı. O qədər tələsirdi ki, nə geyindiyini, necə geyindiyini bilmirdi. Qapıdan çıxanda gördüm ki, başı açıqdır. Qayıdıb şapkasını götürdü. Paltosunu pillələrdən düşə-düşə geydi. Küçəyə çıxanda birdən dayandı. Hansı tərəfə getsin, sağamı, solamı burulsun. Ümumiyyətlə hara gedəcəyini, Bənövşəni harda axtaracağını bilmirdi. Əvvəlcə tindəki mağazaya getdi. Mağaza adamla dolu idi. Səlim ha göz gəzdirdisə, Bənövşəni o adamların arasında görmədi. Mağazadan çıxıb yaxındakı çörək dükanına girdi. Hərçənd Bənövşə çörək almağa getməmişdi, şəkər alıb yarım saata qayıdacaqdı, ancaq bəlkə təzə çörək almaq istəyir, – deyə yaxındakı çörək dükanına girdi. Çörək dükanında adam az idi və Bənövşə də burada yox idi. Odur ki, Səlim yubanmayıb küçəyə çıxdı. Dayanıb, düşünməyə başladı. Elə bu vaxt ətrafına çoxlu adam toplanmış bir təcili yardım maşını onun nəzərini cəlb elədi. Səlimin ürəyi titrədi, qıçları əsdi, əvvəlcə ha çalışdısa, yerindən tərpənə bilmədi. Sonra bir təhər özünü ələ alıb, sürətlə dəstəyə yaxınlaşdı. Elə bu vaxt təcili yardım maşını yola düşüb getdi. Səlim titrək səslə ətrafdakı adamlardan soruşdu:

– Nə olmuşdu, kim idi?

Paltosuna sığmayan, kök, daz bir kişi ağızucu cavab verdi:

– Bir arvad idi, ürəyi xarab olmuşdu, apardılar. Səlim "nə cür arvad idi, necə geyinmişdi?" – deyə bir iki nəfərdən soruşdusa, heç kəsdən müəyyən cavab ala bilmədi. Öz-özlüyündə yəqin elədi ki, bu yıxılan Bənövşədir. Odur ki, rast gələn bir maşın saxladı, küçənin axırında gözdən itməyə başlayan təcili yardım maşınını göstərib dedi:

– O karetanın dalınca sür.

Maşın yerindən tərpənib, get-gedə sürətini artırdı. Şofer cavan bir oğlan, artıq qabaqda aydın görünən təcili yardım karetasından gözünü ayırmayaraq, gülə-gülə dedi:

– Elə bil Amerika kinosudur. O qaçır, biz qovuruq. Sonra da üzünü Səlimə tərəf çevirərək ciddi soruşdu:

– Əmi, o təcili yardım maşınında xəstəniz var?

– Var, – deyə, Səlim bir az tərəddüdlə cavab verdi:

– Kimdir, qızınızdır?

– Yox arvadımdır.

– Bəli, belə-belə işlər... – deyə şofer mənalı-mənalı başını tərpətdi. Səlim bu sözün nə üçün deyildiyini başa düşmədiyi üçün şoferin üzünə təəccüblə baxdı. Şofer bu baxışın mənasını anlayıb tez cavab verdi:

– Ona görə deyirəm ki, əmi, mən hələ evli deyiləm, nişanlıyam. Nişanlımı da çox istəyirəm. (Bir az düşünüb pıçıltı ilə əlavə elədi). Çox gözəldir. Deməli, evlənəndən sonra başımda bu cür hadisələr çox olacaq.

Səlim:

– Qorxma, bəlkə olmadı, – deyə ona təsəlli vermək istədi. Şofer onun sözünü kəsdi:

– Qoy olsun. Onun yolunda hər dərdə dözərəm. (Sonra öz-özünə əlavə elədi). Bircə toyu eləsəm...

Şofer qarşıdan gələn nəhəng yük maşınının yanından ehtiyatla keçdikdən sonra təkrar Səlimə müraciət elədi:

– Arvadına nə olub, əmi?

Çox söhbətcil olan Səlimin bu səfər heç danışmağa meyli yox idi. Ürəyi elə bil sinəsində yox, qabaqdakı təcili yardım maşınının içində döyünürdü. Ona görə də "heç özüm də bilmirəm" – deyib məsələnin üstündən ötmək istədi. Ancaq olmadı. Şofer min cür sual verdi, axırda Səlim başına gələni ona danışmağa məcbur oldu. Şofer bu söhbəti eşidib maşının sürətini bir az da artırdı. Təcili yardım karetası ilə taksi bir vaxta klinikaya çatdılar. Səlim cəld yerə atlandı, elə bu zaman xalatlı bir həkim və bir tibb bacısı da karetadan düşdülər. İki nəfər əllərində xərək karetaya yaxınlaşdılar. Dal qapıları açıb, yaşıl paltolu, sarısaç bir qadını xərəyə qoydular. Səlim təəccübündən donub qaldı. Şofer onun qolunu dümsüklədi:

– A kişi, get arvada təskinlik ver, qorxma bir şey olmaz, hələ cavandır.

Səlim şoferə tərəf dönüb yavaşdan dedi:

– Bu mənim arvadım deyil.

– Bəs sənin arvadın hanı? – deyə şofer təəccüblə soruşdu.

Səlim çiynini çəkib susdu. Bu zaman onun nəzərini üstündə "Təcili yardım klinikası" yazılmış bir bina cəlb etdi. Səlim şoferdən, onun müxtəlif suallarından yaxa qurtarmaq üçün pulunu verib tələsik klinikaya tərəf getdi. Bu zaman dəhşətli bir qışqırtı eşidib, Səlim ayaq saxladı. 12-13 yaşlarında bir qız uşağı, ana deyib, özünü xərəkdə yatan sarısaç qadının üstünə atmışdı, ağlayırdı. Bayaqdan ölü kimi uzanmış qadın qızının səsindən ayıldı, ya qüvvətə gəldi, nədirsə, başını qaldırdı, ana-bala qucaqlaşdılar. Sonra qadın xərəyi aparanlara tərəf dönüb dedi:

– Saxlayın, sizə zəhmət olmasın, özüm ayağımla gedərəm, qızım qolumdan tutar.

Arvadı yerə düşürdülər, Səlim onlara artıq baxmayıb, yoluna davam elədi, klinikanın iri qapılarından içəri girdi. İçəridə masanın arxasında ağ xalatlı bir oğlan oturmuşdu. Səlim bu oğlandan Bənövşənin bura gətirilmədiyini soruşdu: Oğlan dəftərə baxıb "Yox, elə adam bu gün bura gətirilməyib" – deyə cavab verdikdə, Səlim bir an nə edəcəyini bilmədi. Hara getsin, harda axtarsın.

Burda, yeni tikilmiş bu binanın balaca vestibülündə həyat qaynayırdı. Gənc şəfqət bacıları ora-bura qaçır və ətrafa dərman qoxusu saçırdılar. Bu qoxu Səlimin xatirəsində qəribə bir hiss əmələ gətirdi. Neçə illər bundan qabaq bunlar kimi oynaq, gənc bir qadın ağ xalatda, işdən evə qayıdardı. O zaman bax bu dərman qoxusu otağa, onların yeganə otaqlarına yayılırdı. Səlimə elə gəlirdi ki, bu qoxu ilə bərabər evdə günəş doğur. Bənövşənin gəlməyi ilə hər tərəf işıqlanıb. Bənövşə o vaxt cərrahın yanında işləyən tibb bacısı idi. Hər gün dörd-beş cərrahiyyə əməliyyatından sonra yorğun, əzgin, ancaq xoşbəxt, gülər evə dönərdi. Səlim onu öpmək istəyəndə deyərdi:

– Dayan, dayan, qoy əlimi yuyum, karbolkanın iyi sənə də çökər.

Səlim də hər zaman ona cavab verərdi:

– Bu karbolka qoxusu deyil, bənövşə qoxusudur.

Səlim bu xatirələrdən xoşlanıb gülümsündü. Ancaq ortada tək dayanıb, özbaşına güldüyünü görməsinlər deyə, üzünü yana çevirib küçəyə çıxdı.

Küçədə böyük şəhərin nəbzi döyünürdü. Maşınlar, avtobuslar, trolleybuslar ora-bura qaçır və bir dəqiqə bir yerdə rahat durmurdular. Bu səkidən o səkiyə keçmək üçün adamlar növbəyə dayanmışdılar. Səlim də bu adamların sırasında gözləməyə başladı. Ətrafda yağış havası

vardı. Buludlar elə dolmuşdular ki, elə bu saat ağlamağa hazır idilər. Uzaqdan Semaşko xəstəxanasının korpusları görünürdü. Səlim səkini keçib trolleybus gözləməyə başladı. Burdan Semaşko lap aydın görünürdü. Səlimin burda yatdığı günlər elə bil lap dünən idi. Müharibədən təzə qayıtmışdı. Ayağındakı güllə yarası onu narahat etdiyi üçün Səlimi burda yatmağa məcbur eləmişdilər. Hər gün Bənövşə onu görməyə gəlirdi. O gələn kimi həkimlərin, tibb bacılarının arasına pıçıltı düşürdü. Qulağı eşidə-eşidə deyirdilər ki, bu barıt qoxusu verən cəbhəçinin, bu qara əsgərin nə gözəl, nə cavan arvadı var. Səlim bu sözlərdən incimirdi. Əksinə, fərəhlənirdi. Bənövşə ilə onun arasında cəmi beş yaş fərq var idi. Amma həmişə, kənardan baxanlara elə gəlirdi ki, onların yaşlarında azı on-on beş il təfavüt var.

Səlim bu düşüncələr içərisində ikən ona lazım olan trolleybus gəldi. Səlim mindi. Oturmaq üçün yer axtarmağa ehtiyac qalmadı. Bir uşaq "baba, oturun" – Səlim oturdu və öz-özünə gülümsündü: "Baba" ona hələ heç kəs baba deməmişdi. Düzdür, əgər oğlu sağ olsaydı, yəqin indi artıq çoxdan onu baba eləmişdi. Ancaq bütün qocaların arzuladığı bu gözəl adı o daşıya bilmədi. Onun qoçaq, sevimli, ağıllı oğlu xasiyyətdə onun özünə, sifəti isə Bənövşəyə bənzəyən yeganə oğlu neçə illər bundan qabaq naməlum bir xəstəlikdən şam kimi əriyib söndü. Bu hadisə, onların ürəklərini sarsıdan bu qəmgin ölüm, hər ikisini tez bir zamanda qocaltdı. Hər zaman Bənövşənin dodaqlarını bəzəyən xoş təbəssüm, oğlu ilə bərabər öldü.

Səlimin başında əmələ gəlmiş bu xatirə axınını bir sarsıntı qırdı. Trolleybus birdən-birə dayandı. Adamlar bir-birinin üstünə yıxıldılar. "Nə var, nə olub?" – deyə ətrafındakı adamlardan soruşdu. Heç kəsdən cavab çıxmadı. Ancaq Səlim bu qədər əsəbi olduğu üçün öz-özünü danlamağa başladı. "Axı sən nədən qorxursan, ay qoca" – deyə öz-özünə müraciət elədi. Bura şəhərin lap kənarıdır. Bənövşənin bu tərəflərdə nə işi var? Sənin də Bənövşədən başqa heç kəsin yoxdur. Nə üçün belə qorxaqsan, hər şeydən ürkürsən, titrəyirsən, nə üçün?

Elə bu dialoq zamanı, əzilmiş maşını kənara çəkdilər. Yol açıldı. Trolleybus hadisə baş vermiş yerdən keçəndə Səlim gördü ki, əzilmiş maşının şoferi milisə nə barədə isə izahat verməyə çalışır. Milis nəfəri isə bloknotunda qeydlər edir. Səlim bunu görüb rahat nəfəs aldı. "Şükür, bədbəxt hadisə olmayıb" deyə düşündü. Maşın əzilib cəhənnəmə, insan əzilsə... Nə isə. Səlim qəmgin fikirləri davam etdirmək

istəmədi. Bənövşə haqqında düşünməyə başladı. Ancaq buna da imkan olmadı. Trolleybus onun evinin yaxınındakı duracaqda dayandı.

Səlim düşdü, tələsik addımlarla evlərinə sarı gedəndə küçə qapısının ağzında qonşu uşaqlarının dayandıqlarını gördü. Onu görən kimi uşaqlar: "Gəlir, gəlir – deyə evə tərəf qaçdılar. Səlimin yenə ürəyi, ayaqları titrəməyə başladı. Nə olub, niyə onu görən kimi qaçdılar – deyə düşündü. Qara fikirlər bir-birini qovaraq, onun başına dolmağa hazırlaşırdılar ki, uzaqdan cingiltili bir səs eşitdi. Qonşunun balaca qızı həyətdən yuxarı səslənirdi:

– Bənövşə xala, Səlim dayı gəlir.

Qara fikirlər geri qayıdıb yox oldular. Elə bil birdən-birə gün çıxdı, hava açıldı. O, ağır-ağır pilləkanları çıxdı, evə girdi.

Bayaqdan xatirəsində bütün həyatını canlandırmış və ona görə də Bənövşəni də cavanlaşdırmışdı. Ona elə gəlirdi ki, yenə də əvvəlki kimi onun qəşəng qəhqəhəsini eşidəcək, üzündə, dodaqlarında onun bu səsini hiss edəcəkdir. Ancaq belə olmadı. Səlim evə girəndə saçı ağarmış, qoca bir qadın gözlərini silərək ayağa qalxdı. Səlim təəccüblə soruşdu:

– Bənövşə ağlamısan?

Bənövşə titrək səslə dedi:

– Sən mənim ürəyimi tamam üzməmiş əl çəkməyəcəksən, Səlim. Hardasan?

– Səni axtarırdım.

– Mən itmişdim ki, axtarırdın?

– Bəs necə? On dəqiqəliyə gedib, üç saata gəlmədin. Mən də düşündüm babanın ağ yoluna... Semaşkoya qədər getmişəm.

Bənövşə güldü. Bu gülüşlə onun üzündə o qədər qırış əmələ gəldi ki, közdə bişmiş almaya oxşadı. O, Səlimə yaxınlaşıb ahəstə qucaqladı və üzünü onun pencəyinə söykəyib bir az dayandı. Sonra yavaşdan dedi:

– Sənə kostyum axtarırdım. O dükan mənim, bu dükan sənin. Birində rəngi yaxşı idi, ölçüsü düz gəlmədi. O birində ölçüsü yaxşı idi, rəngi xoşuma gəlmədi. Gəzə-gəzə bir də gördüm ki, üç saat keçib. Sən isə dəli olub düşmüsən küçələrə. Yadındadır? Bir gecə..

Səlim tez onun sözünü kəsib dedi:

– Yaxşı yadımdadır. Teatrdan gec gəlmişdin. Mən də xəstə yatırdım. Qızdırmalı-qızdırmalı...

Bənövşə onu danışmağa qoymadı.

– Dayan, Səlim, – deyə sözünü kəsdi. – Deməli sən məni yenə ondakı kimi sevirsən? Məni, bu bürüşmüş qoca arvadı?

Səlim onu qucaqlayıb, pambıq kimi ağ saçlarını sığalladı:

– Səni, bəli, səni. Yaddan çıxartma ki, mən də qocalmışam, qırışmışam. Ancaq bu qoca, zəif, büzük ürəyimdə əvvəlki sevgi olduğu kimi qalıb. Əvvəl sən gənc bir qız idin, mən səni gənc bir oğlan kimi sevirdim. İndi sən qoca qarısan, mən də qoca kişi. Mən indi səni bir qoca kimi sevirəm. Sevgi heç bir zaman ölmür, Bənövşə. Şəklini dəyişir, keyfiyyətini, mahiyyətini dəyişir, amma tamam məhv olmur. Əlbəttə, mən əsil sevgi haqqında danışıram. Yalan sevgi haqqında yox.

Səlim Bənövşədən gizlin dilinin altına bir validol qoyub, yemək masasının arxasına keçdi və mehriban nəzərlərlə Bənövşəni süzüb dedi:

– Yemək gətir. Səni axtara-axtara elə acmışam ki.

Bənövşə süfrəni düzəldərək gülə-gülə dedi:

– Dəlisən də.

dekabr, 1969

CAVANLAŞMAQ DƏRMANI

Ağaəmi kişi səhər gözlərini açan kimi arvadını çağırdı:

– Zərintac, Zərintac!

Zərintacdan səs çıxmadı. Ağaəmi kişi çox darhövsələ olduğu üçün yerindən qalxıb oturdu və bir az da bərkdən bağırdı:

– Zərintac, az, niyə cavab vermirsən?

Bir azdan Zərintac sakit addımlarla içəri girdi.

– A kişi nə var, niyə elə çığırırsan ki, ətini kəsmirlər ki?

– Tez dərmanımı gətir, – deyə Ağaəmi kişi ufuldadı. – Yenə böyrümün sancısı tutub.

Zərintac divarın dibindəki balaca stola yaxınlaşdı. Bu stolun üstü cürbəcür dərman şüşələri ilə və paketlərlə dolu idi. Zərintac bunlara diqqətlə baxıb soruşdu:

– Hansı dərmandır? O qədər yığmısan ki, çaş-baş salmışam.

– O böyük şüşədən bir xörək qaşığı, hirsimi yatırtmaq üçün, dalınca toz dərmanı, sancımı kəsməyə. Kağız torbanın üstündə qırmızı qələmlə yazmışam. "Sol böyrüm ağrıyanda, təcili".

Zərintac əvvəlcə dərmanlara mat-mat baxdı, sonra nəlinlərini sürüyərək su dalınca getdi. Xeyli keçəndən sonra bir stəkan su ilə qayıtdı. Dərmanları Ağaəmiyə verdi. Ağaəmi bu dərmanları şərbət içən kimi içib, ağzını marçıldatdı, sonra təkrar uzanıb gözlərini tavana zillədi. Bu dərmanlarda belə xasiyyət vardı ki, gərək içəndən sonra on beş dəqiqə tərpənməyəsən.

Zərintac qapını yavaşcadan örtüb getdi. Ağaəmi kişi əlini-ayağını tərpətməkdən qorxaraq, qup-quru quruyub, uzandı; oğlu yadına düşdü. Kim bilir indi hansı dənizdə üzür. Axırıncı məktubunda yazırdı ki, xarici səfərə çıxır, iki aydan sonra qayıdacaq. Ağaəminin oğlu kapitandır. Uzaq Şərqdə işləyir. Hər ay ata-anasına pul göndərir, hədiyyələr göndərir. Ancaq onlar üçün bu puldan və hədiyyədənsə, onun üzünü tez-tez görmək daha əzizdir. Heyf ki, mümkün olmur. Uşağın bütün ömrü dənizlərdə, tufanlarda keçir. Hələ qız... Tibb institutunu bitirən kimi rayona göndərdilər. Oradaca ərə getdi. Əri də həkimdir. İki uşaqları da var. Tez-tez pul, sovqat göndərirlər. Ancaq onların da üzlərini hələm-hələm görmək olmur. İldə bir, bayramdan, bayrama... Maddi ehtiyacları yox idi. Uşaqların göndərdiklərindən başqa özləri də təqaüd alırdılar. Artıqlamasilə bəs eləyirdi. Ancaq

heyif ki, tək qalmışdılar: yalnız qarı-qoca... hey, dünya, dünya... Əziyyət çək, uşaq böyüt, axırda yenə tək qal?

Ağaəmi zarıya-zarıya geyindi, əl-üzünü yudu və ayağını sürüyərək, yemək stolunun arxasında oturdu. Onun sifəti qıcqırmış xəmirə oxşayırdı. Çoxdan dəllək görməyən saçı səliqəsiz qayrılmış parik kimi idi. Ağ, pırpız bığları aşağı sallanmışdı. Bürüşmüş gözlərinin altı tuluqlanmışdı.

Zərintac onun qabağına yemək qoydu. Ağaəmi laübalı baxışlarla yeməyi süzüb yana itələdi. Zərintac təəccüblə baxanda dodağının ucunda dedi:

– Ürəyim istəmir.

– Lap xasiyyətini dəyişib, – deyə Zərintac onu məzəmmətlədi. – Xırda uşaq anasına şıltaq eliyən kimi sən də mənə şıltaq eləyirsən. Tez ye, soyuyur.

Ağaəmi yenə yavaşdan dedi:

– Dərmanı gətir, bəlkə boğazımdan gedə.

– Hansı dərmandır?

– Su dərmanı. Üstündə "iştah" yazmışam.

İştah dərmanı içəndən sonra Ağaəmi xörəkdən bir-iki tikə aldı. Birdən boğazını tutub "zəhrimar yenə gecişməyə başladı" – deyə ətrafına baxdı. Zərintac otaqda yox idi. Yavaşdan səsləndi:

– Zərintac, Zərintac!

Zərintacdan yenə səs çıxmadı. Ağaəmi bu səfər lap bərkdən çığırdı:

– Zərintac, min dəfə demişəm məni tək qoyub getmə?

Zərintac donquldana-donquldana otağa gəldi.

– Səni mən bundan sonra beşikdə saxlayacağam, yeməyini də əmziklə verəcəyəm. İndi nə deyirsən?

– Boğazım gicişir, – deyə Ağaəmi zarıdı. – Qorxuram angina olam. O dərmanı gətir. Üstündə "boğaz" yazmışam.

Zərintac dərmanı verib yenə işinə getdi. Ağaəmi toz dərmanını dilinin üstünə töküb suyu içəndə birdən gözü divardakı təqvimə sataşdı və "27 dekabr" sözlərini oxudu; 27 dekabr, 1964-cü il. O, bir an düşündü, balaca gülümsündü, ətrafa baxıb yenə arvadını görmədikdə lap incə səslə mələyərək çağırdı:

– Zəriş, ay Zəriş!

Zərintac qapını açıb əsəbi halda dedi:

– Ağaəmi, sən daha ağ elədin. Bu qədər də dərman olar qarnına tökürsən?

Ağaəmi bir söz deməyib işarə ilə divardakı təqvimi ona göstərdi. Zərintac təqvimə baxıb təəccüblə çiyinlərini çəkdi. Ağaəmi güldü, yenə təqvimə işarə elədi. Zərintac eymədi: "Kişinin başına hava gəlib, nədir?" deyə, fikirləşdi. Bu zaman Ağaəmi qalxıb onun qolundan tutdu, təqvimə yaxınlaşdırdı və dedi:

– Qırx il bundan qabaq, 1924-cü il, dekabrın 27-də baş vermiş tarixi hadisə yadından çıxıb?

Qırx il bundan qabaq? Dekabrın 27-də?.. Zərintac fikirləşdi, yadına bir şey sala bilmədi. Ağaəmi əyildi, pırpız buğlarılə Zərintacın qulağını qıcıqlayaraq pıçıldadı: "İlk görüş". Elə bil uzaq keçmişin üzərini örtmüş duman yavaş-yavaş çəkilməyə başladı. Zərintacın gözü qarşısına qıvırcaq saçları kəlağayının altından çıxmış, girdə, ağ üz, çatmaqaş gənc bir qız gəldi. Tində dayanıbdır, ora-bura baxır... Səliqə ilə geyinmiş, ucaboy, qara buğdayı cavan bir oğlan bu qıza yaxınlaşdı, bir dəstə qızılgül verdi... Zərintacın dodaqları güldü. Bir qolu ilə Ağaəmini qucaqlayıb pıçıldadı:

– Aquş.

– Yadına düşdü? – deyə Ağaəmi muncuq kimi düzülmüş qoyma dişlərini göstərərək güldü. – O gün sən mənə birinci dəfə görüş təyin eləmişdin. Mən də gül almağa getdiyim üçün bir dəqiqə gecikmişdim. Bircə dəqiqə... Sən isə bu bir dəqiqənin üstündə məndən küsmüşdün. Sonra, mən səni güldürdüm, barışdıq. Yadına gəlir?

Elə bil Zərintacda bir anlıq qadınlıq hissi oyandı. Saçları yenə də qıvırcıq idi, ancaq qar kimi ağ idi. Elə bil bu saçlar yavaş-yavaş əvvəlki şəklinə düşdü. Sifəti də qırışlardan təmizləndi. Yenə də şirmayi kimi oldu. Naz ilə gülümsünüb, Ağaəminin üzünə baxdı, sonra gözlərini aşağı saldı. Ağaəmi də elə bil cavanlaşdı. Birdən qıvraqlaşıb ayağa sıçradı. Gülər gözlərini arvadının üzünə zilləyib dedi:

– Dur gedək.

– Hara gedək?

– Ora, o tinə... Qırx il bundan qabaq olduğu kimi... heç olmasa bir günlüyə də olsa qocalığımızı, təkliyimizi unudaq. O günləri bir də təkrar yaşayaq.

Zərintac gülərək onun qolundan tutdu.

– A kişi, bizə gülərlər, deyərlər dəli olublar.

– Qoy nə deyirlər desinlər. O vaxt, iyirmi dördüncü ildə açıq görüşməkdən qorxmadıq, indi qorxacayıq! Dur bu qırx ilin dumanını dağıdaq. Geriyə, gəncliyimizə bir sıçrayış edək. Dur!

– Teatr çıxardaq?

– Teatr niyə? Həyat, əsil həyat... Səni mən asan tapmamışam. Yadındadırmı, bir oğlan var idi, səni istəyirdi, yadına gəlirmi?

Zərintac gözlərini süzüb dedi:

– Yadımdadır. Baloğlan. Elçi göndərmişdi. Atam vermədi ki, mənim xuliqana getməli qızım yoxdur.

Ağaəmi qürurla dedi:

– Amma mən istəyən kimi razı oldu.

– Baxtın gətirdi. Oğlan atamı hədələmişdi ki, qızı qaçırdacağam. Atam da qorxudan sən istəyən kimi razı oldu. Bu iş olmasaydı, ömründə məni sənə verməzdilər.

Ağaəmi qəhqəhə ilə güldü:

– Verməsəydilər, mən də qaçırdardım. Mənə nə var ey, cavan oğlan idim.

Zərintac onu əli ilə saxladı.

– Yavaş ey, yenə böyrünün sancısı tutar.

– Cəhənnəm olsun sancı-mancı. Dur, Zəriş, geyin get o tində məni gözlə, gəlirəm.

Bunu deyib Ağaəmi yan otağa keçdi və təzə kostyumunu geyinməyə başladı.

* * *

İstirahət günü idi. Günəş hamının üzünə gülürdü. Sərin bir gilavar ağacların budağı ilə oynayırdı.

Zərintac trolleybusdan düşüb oyan-buyana baxdı və donuxub qaldı. Neçə ildir buralara gəlməmişdi, nə qədər dəyişiklik vardı. Qırx il əvvəlki evlər yox idi. Yerində güllü-çiçəkli bir bağ salınmışdı. Təxminən onların ilk dəfə görüşdükləri tin olan yerdə bir hovuz tikmişdilər. Bu hovuzda fəvvarə vuran suyun şırıltısı ətrafa yayılırdı. Bağ adamla dolu idi. Rəngbərəng paltolara, yun parçalara bürünmüş xırda uşaqlar ora-bura qaçışırdılar.

Zərintac bu fəvvarənin yanında dayandı, ora-bura baxmağa başladı. Ağaəmi hələ görünmürdü. Zərintacın ürəyi narahat idi, birdən kişinin halı yolda xarablaşa, birdən sancısı tuta bilərdi. Son illər onu bir an belə olsun tək qoymurdu. Bulvara, gəzməyə də bir yerdə gedirdilər. Çünki qarı öz qocasının xasiyyətini yaxşı öyrənmişdi. Çox vasvası idi, kim hansı dərmanı nişan versə alıb gətirirdi və həkimsiz-məsləhətsiz içməyə başlayırdı. Bu gün isə birdən-birə cavanlıq iddiasına düşmüşdü.

O, fəvvarənin yanında dayanıb bunları düşündüyü zaman üç-dörd uşaq oynaya-oynaya yanına gəldilər. Beş-altı yaşında şeytansifət bir qız Zərintaca baxıb soruşdu:

– Nənə, sən kimi axtarırsan?

Zərintac güldü.

– Sevgilimi axtarıram, ay bala!

Uşaq yenə soruşdu:

– Adı Sevgilidir? Sənin nəvəndir?

– Elə nəvəm kimidir, – deyə Zərintac gülə-gülə cavab verdi. – Özü böyük olsa da, lap xırda uşağa dönübdür.

Bu söhbət zamanı Ağaəmi meydana çıxdı. O, tamamilə dəyişmişdi. Bığları keçi buynuzu kimi yuxarıya qalxmışdı. Bir balaca yan qoyulmuş şapkası, paltosunun altından görünən kəpənək şəklində bağlanmış qırmızı qalstuku, təzəcə silinmiş və par-par parıldayan qara çəkmələri onu təqaüdə çıxmış artistlərə bənzədirdi. Əlində bir dəstə xrizantem var idi. O, Zərintaca yaxınlaşdı, çiçəkləri əda ilə uzadıb dedi:

– Zəriş, qızıl gül tapa bilmədim, buyur.

Zərintac çiçəkləri aldı. Uşaq onun ətəyini çəkib soruşdu:

– Nənə, sevgili budur?

– Budur, ay bala, budur.

Uşaq qəribə bir gülüşlə güldü, yanındakı totuq oğlanın qulağına nə isə pıçıldadı. Onlar qəhqəhə çəkərək getdilər. Ancaq Ağaəmi bunları hiss etmədi. O, gözlərini Zərintacdan çəkmirdi.

– Zəriş, – deyə yavaşdan pıçıldayırdı... – Bir dəqiqə gecikmişəm, məndən küsməmisən ki?

– A, niyə küsürəm ki, sağ-salamat gəlib çıxmısan, şükür, – deyə Zərintac ehtiyatdan onun qoluna girdi və pıçıltı ilə dedi:

– Ağır-ağır gedək. Cavanlaşdığımızdan ürəyimizin xəbəri yoxdur.

Əlbəttə, o zaman küçədə qol-qola getməmişdilər. O zaman Ağa əminin qolu təsadüfən Zərintacın qoluna toxunanda elə bil ikisini də elektrik cərəyanı vurmuşdu. İndi artıq elə deyildi. Yaş keçdikcə elə bil bədəndə işləyən elektrik stansiyası yavaş-yavaş dayanmışdı. Artıq cərəyan yox idi. İndi Ağaəmi Zərintacın əlindən tutanda elə bilirdi öz əlindən tutur. Ancaq öz rolunu çox gözəl oynayırdı: qırx il əvvəl elədiyi kimi yenə də məzəli sözlər danışırdı, gülürdü, Zərişin kefini açmağa, onu məşğul etməyə çalışırdı.

Yeni tikilmiş böyük bir yaşayış binasının qabağında dayanıb soruşdu:

– Bu yer yadındadır?

Zərintac ətrafa baxıb dedi:

– Yadıma gəlmir.

– Bu yerdə xırda dükanlar vardı. Qışda palçıq, yayda tozdan bura ayaq atmaq olmurdu. Hətta sən dedin ki, "məni əcəb yerə gətirib çıxartdın, ayaqqabılarım batacaq". Geri qayıtdıq...

Bu "Qışda palçıq, yayda toz" olan yerdə indi asfalt güzgü kimi parıldayır, ağac ağacla danışırdı.

O biri səkiyə keçdilər. Bir az gedəndən sonra bu səfər Zərintac dayandı. Üzərində "özünəxidmət" yazılmış bir ərzaq mağazasını göstərib soruşdu:

– Bəs bu dükanın yerində nə olduğu yadındadır?

Ağaəmi xeyli düşündü, başını silkələdi. Zərintac dedi:

– Bu dükanın yerində lampa şüşəsi satılan xırda bir köşk var idi. Üstündə də şüşə əvəzinə səhvən "susa" yazmışdılar. Biz də oxuyub gülürdük. Sən də.

– Yadıma düşdü – deyə Ağaəmi onun sözünü kəsdi... – O köşkün yanında da çadralı bir qoca arvad tum satırdı. Mən almaq istədim, sən qoymadın ki, mədəni adam küçədə tum çırtlamaz.

Onlar bu cür xatirələr aləmində dolaşaraq yavaş-yavaş irəliləyirdilər. Bir məktəb binasının qabağında dayanıb xeyli baxdılar. Zərintac otuz beş il qabaq bu məktəbdə müəllimələk etmişdi. Ayrı bir binanın qabağında, skamyanın üstündə oturdular. Bu binada ticarət idarəsi yerləşirdi. Ağaəmi iyirmi ilə qədər bu idarədə baş mühasib işləmişdi. Bir az istirahətdən sonra yenə yollarına davam etdilər. Tez-tez Zərintac soruşurdu:

– Aquş, ürəyin ağrımır ki?

Ağaəmi gülə-gülə cavab verirdi:

Hələ ki bir xəbər yoxdur. Deyəsən bu gün istirahətə çıxıb, ağrımayacaq.

– Aquş, yatmasan başın ağrıyacaq.

– Bu dünyanı qoyub yuxulamaq olar, Zəriş?

Nəhayət, onların ilk görüş yeri olan küçə qurtardı. Aşağıya enmək istəyirdilər ki, "tum-tum" – deyə çığıran xırıltılı bir səs nəzərlərini cəlb etdi. Tumsatan bişmiş alma kimi büzüşmüş, dazbaş, arıq bir kişi idi. Bu cür qocaların yaşını müəyyən etmək çox çətindir. Altmış da vermək olar, həştad da. Ağaəmi Zərintacı tum satan tərəfə çəkdi. Bığaltı gülümsünüb dedi:

– O vaxt qoymadın almağa. Qoy indi bir istəkan tum alım, kef çəkək.

Zərintac onu qolundan dartdı.

– Gəl, gəl. Bu yaşda küçədə tum çırtlayacayıq?

Qoca tumsatan istəkanı doldurub hazır saxlamışdı, onların danışıqlarına qulaq asırdı. Ancaq birdən onda dəyişiklik əmələ gəldi: gözlərini, ağzını açıb təəccüblə dayandı, əlləri əsdi, tum istəkanı ilə bərabər torbaya düşdü. Heyrətlə dedi:

– Zərintac!

Zərintac da, Ağaəmi də tez qocaya tərəf döndülər. Zərintac qorxu ilə ərinin qolundan tutdu, yavaşdan pıçıldadı:

– Baloğlan.

Qoca həyəcandan bir az da xırıldayan səsi ilə cavab verdi:

– Bəli, baloğlan... Mən sizi o saat tanıdım. Bu, – deyə o, Ağaəmini göstərdi.. – Bu yanındakı səni mənim əlimdən alan namərd deyilmi?

Ağaəmi:

– Ey, ey, namərd özünsən, – deyə əsəbi halda cavab verdi.

– Namərd sənsən, – deyə Baloğlan bir az da xoruzlandı. – Bu məhəllədə heç kəs mənim qorxumdan Zərintacın adını çəkə bilmirdi. Bilmirəm sən hardan gəlib çıxdın?

– O əhvalatın üstündən qırx il keçib, indi mənimlə davaya çıxacaqsan?

– Çox hərlədim səni, heyif ki, əlimə keçmədin. Onu alsaydım, – deyə Baloğlan Zərintacı göstərdi – mən də bir adam olmuşdum, sənin kimi cavan qalmışdım. İyirmi beş yaşında oğlana oxşuyursan. Amma mən... Bazarnıda gur-gur guruldayan qəssab dükanından gəlib düşdüm tum satmağa.

O, bürüşmüş, sulu gözlərilə hər ikisini süzdü, sonra acıqla çığırdı:

– Gedin, gedin, müştərinin qabağını tutmayın. Tum alan, ay tum alan...

Onlar Baloğlandan ayrıldılar. Zərintac qorxu ilə Ağaəmiyə baxdı. Əsəbiləşəndə o, həmişə əsim-əsim əsirdi. Amma gördü ki, yox, kişinin üzü gülür.

– Nə var Aquş, Baloğlan sənə ləzzət verdi deyəsən?

– Baloğlan yox... Onun nəyi adama ləzzət verə bilər? Elə bil keçmiş zamanın canlı heykəlidir. Amma bir sözü mənə xoş gəldi. Eşitdin nə dedi: "İyirmi beş yaşında oğlana oxşuyursan". Deməli cavan qalmışam, hə, Zəriş? Deməli, sən məni yağ içində böyrək kimi saxlamısan, hə, Zəriş?

* * *

Restoranda yemək yedilər. Ağaəmi elə iştahla yeyirdi ki, Zərintac ondan gözünü çəkə bilmirdi. Restorandan çıxıb kinoya getdilər. Ağaəmi bir dəfə də olsun "oram ağrayır – buram ağrayır" sözünü demədi. Onda yorğunluq əlaməti də yox idi. Axşam üstü gün batanda Dağüstü parkdan şəhərə tamaşa etməyə başladılar. Şəhər yaşıllıq içində idi. Mazutdan qaralmış köhnə evlərin arasından təzə tikilmiş ağ, qəşəng evlər baş qaldırıb günəşi yola salırdılar. Zərintac düşüncə içərisində dedi:

– Bu qırx il bizi qocaltdı, şəhəri cavanlaşdırdı.

– Qocalığın adını çəkmə, arvad! – deyə Ağaəmi Zərintacın qolunu bərk sıxdı. Artıq mən onun dərmanını tapmışam. Təmiz hava, gəzmək, dolanmaq... xoş sözlər... Dadlı, şirin xatirələr... Həmişə kefini kök tut, dərdi-qəmi özünə yaxın qoyma. Pisi yaddan çıxart, yaxşını doldur şüşələrə, hər gün dərman əvəzinə iç. Bundan sonra qocaldıqdan bir kəlmə danışsan Baloğlana xəbər göndərəcəm ki, gəlib səni qaçırtsın.

Bu sözə ikisi də qəhqəhə çəkib uşaq kimi güldülər.

* * *

Evə gələn kimi Ağaəmi stolun üstünə yığdığı dərmanları zibil yeşiyinə atdı və Zərintaca dedi:

– Bundan sonra sənə bir yerim ağrıyır desəm, onda həqiqətən namərd olaram. Hazırlaş, səhər tezdən gedirik rayona. Nəvələrimizi görməyə. İndi isə mənə yemək ver, davasız-dərmansız acmışam.

1964

TÜKƏZBAN XALANIN MƏKTƏBİ

Tərbiyə hekayələri silsiləsindən

Günlərin bir günündə Tükəzban xala xəstələndi və Yaşar qaldı ortada. Zakir ilə Mina başlarını itirdilər. Uşağı neyləsinlər, harda qoysunlar? Axırda qərara gəldilər ki, elə günü bu gün uşağı bağçaya aparsınlar, canları qurtarsın. Bu vaxta kimi yanlarında bağça adı çəkmək olmurdu. Nədənsə onlara elə gəlirdi ki, bağça uşağı xarab eləyir, tərbiyəsini pozur, orda onun geyiminə, yeməyinə baxan olmayacaq və ilax... Bu yeni fikirlər onları hər zaman narahat eləyirdi. İndi artıq əlac yox idi. Qocalığına baxmayaraq sap-sağlam olan Tükəzban xala birdən-birə qrip olmuşdu, bu xəstəliyin Yaşara sirayət eləməsi qorxulu idi, ona görə də uşağı tələsik bağçaya düzəltmək daha əlverişli idi. Heç olmasa bir neçə günlüyə. Bir neçə günə uşağın tərbiyəsi pozulmayacaqdı ki?..

Yaşarı tələm-tələsik geyindirib yola düşdülər. Yaşarla bir yerdə küçəyə çıxmaq ata-anası üçün əzab idi. Onu elə öyrətmişdilər ki, "Al" sözündən başqa heç nə bilmirdi. O dükan yox idi ki, Yaşar qabağında dayanıb çığırmasın: "Ald". Oyuncaq gördü – "al," kitab gördü – "al", dondurma satana rast gəldilər – "al", Yaşar ata-anasına "al"dan başqa ayrı söz demirdi. Bu xasiyyətini bildikləri üçün onu dükan olmayan yollarla, dolama-dolaşıq küçələrlə aparırdılar.

Yaşarın atası Zakir elmlər namizədi idi. Anası Mina isə can həkimi. İkisi də oğlanlarından uzaq idilər. Zakir əvvəl vaxtlar (Yaşar kiçik olanda), gecə-gündüz dissertasiya yazmaqla məşğul idi. Nəinki oğluna baxmağa, çörək yeməyə belə vaxtı olmurdu. Bu vaxt hələ Mina tibb institutunda oxuyurdu. Uşağı Minanın anası Tükəzban xala saxlayırdı. Sonra Zakir mudafiə elədi, Mina da institutu qurtardı. Ancaq yenə də uşaqla məşğul olmağa vaxt tapmadılar. Mina iki yerdə işləyirdi. Gündüzlər rayon həkimi kimi evləri gəzir, axşamlar da xəstəxanada növbə çəkirdi. Zakirin isə müdafiədən sonra dərsləri ikiqat artmışdı. İki institutda dərs dediyinə baxmayaraq, hələ elmi bir müəssisədə yarım ştat işləyirdi. Uşağa yenə də Tükəzban xala baxırdı. Onlar uşağı yalnız gecələr yanlarında yatırdırdılar. Səhər tezdən Mina işə gedəndə Yaşarı nənəsinin yanına aparır, axşam isə Zakir

evə gətirirdi. Yaşar səhər yuxulu-yuxulu evdən çıxır, axşam da yorğun və yenə də yuxulu evə gəlirdi. İmkan olsaydı onlar Yaşarı heç evə gətirməzdilər. Ancaq Tükəzban xalanın otağı çox balaca idi. Uşaq havasız otaqda yata bilməzdi.

Onlar Yaşarın bütün günü neylədiyini, nənəsinin yanında nə ilə məşğul olduğunu bilmirdilər. Səhərlər yuxudan durmaq, geyinmək, yemək və küçəyə çıxmaq elə sürətlə olurdu ki, ana oğlunun üzünə baxmağa imkan tapmırdı. Yolu da qaça-qaça gedirdilər. Yaşar yol uzunu anasına nə isə danışırdı, ancaq Minanın fikri xəstələrində idi, əhəmiyyət vermirdi. Ərinə deyirdi:

– Bütün yolu ay danışır ha...

Zakir gülüb cavab verirdi:

– Mən evə gətirəndə də danışır. Qorxuram böyüyüb demaqoq ola.

Bu fikir onu qorxutmur, əksinə güldürürdü.

Nəhayət gedib bağçaya çatdılar. Bağça çox mərtəbəli təzə bir binanın birinci mərtəbəsində yerləşirdi. Qapını açıb işıqlı bir koridora girdilər. Ağ xalat geymiş gənc bir qız onları qarşıladı, bağçaya təzə uşaq gətirildiyini görüb dedi:

– Bu saat müdirəmiz Həlimə xanımı çağırım. Oturun. Gözləyin.

Qız müdirəni çağırmaq üçün getdi. Onlar dinməz oturub gözlədilər. Adətən, evdə nadinc olan, necə deyərlər, daşı-daş üstündə qoymayan Yaşar küçəyə çıxan kimi nənəsinin təbiri ilə desək dilini qarnına qoyur və barmağını belə tərpətmirdi. Bu gün də o, qərib adamlar kimi anasına qısılıb dayanmışdı.

Bir azdan uca boy, ağ saç, nurani siması olan bir qadın, müdirə Həlimə xanım içəri girdi və onlarla görüşdü.

Mina özünü tanışlıq vermək istədikdə Həlimə xanım gülümsünərək:

– Mən sizi tanıyıram, – deyə onun sözünü kəsdi; – buyurun, mənə dair qulluğunuz.

Mina sumkasından bir dəstə kağız çıxara-çıxara dedi:

– Bu uşağı bağçaya gətirmişik. Budur kağızları da var.

Həlimə xanım Yaşara baxdı, bir ana nəvazişilə onun pırpız tüklərini sığalladı, sonra soruşdu:

– Adın nədir, bala?!

Yaşar Həlimə xanımın üzünə baxdı, sonra dönüb anasından soruşdu:

– Cavab verim?

– Əlbəttə, – deyə Mina oğlunu qucaqladı, – böyük söz soruşanda adam cavab verər.

Yaşar təəccüblə dedi:

– Bəs nənəm deyir ki, hər soruşanın dilinə dil vermə.

Bu sözü eşidən kimi atası Yaşarı dümsüklədi və dişlərini qıcıyıb hirslə pıçıldadı:

– Ayıbdır, müəlliməyə adını de!

Yaşar Həlimə xanımı başdan ayağa kimi süzdü, sonra laubalı cavab verdi:

– Adım Cuppuludur.

Bu sözə Zakir də, Mina da güldülər. Həlimə xanım da gülümsündü. Yenə Yaşarın başını sığallayıb dedi:

– Cuppulu ad olmaz, ay bala!

Nədənsə Yaşar bu nəvazişdən xoşlanmadı, dəli keçilər kimi kənara sıçrayıb tərs-tərs cavab verdi:

– Hamı mənə Cuppulu demir ki? Təkcə nənəm...

– Bəs atan sənə nə deyir ?

– Şar.

– Nə?

– Şar da ad olar?

– Kök, yumru olduğum üçün atam mənə şar deyir.

– Bəs anan sənə nə deyir?

– Yaşar.

– Hə, deməli sənin adın Yaşardır?

– Bəs familyan nədir?

– Familyam yoxdur, – deyə Yaşar tez cavab verdi.

– Familyan var, ancaq sən bilmirsən. Sonra ata-anandan soruşub öyrənərsən.

Həlimə xanım bu sözü deyib əlindəki kağızları qoymaq üçün masasına tərəf getdi, o zaman o, Yaşar ilə anası arasında böylə bir pıçıltı eşitdi.

Yaşar – Bu arvad mənim lap ürəyimi üzdü.

Mina – Sus, elə danışma, eşidər. Səni bağçaya götürməz.

Bu pıçıltı Həlimə xanımı geri qayıtmağa, Yaşarı bir az da sınaqdan keçirməyə məcbur elədi. O əyilib uşağın üzünə baxdı və soruşdu:

– Hansı küçədə yaşayırsınız?

– Nikolayevskidə, dumun yanındı.

– Ora haradır? Mən elə adres tanımıram.

– A... – deyə Yaşar təəccüb, etiraz dolu bir səs çıxartdı, üz-gözünü qoca arvadlar kimi büzüşdürdü və ata-anasına müraciətlə dedi:

– Qara gün, heç yeri tanımır ki...

Bu sözdən sonra Zakirlə Minanın təbəssümləri donub dodaqlarında qaldı. Həlimə xanım qapqara qaraldı, ancaq üzə vurmayıb uşaqdan soruşdu:

– Hərfləri oxuya bilərsən?

– Yox a... qramotum yoxdur.

Həlimə xanım nə isə düşündü və sualları dalbadal verməyə başladı:

– Oğlum, de görüm böyüyüb nə olacaqsan?

– Təqaüdçü.

– Məktəbə nə vaxt gedəcəksən?

– Elə günü bu gün gedərəm, bunlar aparmırlar ki? (Ata-anasını göstərdi) öz keflərindədirlər.

– Nənən səni çox istəyir.

– İstəyirdi. Amma indi zəhləsini tökmüşəm, deyir ki, sən məktəbə gedən günü Bibiyə nəzir aparacam.

– Bibi kimdir?

– Bibi heybətin böyüyü... Nənəm deyir gecələr gəlir, gündüzlər yoxa çıxır. Nəzir aparandan xoşu gəlir.

Həlimə xanıma diqqətlə baxıb göz vurdu:

– Rüşvət alır da...

– Şeir oxumaq bilirsən?

– Şey? Şey nədir?

– Şey yox, şeir. Yaz barədə, quşlar barədə.

– Ürəyimi çəkmə sən Allah. Şey nədir?

Sonra da anasına tərəf dönüb dedi:

– Məmə, bu kaftar məni çox incidəcək?

Heç kəsin gözləmədiyi bu söz Həlimə xanımı elə sarsıtdı ki, o birdən birə qapqara qaraldı. Sual dolu gözlərlə ata-ananın üzünə baxdı. Onlar isə utandıqlarından başlarını aşağı dikdilər. Mina xəcalət çəkə-çəkə dedi:

– Düzünü bilsəniz onun böyüməsindən bizim xəbərimiz olmayıb, həmişə nənəsilə qalır.

Bu söz Yaşarın xoşuna gəlmədi, tez dilləndi:

– Həmişə qalmıram, ay məmə, həzrət Abbas haqqı, bir ay oruclu-ğu nənəmin qonşusugildə keçirtmişəm. Ağzı oruc həmişə nənəmin hövsələsi dar olur, ona görə də məni qonşuya qovur, qonşuda da arvad düzdür yaxşı arvaddır, ancaq bir az əli əyridir, nənəmin kibritini çırpışdırıb, amma əri xuliqan peçat. Özü də daş-başçı, gündə yüzlüyə pul demir. Nənəm deyir əvvəl-axır onun yeri qazamatdır...

Zakir elə hirslənmişdi ki, dodaqları titrəyirdi. O dişini dişinə sıxıb dedi:

– Daha bəsdir, kəs, danışma.

Yaşar bu sözü ayrı cür başa düşdü. O elə zənn elədi ki, atası sözü-nə inanmır, ona görə də balaca barmaqlarilə kök üzünü şappıldadıb atasına müraciətlə dedi:

– Bu ölsün.

Həlimə xanım yumşaq, lakin qəti səslə dedi:

– Daha kifayətdir.

Yaşar yenə nə isə demək istəyirdi, Mina qolundan çəkdi, Həlimə xanım ona qapını göstərib dedi:

– Ay bala, sən o koridorda gözlə, ata-ananla iki kəlmə sözüm var.

Vəziyyətin çox ciddi olduğunu Yaşar da başa düşmüşdü. O yavaş addımlarla otaqdan çıxdı. Həlimə xanım onun arxasınca baxıb Mina-dan soruşdu:

– Nənəsinin adı nədir?

– Tükəzban.

Həlimə xanım acı bir təbəssümlə onların hər ikisinə müraciətlə dedi:

– Sizin oğlunuz Tükəzban xalanın məktəbini əla bitirib, ona görə də bizim bağçaya yaramır.

Mina təəccüblə soruşdu:

– Götürmürsünüz?

– Yox! – deyə Həlimə xanım qəti cavab verdi: – Əvvəlcə tərbiyə eləyin, sonra bağçaya gətirin. Burda bizim gözəl uşaqlarımız var, müa-sir, mədəni, tərbiyəli, şeir, mahnı oxuyurlar, məktəbə getməyə hazır-laşırlar. Sizin oğlunuzu götürüb bu uşaqların tərbiyəsini təhlükə altına almağa mənim ixtiyarım yoxdur. Bir il evdə onunla məşğul olun.

Zakir:

– Sizin ixtiyarınız yoxdur... – deyə nə isə söyləmək istəyirdi ki, Həlimə xanım:

– İxtiyarım var... – deyə onun sözünü kəsdi. – Mən yaşda da sizdən böyüyəm, təcrübədə də. Siz ikiniz də müasir dövrdə doğulub tərbiyə almısınız. Böyütdüyünüz uşaq isə yeddi yaşı olduğuna baxmayaraq elə bil on doqquzuncu əsrin adamıdır, bazardan gəlib, alverçilərin məclisində yetişib.

Bu səfər Mina nə isə demək istəyirdi ki, koridorda bir haray qalxdı, Yaşarın səsi eşidildi. Həlimə xanım:

– Gedin!.. – deyə onları yola saldı. – Oğlunuzu da özünüzlə aparın, yoxsa bağça uşaqlarının istirahətini poza bilər.

Evə necə gəldiklərini bilmədilər. Yaşarı bir saatlığa qonşuya tapşırıb qaçdılar Tükəzban xalanın üstünə.

Tükəzban xala başını yun şal ilə bağlayıb yorğan döşəyin içində oturmuşdu, zəncəfil ilə çay içirdi. Onları görən kimi stəkanı bir tərəfə qoyub əllərini dizlərinə vurdu, qorxu ilə çığırdı:

– Vay, dədəmin evi yıxılsın, cubbuluya nə olub?

Mina:

– Heç bir şey olmayıb, – deyə əvvəlcə anasının nəbzinə baxdı, əlilə qızdırmasını yoxladı, sonra zəncəfil dəmlənmiş çayniki pəncərənin içinə qoyub, bir stul verdi, özü də ayrı bir stulun üstündə oturdub

– Ana! – deyə sözə başladı. – Əvvəla budur ki, yüz dəfə sənə demişəm, zəncəfil ürəyini döyündürür, içmə. Sonra bu isti paltarlara bu qədər bürünmə. Dəhlizə çıxanda təzədən soyuq dəyər.

Tükəzban. Neyləyim? Ha eləyirəm özümü tərlədə bilmirəm, tərləsəm yaxşı olaram.

Mina. Mən sənə dərman verərəm, tərləyərsən.

Zakir. Mətləbə keç.

Zakirin bu sözü Tükəzban xalanı təzədən qorxutdu.

– Mina, nə olub, açıq danış, balam hardadır? – deyə qızına yalvardı.

– Balana heç nə olmayıb, evdədir, – deyə Mina onun sözünü kəsdi və bir az düşünüb dedi:

– Məsələ orasındadır ki, Yaşarı uşaq bağçasına qoymaq istədik, götürmədilər.

Mina tutulub qaldı, bir söz deyə bilmədi, Zakir onun sözünü tamamladı:

– Çünki nənəsi onun tərbiyəsini pozub, uşaq elə gündədir ki, müəllimin suallarına adam kimi cavab verə bilmədi. Elə bil bu dünyada böyüməyib, ayrı bir dünyadan gəlib.

Tükəzban xala qıp-qırmızı qızardı, balaca, bürüşmüş, ancaq xəncər kimi iti gözlərini kürəkəninin gözünə dirəyib bir qədər dayandı, sonra elə bil hansı qüvvə isə onu cavanlaşdırdı:

– Aha!.. – deyə iti səslə bərkdən səsləndi. – Deməli ikinizin də başınız daşa dəyib, ona görə də ayılıb mənim yanıma gəlmisiniz?

Mina təəccüblə ərinə baxdı:

– Bu nə sözdür?

Tükəzban xala onların hərəkətlərinə, sözlərinə əhəmiyyət vermədən sözünə davam elədi:

– Deməli ata-ana olduğunuzu indi başa düşmüsünüz? Bəs mən sizə oğlunuzdan şikayət eliyəndə, "sözümə baxmır" deyəndə qulaq asmırdınız, deyirdiniz "Qocasan, geri qalmısan, bircə nəvənə baxmaq istəmirsən?" – Səhər tezdən gətirib yanımda qoyub bir də gecə dalınca gəlirdiniz, fikirləşmirdiniz ki, mən tək qoca arvad bu uşağı necə saxlayıram? Ağzımı açan kimi pul çıxardıb verirdiniz, elə bilirdiniz ki, hər məsələni pul ilə həll etmək olar. Bəs o pula bir şey almaq lazımdır ya yox? Bir xörək bişirib uşağa vermək lazımdır ya yox? Hava xoş olanda onu da özümlə bazar-dükana aparırdım, hava xarab olanda qonşuya tapşırırdım, onlar da ki savadsız, tərbiyəsiz adamlardır. Qızımsan, heç olmasa bir dəfə soruşa idin ki, ana sənə kim bazarlıq eləyir?

– Özün bilirsən ki mən işləyirəm, ana!

– Bəs ərin?

Zakir hirslə dedi:

– Mən bekar deyiləm ki? Mən də işləyirəm də...

Zakirin bu sözü hirsli deməyi Tükəzban xalanı lap özündən çıxartdı. O, uzun sümüklü barmaqlarını Zakirə tərəf uzadıb çığırdı:

– İkiniz də işləyirsiniz. Eləmi? Uşaqla məşğul olmağa, ona kitab oxumağa, şeir öyrətməyə vaxtınız yoxdur, eləmi? Bəs futbola getməyə vaxt tapırdın? Dostlarınla bulvara getməyə, inturistə getməyə, saatlarla nərd oynamağa vaxt tapırdın?

Tükəzban xala üzünü qızına çevirdi:

– Bəs sən dərzilərə, dəlləklərə getməyə, saatlarla telefonla danışmağa vaxt tapırdın? İki yerdə işləməyin, bir yerdə işləyin. Gərək mütləq özünüzü həlak eləyib maşın alasınız? Oğlunuzun tərbiyəsi sizin üçün maşından qiymətsiz idi?

Tükəzban xala elə tərləmişdi ki, üzü yağ sürtülmüş kimi işıldayırdı. Ağ cunayı dəsmal ilə üzünü silib Minaya dedi:

– Mən tərləyib yaxşı oldum, sənin dərmanına ehtiyacım qalmadı.

Zakir ayağa qalxdı, Minanın qolundan tutub gülə-gülə Tükəzban xalaya dedi:

– Nənə! Biz tərlədik və ayıldıq. Bu gün, biz iki dəfə məktəb qurtardıq, bir uşaq bağçasının məktəbini, bir də Tükəzban xalanın məktəbini.

* * *

Onlar qapıdan çıxanda Tükəzban xala arxalarınca çığırdı:

– Teatra, kinoya gedəndən-gedənə balamı gətirin yanıma.

fevral, 1970

KİTABDAKILAR

POYESLƏR

Əliqulu evlənir 7
Yalan 80
Dirilər 144

HEKAYƏLƏR

Şirin bülbül 223
Nəfəs pulu 233
Çiy ət 239
Ceyran 242
Altı qızın atası 245
Yeni il hədiyyəsi 250
Cənnət xuliqanı 255
Nadir şah 271
Ərəboğlu 275
At 283
Əllər 286
Qanlı məktub 291
Darvaza dram cəmiyyəti 295
İlk tamaşa 299
Hər ürəkdə sevgi var 305
Cavanlıq dərmanı 311
Tükəzban xalanın məktəbi 319

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Korrektor: *Rəhilə Quliyeva*

Yığılmağa verilib 29.11.2004. Çapa imzalanıb 17.06.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 20,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 156.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.